# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

№ 1 ‘ 2003

BAKI - 2003

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

Elmi-nəzəri təcrübi jurnal

№ 1 ' 2003

1997-ci ilin
oktyabrından çıxır

№ 1 (12)

BAKI – 2003

## BU NÖMRƏDƏ


**KİTABXANAŞÜNASLIQ**

Xəlil İsmayılov. Kitabxana fəaliyyətinin metodik təminatı

Zöhrab Baxşəliyev, Aynurə Sultanova. Azərbaycan Parlament Kitabxanası: yaranma tarixi və müasir vəziyyəti

Əli Rüstəmov. «İnformatika»nın sahəvi strukturu və kitabxanasünaslıq elmləri ilə qarşılıqlı əlaqələrinin bəzi məsələləri

Mayıl Həsənov. Heydər Əliyevin əsərlərinin kitabxanalarda komplektləşdirilməsi məsələləri

Knyaz Aslan. Şəxsiyyətin formalaşması problemi

Tərlan Muxtarov. Kitabxana menecmenti: problemlər, perspektivlər.

**BİBLİOQRAFİYAŞÜNASLIQ**

Zöhrab Əliyev. Azərbaycanda biblioqrafik fəaliyyətin bəzi təşkili məsələləri

**KİTABŞÜNASLIQ**

Mehmanəli Məmmədov. Tibb ədəbiyyatının çeşidləri

Səbinə İsayeva. Folklorşünaşlıq elminə dair qiymətli monoqrafiya

**BEYNƏLXALQ ƏMƏKDASLIQ**

Xəlil İsmayılov. Təhsil və kitabxana işində beynəlxalq əlaqələrin rolu

Əliyusif Məmmədov. Fransa və Azərbaycan: kitabxana mütəxəssisləri arasında professional əlaqələr.

**TƏBRİK EDİRİK**

Xəlil İsmayılov. Müqəddəs insanın mənalı ömür yolu (Zöhrab Əliyev-70)

**Xəlil İSMAYILOV**
*Pedaqoji elmlər namizədi, dosent*

# KİTABXANA FƏALİYYƏTİNİN METODİK TƏMİNATI

Kitabxanaların metodik təminatı öz inkişafının bütün mərhələlərində cəmiyyətdə kitabxana-informasiya infrastrukturunun, kitab və kitabxana işinin, əhaliyə kitabxana xidməti prosesinin ayrılmaz bir sahəsi kimi bu prosesə güclü təsir göstərmiş, onun optimallaşdırılmasının nəzəri-metodik və təşkilati əsaslarını yaratmışdır. Şübhəsiz ki, kitabxana işinin bütün sahələri kimi metodik təminat sistemi də öz inkişaf tarixində mərhələdən-mərhələyə kitabxana prosesinə müdaxilə etmək, bu prosesdə «katalizator» rolunu oynamaq yollarını, taktikasını, forma və metodlarını dəyişmiş, yeniləşmiş və bundan sonra da yeniləşməlidir. İnkişafın nəticəsi olan bu dəyişmənin və yeniləşmənin qanunauyğunluqları, qeyd etdiyimiz kimi, dünya kitabxana-informasiya məkanında baş verən mürəkkəb proseslərlə izah edilir. Bu baxımdan müasir dövrdə əsas vəzifə metodik təminat sistemində baş verən yeniləşməni düzgün istiqamətləndirməkdən ibarət olmalıdır. Uzun illərdən bəri yaradılmış kitabxanaların mərkəzləşdirilmiş idarəetmə sisteminin ləğv edilməsi bu gün kitabxanalara metodik rəhbərlik işinə yenidən baxılmasını tələb edir. Hələ SSRİ dövründə uzun illər formalaşdırılmış inzibati və elmi metodik idarəetmənin yeni formada və yeni məzmunda nəzərdən keçirilməsi olduqca vacibdir. Metodik təminat işində inzibati-amirlik və totalitar rejimdən fərqli olaraq demokratik prinsiplərə əsaslanmaqla metodik təminatın yeni forma və üsullarından istifadə etməklə kitabxana fəaliyyəti istiqamətləndirilməlidir. Məlum olduğu kimi, metodik rəhbərlik kitabxanalar tərəfindən kitabxana işinə inzibati rəhbərlik kimi başa düşülür və qəbul edilirdi. Ona görə də metodik rəhbərlik işinin əsasını elmi metodik iş yox, inzibati-amirlik fəaliyyəti kimi başa düşürdülər. Belə ki, kitabxana təcrübəsində kitabxana işi-

nə bu cür metodik yanaşma ona gətirib çıxartdı ki, kitabxana işinə rəhbərlik bütövlükdə inzibati qərarların yerinə yetirilməsinə yönəldildi və heç bir elmi-metodik əsası olmayan qərarların yerinə yetirilməsi ilə nəticələndi.

İnzibati-idarəetmə metodu rəhbərliyin fəal iş üsulu kimi metodistlərin fəaliyyətinə çox aktiv şəkildə tətbiq olunmağa başladı. Bu sistemdə kitabxanaların inzibatçı rəhbərlərinin köməkçiləri kimi metodistlər öz fəaliyyət istiqamətlərini də dəyişdilər. Nəticədə kitabxanalarda çalışan metodistlərin fəaliyyətində onların özləri də bilmədən bir sıra neqativ hallar baş verdi ki, onlar bir çox məcburi elmi-praktik işləmələr hazırlamağı və onları kitabxana işində məcburi tətbiq etməyi qarşıya məqsəd qoydular. Onların çoxunda heç bir elmi-metodik əsaslandırma, təhlil və araşdırma olmasa da, bütün kitabxanalar üçün tətbiq zəruri hesab edilirdi.

Halbuki metodik işləmələr və tövsiyələr təhlil, elmi-metodik əsaslandırma, məntiqi dərketmə, real təcrübi işə əsaslanmaqla hazırlanmalı idi. Əlbəttə, bütün bunlar totalitar rejimin inzibati-amirlik metodlarının nəticəsi kimi formalaşmışdır. Belə amiranə iş formaları və metodları sənədlərin tərtibi, hazırlanması, tirajının çoxaldılması və məcburi qaydada yerlərə göndərilməsi elmi-metodik işin həyata keçirilməsində açıq bürokratizm nümunələrinin yaradılmasını təsdiq edirdi.

Bütün bu kimi tədbirlərin həyata keçirilməsi metodik mərkəzlər arasında bir bəhsləşmə, öz işlərini nümayiş etdirmə hallarını meydana çıxarmışdı və onlar öz kitabxanalarının fəaliyyətini hər addımda göstərməyə çalışırdılar. Hətta tipindən və növündən asılı olmayaraq bütün kitabxanaların işində bəzi spesifik cəhətlər nəzərə alınmadan vahid iş formaları diqqətdə tutulurdu. Hətta partiya – dövlət qərarlarına uyğun kampaniya xarakterli tədbirlərə dair kitab sərgiləri, konfranslar, müşavirələr keçirilməsi, məcburi ədəbiyyat siyahıları-nın «tövsiyələr» kimi çap olunması və s. bütün kitabxanaların fəaliyyətini eyniləşdirirdi.

Nəticədə bütün sahəvi kitabxanaların fəaliyyətinə eyni prizmadan baxmaq meylləri artırdı.

Əlbəttə, kitabxana işinə eyni prizmadan yanaşma hazır «reseptlər» əsasında işləmək metodları, xüsusilə ixtisaslaşdırılmış kitabxanaların fəaliyyətini kölgədə qoyur, hər bir kitabxana işçisinin spesifik fəaliyyətini, onların yaradıcılığını və təşəbbüskarlığını zəiflədir, müstəqil qərarlar qəbul etməyə mane olurdu.



Halbuki hamıya məlum idi ki, hər hansı bir kitabın müzakirəsini, hər hansı bir kitab sərgisini metodik mərkəzlər yox, hər bir kitabxana işçisinin özü oxucularının marağına, peşəsinə və onların tələbinə uyğun olaraq həyata keçirməlidir. 1970-ci illərin axırı - 1980-ci illərin əvvəllərində SSRİ-də və o cümlədən Azərbaycanda MKS-lərin yaradılmasından sonra metodik təminat işində yeni təşkilati problemlər yarandı. Bununla yanaşı, MKS-lərin nəzdində təşkilati- metodiki şöbələr yaradıldı ki, onlar bilavasitə filial kitabxanalarında aparılan metodik işin həyata keçirilməsinə nəzarət edirdilər. Əgər mərkəzləşməyə qədər filial kitabxanalarının müdirləri (kitabxana müdirləri) öz müəssisələrinin işini müstəqil olaraq həyata keçirirdilərsə, indi, yəni MKS-lər yaradıldıqdan sonra vahid plan əsasında eyni tipli işlərin həyata keçirilməsi nəzərdə tutulurdu ki, bu da filial kitabxanalarının müdirlərini təşəbbüskarlıq və yaradıcı işlərdən uzaqlaşdırırdı. Faktiki olaraq filial kitabxanalarının müdirləri komplektləşmə və kitabişləmədən də azad olduqları üçün əslində ancaq kitab verilişi ilə məşğul olur, digər bütün işlərə cavabdeh olmurlar. Bu gün MKS-lərdə və metodik mərkəzlərdə elə metodistlər var ki, onlar hər hansı metodik işləmə və göstərişləri məcburi olaraq kitabxana işçilərinə tövsiyə edirlər. Çox qəribədir ki, metodik mərkəzlərin və şöbələrin bu cür inzibati əmretmə fəaliyyəti nəinki bir çox kitabxana işçilərinin ciddi etirazına səbəb oldu, əksinə, bir çoxları yuxarıdan göstərişlər əsasında işlərin hətta tipindən və növündən, profilindən və oxucu qrupundan asılı olmayaraq bu cür fəaliyyəti alqışladılar. Əslində yuxarıdan tapşırıqlar əsasında göstərişlərin verilməsi bir növ yerlərdə kitabxana işçilərinə «şparqalkalar» hazırlamaq və korkoranə onları hər hansı bir işə məcbur etmək idi.

Metodik mərkəzlərin və MKS-lərin metodik şöbələrinin metodistlərinin bütün kitabxanalara eyni tipli işləri məcburi tövsiyə etməsi ona gətirdi ki, kitabxana işçiləri öz yaradıcılıqlarını və təşəbbüskarlıqlarını itirdi, onlar demək olar ki, ələbaxımlığa, yuxarıdan göstərişlər əsasında vərdişlərə öyrəndilər. Həmçinin respublikamızda uzun müddət yuxarıdan göstərişlərə uyğunlaşmış kitabxana işçiləri gözləmə mövqeyində dayandılar. Xüsusilə respublikamız müstəqillik əldə etdikdən sonra respublikamızın bütün kitabxana şəbəkələrində bu gözləmə mövqeyi davam etməkdədir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, respublikamızın bütün kitabxana şəbəkələri və sistemlərində təxminən 600 nəfərə yaxın metodist çalışır ki, onların əksəriyyəti özlərini inzibatçi-yoxlayıcı, inspektor-təlimatçı kimi təqdim edir, rəhbər işçi kimi yerlərə gedərkən hər işə müdaxilə edir. Halbuki onların gedişləri, işləmələri və tövsiyələri kitabxana işçilərinə köməklik göstərməkdən, aktual məsələləri müzakirə edərək onların həlli üçün birgə çıxış yolu tapmaqda yardımçı olmaqdan ibarətdir. Metodik fəaliyyət prosesində kitabxanaçılara qarşıda duran vəzifələrin yerinə yetirilməsində şablonçuluqdan imtina etməyi, müstəqil, cavabdeh və professional şəxs kimi düşünməyi və yaradıcı vərdişlərə yiyələnməyi öyrətmək lazımdır.

Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra dünya ölkələri ilə bir sıra beynəlxalq əlaqələrin yaradılması, respublikamızda demokratik dövlət quruculuğu, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi kitabxana işi sahəsində, o cümlədən idarəetmə və xidmət işində bəzi yeniliklərin aparılmasını tələb edir. Odur ki, bütün sahələrdə olduğu kimi, metodik rəhbərlik anlayışının özünün, onun məzmununun müasir tələblərə uyğun yenidən qurulması, əlbəttə, dünya təcrübəsinə əsaslanmaqla kitabxanaların fəaliyyətinin demokratikləşdirilməsi, xüsusilə kitabxanaların metodik təminatının inzibati-amirlik metodu ilə informasiya funksiyalarının gücləndirilməsi məsələlərinə üstünlük verilməlidir. İnformasiya funksiyası dedikdə metodik fəaliyyətin və onun tətbiq obyekti olan kitabxana işinin vəziyyəti və inkişaf yolları ilə əlaqədar ölkədaxili və xarici metodik məlumat bazasının formalaşması və müvafiq informasiyanın metodik işdə səmərəli istifadə edilməsi nəzərdə tutulur.

Əlbəttə, əvvəllər də metodik təminat sisteminin qurulması tövsiyə xarakterli, metodik köməklik prinsipi əsasında həyata keçirilməsi kimi nəzərdə tutulmuşdu. Lakin tədricən metodistlər yerlərə gedərkən özlərini inzibatçı kimi təqdim etmiş və zaman keçdikcə həm metodistlərdə, həm də kitabxana işçilərində bu münasibətlər vərdişə çevrilmiş və hər iki tərəf metodik işi bir növ məcburi, inzibati iş kimi qəbul etmişlər.

Hazırda keçid dövrünü yaşayan Azərbaycan kitabxana ictimaiyyəti metodik təminatın bir sıra hallarda məcburi, inzibatçılıqla həyata keçirilməsini də müəyyən mənada narazılıqla qarşılamışlar. Bir çox kitabxanaçılar metodik təminat işinin yenidən qurulmasını,



bəzi hallarda isə kitabxanaçıların öz müəssisələrinin idarə edilməsində müstəqil olmalarını tələb edirlər. Bir sıra rus alimləri isə metodik təminata ehtiyac olmadığını söyləyirlər. Onlar fikirlərini belə əsaslandırırlar ki, artıq kitabxana işçiləri yüksək ixtisaslıdırlar və müəyyən təcrübəyə malikdirlər. Onların işinin metodik cəhətdən istiqamətləndirilməsinə o qədər də ehtiyac yoxdur. Hər bir kitabxanaçının özü metodist olmalı və öz işinə yaradıcı yanaşmalıdır.

Lakin nəzərə almaq lazımdır ki, BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin hazırladığı 5000 nəfərdən çox yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrların çox cüzi bir hissəsi kitabxanalarda çalışırlar. Onların çox böyük bir hissəsi digər sahələrdə çalışırlar. Belə olan tərzdə Azərbaycanda fəaliyyət göstərən, 120 milyona yaxın fondu olan 10 minə yaxın kitabxanada çalışan 30 min nəfərdən çox kitabxana işçisinin cəmi 10 % -ə qədəri yüksək ixtisaslı mütəxəssislərdir. Təxminən 27 min nəfərin peşəkar ixtisas təhsili yoxdur[1].

Yeri gəlmişkən qeyd etməliyik ki, mütəxəssislərin yerləşdirilməsində çox ciddi uyğunsuzluq vardır. Belə bir xoşagəlməz vəziyyətin mövcudluğuna baxmayaraq, Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsinin məzunları təyinatla işə göndərilmir. Çünki kitabxanaları olan nazirlik və baş idarələr, respublika əhəmiyyətli iri kitabxanalar gənc kadrlar üçün heç bir sifariş vermirlər. Üstəlik son illərdə respublika və regional seminar-müşavirələr və digər tədbirlər də keçirilmir, metodik məktublar, rəhbər sənədlər yerlərə demək olar ki, göndərilmir. Kitabxana işçilərinin bir-biri ilə əlaqələri olduqca zəifdir. Belə bir vəziyyətdə metodik işin əhəmiyyəti indiki şəraitdə xeyli artmışdır.

Xüsusilə Azərbaycanda yeni kitabxana-informasiya texnologiyalarının tətbiqinə ciddi ehtiyac olduğu bir şəraitdə metodik təminat işinə daha çox ehtiyac vardır. Bu günkü metodik təminat, əlbəttə, əvvəlki illərin «metodik rəhbərlik» işindən ciddi şəkildə fərqlənməli, demokratik, heç bir inzibati-amirlik, məcburiyyət olmadan, yeni, yaradıcı və təşəbbüskarlığı özündə birləşdirən metodik təminat olmalıdır. Bu gün kitabxana işinin metodik təminat sistemi yenidən qurulmalıdır ki, kitabxana işçilərinin yaradıcı təşəbbüs-

---

[1] *Statistik məlumatlar müəllif tərəfindən müxtəlif mənbələrdən toplanılmışdır.*

karlığı, peşəkar ustalığı artsın, onların fəaliyyətində daim mütərəqqi metod və üsullara geniş yer verilsin.

Kitabxanaların metodik təminatı müasir tələblər baxımından bir sıra başlıca cəhətləri özündə birləşdirməli, müəyyən funksiyaları və prinsipləri yerinə yetirməlidir.

Kitabxanaların metodik təminat fəaliyyəti vahid prinsip əsasında həyata keçirilən işin məzmunu, xarakteri və istiqamətindən asılıdır. Metodik təminat fəaliyyəti bir sıra prinsipləri özündə birləşdirir.

Başlıca prinsiplərdən biri elmilik prinsipi olmalıdır. Bu, ondan ibarətdir ki, bütün metodik təminat işi, metodik işləmələr və digər istiqamətlər kitabxana nəzəriyyəsinin yeni nailiyyətlərini özündə əks etdirməli, elmi əsaslara söykənməli, eksperimentlər əsasında yoxlanmalıdır. Daha dəqiq desək, elmi-tədqiqat mərkəzlərinin kitabxana işinin təkmilləşdirilməsi probleminə həsr olunmuş elmi-tədqiqatlarına əsaslanmalıdır. Qəbul olunmuş hər bir metodik qərar elmi metodik əsaslandırma olmadan, real kitabxana təcrübəsindən qəbul edilə bilməz.

Elmilik prinsipi imkan verir ki, metodik mərkəzlər kitabxanaların fəaliyyətini yaxşılaşdırmaq məqsədilə elmi işlərini kitabxana təcrübəsinə tətbiq etsin, bütövlükdə kitabxanaların fəaliyyətini yaxşılaşdırsın.

Fəallıq (aktivlik) prinsipi onunla izah olunur ki, metodik mərkəzlər kitabxanaların passiv sorğuları ilə kifayətlənməməli, özlərinin metodiki işləmələri, yerlərə gedişləri ilə elmi tədqiqat işlərinin, kitabxanaların qabaqcıl təcrübəsinin nəticələrini özündə əks etdirən fəal və ardıcıl iş aparmalıdırlar. Metodik işin əsas məqsədini həyata keçirən metodistlər təcrübədə yeni mütərəqqi iş formaları və metodları tətbiq etməyə ciddi cəhd göstərməlidirlər. Xüsusilə bütün kitabxanalar üçün metodik əlaqələndirmə mərkəzi olan M.F.Axundov adına Respublika Dövlət Kitabxanası (Milli Kitabxana) metodik mərkəz kimi bu işin əlaqələndirilməsi sahəsində gərgin iş aparmalıdır. Əlbəttə, dünya təcrübəsi ciddi nəzərə alınmaqla, xüsusilə dünya təcrübəsində həyata keçirilən yeni kitabxana texnologiyalarının tətbiqi ilə əlaqədar metodik işləmələr aparılmalıdır. Bu sahədə nəzərə çarpan geriliyi aradan qaldırmaq üçün yeni texnologiyalara həsr olunmuş metodik iş geniş, əhatəli, həm də çox fəal həyata keçirilməlidir.



Metodik işin həyata keçirilməsində əsas cəhət bu fəaliyyətin məcburi yox, sözün əsl mənasında tövsiyə xarakterli olmasıdır. Bu prinsip onunla izah olunur ki, göstərilən fəaliyyət məsləhət, münasibət bildirmə formasında verilməli və kitabxana işçiləri ondan könüllü olaraq öz işlərinə uyğun seçim tətbiq etməlidirlər. Metodik fəaliyyət, əlbəttə, ayrı-ayrı müəssisələrin işində fərqli yanaşma prinsipinə uyğun aparılmalıdır. Ona görə də bütün metodik mərkəzlər kitabxanaların tipindən və növündən asılı olaraq onlara fərqli yanaşmalıdırlar.

Əsas prinsiplərdən biri kitabxanalarla bilavasitə əlaqəli işləmək prinsipidir. Bu prinsip ondan ibarətdir ki, bütün kitabxanaların işi nəzərdən keçirilməli, öyrənilməli və onlara köməklik göstərilməlidir.

Əlbəttə, əsas prinsiplərdən biri bütün bu işlərin operativ həyata keçirilməsindən ibarət olmalıdır.

Metodik tətminat işi sistemli və planlı şəkildə həyata keçirilməli, bütün kitabxana şəbəkələrini və sistemlərini əhatə etməli, təşkilati cəhətdən güclü, elmi tədqiqat xarakterli olmalı, ən başlıcası operativ həyata keçirilməlidir.

***Исмаилов Х.***

***Методическое обеспечение библиотечной деятельности***

*Резюме*

В статье рассматриваются важность и значение методического обеспечения библиотечной деятельности в Азербайджане. Первостепенное значение придается методической работе ЦБС – важного звена библиотечного обеспечения в нашей республике. Подчеркивается, что качество методического обеспечения в первую очередь зависит от наличия высококвалифицированных библиотечных кадров, от организации методического обеспечения на основе общепринятых принципов и методов. Наряду с этим, утверждается необходимость усовершенствования методического обеспечения библиотечной деятельности с учетом современных реалий.

**Zöhrab BAXŞƏLİYEV**
*Tarix elmləri namizədi, dosent,*

**Aynurə SULTANOVA**
*BDU-nun Kitabxanaçılıq- informasiya fakültəsinin məzunu*

# AZƏRBAYCAN PARLAMENT KİTABXANASI: YARANMA TARİXİ VƏ MÜASİR VƏZİYYƏTİ

XX əsrin sonuncu onilliyi Azərbaycan xalqının ictimai- siyasi həyatında dönüş ili olmuşdur. Belə ki, 1991-ci ilin 18 oktyabr günü Azərbaycan milli tarixinin dönüş nöqtəsi olub, xalqımızın yenidən öz dövlətinə, öz taleyinə, öz ölkəsinə sahib çıxdığı gündür. Buna görə də həmin gün ən yeni tariximizə qızıl səhifələrlə yazılmış gün kimi daxil olmuşdur.

Dünyanın siyasi-ictimai mənzərəsində baş verən dəyişikliklər, eləcə də xalqımızın istiqlal duyğularının boğulması üzərində qurulmuş SSRİ adlı nəhəng imperiyanın dayaqlarının sarsılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə özünün milli müstəqillik duyğularından, milli istiqlal məfkurəsindən doğan müstəqil dövlət yaratmışdır.

Məlum olduğu kimi, hələ XX əsrin əvvəllərində Azərbaycanda bir oyanış, müstəqil, əsarətdən birdəfəlik qurtulmaq meyli baş qaldırmışdı.

1918-ci il may ayının 25-də gürcü fraksiyası Zaqafqaziya seyminin tərkibindən çıxmaq haqqında bəyanat verdi. Azərbaycan fraksiyasının rəhbəri F.Xoyski də müvafiq addım atmaq əzmində olduğunu bildirdi. Həmin il mayın 27-də Azərbaycan Milli Şurasının yarandığı elan edildi. Mayın 28-də isə Milli Şuranın ilk iclası keçirildi. 26 nəfər Milli Şura üzvünün iştirak etdiyi iclasda Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul olundu.

1918-ci il noyabr ayının 19-da Milli Şura xüsusi qanun qəbul edərək 120 nəfərdən ibarət Azərbaycan Parlamentini formalaşdırmağı qərara aldı. Parlamentin ilk iclası həmin il dekabr ayının 7-də keçirildi. Buna görə də 7 dekabr Azərbaycan parlamentarizmi tarixinin başlanğıcı, ölkənin həyatında müstəqilliyin, siyasi plüralizmin və demokratiyanın mühüm dönüş mərhələsi sayılmalıdır.



Qanunvericilik sahəsində parlamentin göstərdiyi fəaliyyət çərçivəsində Azərbaycanın dövlət rəmzlərinin, respublikanın himninin və bayrağının təsdiq edilməsi, Azərbaycan türkcəsinin dövlət dili elan olunması, dövlət gerbinin hazırlanması üçün müsabiqə elan olunması da təqdirəlayiq hadisələrdəndir.

Azərbaycanın 1920-ci il aprel ayının 28-də bolşevik Rusiyası tərəfindən işğal olunması, xalqımızın sosial, iqtisadi və mənəvi həyatında uğursuz hadisələrin başlanğıcına səbəb oldu. «Sovet hakimiyyəti» adlanan 1920-1991-ci illərdə Azərbaycanın varlığı, o cümlədən respublikamızın qanunvericilik fəaliyyəti demək olar ki, «yox» dərəcəsində idi.

Lakin Azərbaycan 1991-ci il oktyabr ayının 18-də ikinci dəfə müstəqillik əldə etdi.

1991-ci il oktyabrın 18-də ölkə parlamentində qəbul olunmuş «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktında deyilir: Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərini və əməllərinin varisliyinə əsaslanaraq və «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsini rəhbər tutaraq bu konstitusiya aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun əsaslarını təsis edir.

Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev «Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti»ndə XX əsr Azərbaycan dövlətçiliyi tarixini dörd əsas dövrə bölmüşdür.

Dördüncü dövr SSRİ-nin süqutu ərəfəsində 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə başlamışdır və bu gün də uğurla davam etməkdədir.

Bir sıra siyasətçilər Azərbaycan Respublikasının ikinci dəfə öz müstəqilliyini bərpa etdiyi 1991-ci ildən sonrakı dövrü iki mərhələyə ayırırlar. Birinci mərhələyə 1991-ci il oktyabr ayının 18-dən

1993-cü ilin iyun ayının 15-nə qədərki dövr, ikinci mərhələ isə bugünə qədərki dövr.

Birinci mərhələdə 50 nəfər deputatdan ibarət Milli Şura yaradıldı. Sonra onun adı dəyişilərək Milli Məçlis adlandırıldı.

Dövlət müstəqilliyi dövründə Azərbaycan Parlamentinin keçdiyi yola nəzər saldıqda 1995-ci ildə Azərbaycanın yeni konstitusiyasının qəbulunu və demokratik əsaslarla seçilmiş ilk Parlamentinin həm birinci çağırışdakı, həm də indiki mərhələdəki fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycan Respublikasının Milli Məclisi onun qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gələrək konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərini həyata keçirməkdədir.

Müstəqil Azərbaycan Respublikasının dövlət hüquq təsisatlarının və yerli özünüidarə sisteminin formalaşması üçün Azərbaycan parlamenti cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə edən 1400-dən artıq qanun və normativ sənəd qəbul etmişdir.

Parlamentimizin fəaliyyətinin mühüm bir hissəsinin də nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. Bu sırada Avropa Şurasının Parlament Assambleyası, NATO-nun Parlament Assambleyası, Avropa Parlamenti, Parlamentlərarası İttifaq, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament məclisi, ATƏT-in, MDB-nin, İslam Konfransı Təşkilatının Parlament Məclisləri ilə səmərəli əməkdaşlıq edir.

Azərbaycan parlamentinin belə geniş spektrli fəaliyyət dairəsi şübhəsiz ki, onun dünya ölkələrinin, xüsusilə demokratik Avropa ölkələrinin, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin qanunvericilik təcrübəsini, sənədlərini və ədəbiyyatı öyrənməyi zəruri edir. Məlumdur ki, Sovet hakimiyyəti illərində mövcud olan parlament (Azərbaycan Respublikası Ali Soveti) formal olaraq mərkəzdə qəbul olunmuş qərar və göstərişləri özlərinin ildə bir-iki dəfə çağırılmış sessiyalarında təsdiq edirdilər. Bu zaman onlara dünya ölkələrinin qanunvericilik təcrübəsi və ədəbiyyatını öyrənmək lazım olmurdu.

Lakin müstəqil ölkənin müstəqil qanunlar işləyib, qəbul edən Milli Məclisi şübhəsiz ki, dünya ölkələrinin təcrübəsini dərindən öyrənməklə dünyanın demokratik standartlarına cavab verə bilən qanunlar və normativ aktlar qəbul edə bilər. Ona görə də Azərbaycan Respublikasının Milli Məclisində dünya ölkələri ilə hüquqi ədəbiyyatla və sənədlərlə mübadiləyə ildən-ilə tələbat zərurətə çevrilmişdir.



Məhz belə bir təbii zərurətin nəticəsidir ki, Milli Məclisin üzvü, millət vəkili Xeyrulla Əliyev 1993-cü ildə qanunvericilik təşəbbüsü göstərərək Parlament Kitabxanasının yaradılması təklifini irəli sürmüşdür.

Məlumdur ki, Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsində deylir ki, «Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır».

Hər bir vətəndaşın informasiya almaq hüququ ölkənin konstitusiyasında təsbit olunmuşdur. Milli Məclisin üzvləri də öz hüquqlarını bilərək M. F. Axundov adına Azərbaycan Respublikası Dövlət Kitabxanasının bazasında Parlament Kitabxanasını yaratmaq istəyirdilər. Lakin M. F. Axundov adına Dövlət Kitabxanasının bazasında parlament kitabxanasının yaradılması haqlı olaraq respublikanın bir sıra alim-mütxəssisləri tərəfindən narazılıqla qarşılanmışdır.

Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının dosenti Z. Baxşəliyev ilk olaraq belə bir fikrin səhv olduğunu qeyd etmişdir.

Az sonra mətbuatda qanunvericilik təşəbbüsü qaydasında «Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında» Azərbaycan Respublikasının qanun layihəsi dərc olunmuşdur. Layihə ilə birlikdə mətbuatda millət vəkili X. Əliyevin redaksiyaya məktubu da dərc olunmuşdur və yenə də orada M. F. Axundov adına Respublika Dövlət Kitabxanasına Milli Kitabxana statusu verməklə ona parlament kitabxanası funksiyası verilməsi israr edilirdi.

"Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında" qanun layihəsini də Milli Məclisin üzvü X. Əliyev hazırlamışdır.

Qanunvericilik təşəbbüsü qaydasında hazırlanmış V fəsil 15 maddədən ibarət olan «Azərbaycan Parlament Kitabxanasının yaradılması haqqında» qanun layihəsində «Ümumi müddəalar», «Parlament Kitabxanasının hüquq və vəzifələri», «Parlament Kitabxanasına rəhbərlik», «Parlament kitabxanası haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət» və s. məsələlərin həlli öz əksini tapmışdır.

Bu qanun layihəsi ilə yaxından tanış olan kitabxana ictimaiyyətinin nümayəndələri, mütəxəssislər, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent X.İsmayılov və həmin fakültənin dekan muavini, dosent Z.Baxşəliyev bu qanun layihəsində bəzi məqamlara, xüsusilə dövlət kitabxanasının parla-

ment kitabxanası kimi adlandırılmasına etiraz etməklə bütövlükdə qanunvericilik təşəbbüsünü müsbət qiymətləndirmişlər.

Mütəxəssislərin fikrincə, M.F.Axundov adına Dövlət Kitabxanasını parlament kitabxanası adlandırmaq olmaz. Çünki «Parlament Kitabxanası» ideyası irəli sürüləndə məhdud bir dairənin mənafeyi nəzərdə tutulur.

«Azərbaycan Respublikası Parlament Kitabxanası haqqında» qanun layihəsinə Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, Azərbaycan Respublikasının əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri, professor A.Xələfov və həmin kafedranın dosenti R.Kazımov da öz münasibətlərini bildirmiş, layihədə istər kitabxanaşünaslıq nəzəriyyəsi və metodikası, istərsə də müasir kitabxanaçılıq təcrübəsi baxımından bir sıra nöqsanlara yol verildiyini də qeyd etmişlər.

Milli Məclisin təhsil, elm, din və mədəniyyət məsələləri üzrə daimi komissiyasının 1994-cü il mayın 3-də keçirdiyi növbəti iclası «Azərbaycan Respublikası Parlament Kitabxanası haqqında» qanun layihəsinin müzakirəsinə həsr olunmuşdur.

Müzakirədə iştirak edən kitabxanaşünas alim A.Xələfov qanun layihəsinə münasibətini bildirərək qeyd etmişdir ki, müasir tipli fundamental kitabxananın-parlament kitabxanasının yaradılması müstəqil Azərbaycan Respublikasının mədəni, sosial, iqtisadi tərəqqisində mühüm əhəmiyyət kəsb edəcəkdir.

İclasda «Azərbaycan Respublikası Parlament Kitabxanası haqqında» qanun layihəsi bir sıra irad və təkliflər nəzərə alınmaqla ümumən bəyənilmiş və Milli Məclisin müzakirəsinə verilmişdir.

Milli Məclisin 1995-ci il 12 may tarixli 1034 saylı qərarına əsasən «Azərbaycan Respublikası Parlament Kitabxanasının yaradılması haqqında» qanun rəsmi şəkildə Ali Sovetin o vaxtkı sədri tərəfindən təsdiq olunmuşdur.

«Azərbaycan Respublikası Parlament Kitabxanasının yaradılması» haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı:

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası parlamentinin xalq deputatlarının fəaliyyətinin səmərəli təşkili, zəruri ədəbiyyatın, normativ sənədlərin komplektləşdirilməsi və onların biblioqrafiyasının tərtibi, parlmentin audio, video arxivinin yaradılması, deputat sorğuları ilə bağlı operativ informasiya materiallarının sistemləşdirilməsi, xarici dövlətlərin parlament kitabxanaları ilə əməkdaşlığın yaradılması və



genişləndirilməsi məsələlərinin həyati vacibliyini nəzərə alaraq qərara alır:

1. Azərbaycan Respublikasının Parlament Kitabxanası yaradılsın.

2. Azərbaycan Respublikası Ali Sovetinin İşlər İdarəsinə tapşırılsın ki, bir ay müddətində «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikasının tələblərinə uyğun olaraq mətbu nəşrlərin mütləq (pulsuz) nüsxələrinin alınıb paylanması, Parlament Kitabxanasının yaradılmasına hazırlıq işlərinin aparılması üçün Ali Sovetin binasında münasib yer ayrılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinin təhsil, elm və mədəniyyət daimi komissiyasına və Ali Sovetin katibliyinə tapşırılsın ki, «Azərbaycan Respublikası Parlament Kitabxanası haqqında» əsasnamə hazırlayıb Azərbaycan Respublikası Milli Məclisinə təqdim etsinlər.

1995-1996-cı illərdə Azərbaycanın ictimai-siyasi həyatında hakimiyyət müstəvisində baş verən dəyişikliklərlə əlaqədar olaraq yuxarıda göstərilən qərarın müddəalarına ciddi əməl olunmamış Parlament Kitabxanası kor-koranə fəaliyyət göstərmişdir.

1996-cı ilin dekabrında Azərbaycan Milli Məclisinin spikeri parlament nümayəndələrinin və millət vəkillərinin ümumi informasiya tələbatını nəzərə alaraq Türkiyə Böyük Millət Məclisindən Azərbaycan parlament kitabxanası üçün lazımi ədəbiyyatla köməklik etməsini xahiş etmişdir.

1997-ci ilin martında Türkiyə Böyük Millət Məclisinin sədrliyi Azərbaycan Milli Məclisinin xahişini nəzərə almışdır. Həmin ilin 12 martında kitabxananın açılışını Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Qələmli etmiş və Türkiyə Böyük Millət Məclisi adından Türkiyə hüquq sisteminə aid 800 nüsxə kitab, İnternet şəbəkəsinə qoşula bilən 5 ədəd kompüter və fotosurət cihazı hədiyyə etmişdir.

Hazırda kitabxana öz işini məqsədəuyğun şəkildə davam etdirir və parlament üzvlərinin, deputatların informasiya tələbatını hərtərəfli və operativ ödəmək üçün müasir texniki vasitələrdən və avadanlıqlardan istifadə edir.

Yeni yaradılmasına baxmayaraq Parlament Kitabxanası kifayət qədər maddi-texniki bazaya malikdir və bunun əsasında kitabxana tələbatçıların istənilən informasiyaya olan tələbatını hərtərəfli və operativ ödəməklə öz vəzifəsini müvəffəqiyyətlə yerinə yetirir.

Kitabxana Azərbaycan Respublikası Milli Məclisinin 14-cü mərtəbəsində yerləşir.

Kitabxana giriş-gözləmə zalı, kitabxana direktorunun otağı, abonement, oxu zalı və arxiv otağından ibarətdir.

Giriş-gözləmə zalında iki ədəd komfort şəraitli divan dəsti mövcuddur ki, bunu da yüksək səviyyəli servis xidmətinin başlanğıcı hesab etmək olar.

Kitabxana direktorunun otağında bir ədəd kitab şkafı, iki ədəd kompüter, bir ədəd surətçıxardan cihaz, stol, stul, televizor, enerji tənzimləyici avadanlıq mövcuddur.

Abonementdə stol, stul və bir ədəd internet şəbəkəsinə qoşulmuş kompüter vardır.

Oxu zalı geniş, hündür, işıqlıdır. Burada 6 ədəd kitab steleji, divar içərisində kitab şkafı mövcuddur ki, kitabxana fondunu təşkil edən bütün növ informasiya daşıyıcıları burada toplanmışdır. Oxu zalının yuxarı hissəsində səhnə mövcuddur ki, hər hansı bir kütləvi tədbir zamanı natiqlər bu səhnədən çıxış edirlər. Oxu zalında da stol, stul (24 nəfərlik), stolüstü lampalar vardır ki, oxucular burada bütün növ informasiya daşıyıcılarından rahat və hərtərəfli istifadə edə bilərlər.

Azərbaycan Parlament Kitabxanasının fondunun formalaşması prosesi Milli Məclis fəaliyyətə başladığı ilk gündən başlanmışdır. Belə ki, kitabxananın yaradılması haqqında fikrin meydana gəldiyi vaxtdan müxtəlif informasiya daşıyıcıları toplanmağa başlanmışdır. Bu proses daim davam etməkdədir. Çünki XXI əsr informasiya əsri olduğundan cəmiyyətin müxtəlif sahələrinə dair informasiyanın sürətlə artdığı bir dövrdə informasiyanı əldə edib oxuculara təqdim etmək bütün kitabxanaların, o cümlədən Azərbaycan Parlament Kitabxanasının qarşısında duran əsas vəzifələrdən biridir.

Ayrı-ayrı vaxtlarda alimlər, mütəxəssislər institutlar Parlament Kitabxanasına kitablar və digər informasiya daşıyıcıları hədiyyə etmişlər və kitabxana özü də daim müxtəlif informasiya daşıyıcılarını almışdır.

Belə ki, 1997-ci ildə Türkiyə Böyük Millət Məclisinin kitabxanaya hədiyyə verdiyi kitablardan sonra, 1997-ci il mart ayının 26-da Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, şair Nəbi Xəzri Parlament Kitabxanasına 500-dən çox kitab, albom və qrammofon valları bağışlamışdır. Tədbirdə iştirak edən Milli Məclisin spikeri M. Ələsgərov N. Xəzriyə öz minnətdarlığını



bildirərək qeyd etmişdir ki, gələcəkdə belə hədiyyələr sayəsində kitabxana zəngin kitabxanaya çevriləcək.

Şair-publisist Rəhim Alxaslı dünyanın qədim dillərindən olan xınalıq dilində buraxılmış 20 kitabı Parlament Kitabxanasına hədiyyə etmişdir. Onların arasında N. Gəncəvinin «Hikmət çələngi», M. Füzulinin «Hər sözüm bir pəhləvandır», və «Xınalıq» kitabı da var.

Eyni zamanda kitabxana ayrı-ayrı beynəlxalq təşkilatlardan da müxtəlif kitablar almışdır. SOROS fondundan «История Европейского права», «Международная права», «Юридическое энциклопедия» və sair kitabları almışdır.

Almaniya Texniki Əməkdaşlıq Təşkilatının vəsaiti hesabına Parlament Kitabxanası bu kitabları almışdır: «Общая теория государственной правы», «Акционерное права», «Комментария к семейному кодексу» və s.

«Shewron» şirkəti kitabxanaya bu kitabları hədiyyə etmişdir: «Парламентская права», «Земелная права России», «Криминалогия» və s.

İnformasiya tələbatına uyğun olaraq kitabxana kitab mağazalarından da cəmiyyətin bütün sahələrinə, xüsusilə də hüquq və ictimai elmlərə aid kitablar alır. Misal olaraq «Terrorizm», «Şirvanşahlar dövləti», «Лась и народ», «Об основные права» və s. kitabları göstərmək olar.

Bunlarla yanaşı, Parlament Kitabxanası Azərnəşrdən həm Azərbaycan dilində, həm də rus dilində nəşr olunan bütün dövri nəşrləri alır. Kitabxana həm də digər ölkələrdən dövri nəşrlər alır. Məsələn, Rusiyadan «Аргументы и факты», «Закон», «Ведомости», «Правда» və s. Qazaxıstandan «Акбаторти», «Жарк Чы» və s. dövri nəşr nümunələrini alır.

Fondun əsas hissəsini «Qanunvericilik topluları» təşkil edir. Bu toplu Prezident Aparatı tərəfindən ayda bir dəfə nəşr olunur. Toplunun əsasını Azərbaycanda qəbul olunmuş qanunlar, fərmanlar, qanunvericilik aktları, Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar, sərəncamlar təşkil edir.

Kitabxanada eyni zamanda CD-romlardan da informasiya mənbələri kimi istifadə edilir. Burada «Юридический мир», «Электронная энциклопедия», «Müstəqil Azərbaycan» və digər disketlər oxucuların istifadəsinə verilir.

1998-ci il iyun ayının 17-də Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu kitabxanaya kitablar hədiyyə

etmişdir. Parlament Kitabxanasına hədiyyə olunan nəşrlər arasında «Azərbaycan və yeni dünya», «İnkişafın Azərbaycan yolu», «İntellektual mülkiyyət» kimi kitablar da var.

Parlament Kitabxanasının fondunun düzülüşü əlifba sırası prinsipinə əsaslanır.

Hazırda kitabxananın fondunda 2600-2700-ə yaxın ədəbiyyat vardır. Bunun da 80 %-ni hüquq, ictimai elmlərə aid ədəbiyyat təşkil edir. Qalan 20 %-ni isə kənd təsərrüfatına, iqtisadiyyata, mədəniyyətə, bədii ədəbiyyata aid kitablar təşkil edir.

Parlament Kitabxanası oxucuların informasiya tələbatını ödəmək üçün kitabxanalararası abonementdən istifadə edir. Ən çox qarşılıqlı informasiya mübadiləsi M. F Axundov adına Respublika Dövlət Kitabxanası və Respublika Elmi-Texniki Kitabxanası ilə həyata keçirir.

Parlament Kitabxanasında müxtəlif mövzularda kitab sərgiləri keçirilir. Buna misal olaraq «ADR-80», «Fətəli xan Xoyski», «Parlamentin siyasəti», «Arxiv materialları», «ADR-1918-1920», «Xocalı soyqırımı» adlı sərgiləri göstərmək olar. Kitabxana ADR-in fəaliyyətini əks etdirən fotosərgi təşkil etmişdir.

Azərbaycan Parlament Kitabxanasının dörd nəfər işçisi vardır: kitabxana direktoru və üç nəfər kitabxanaçı.

Kitabxananın direktoru Mehman Namazov Bakı Dövlət Universitetinin məzunudur.

Kitabxanaçılar P.Həsənova, S.Yusifzadə, T.Bünyatova xüsusi ixtisas təhsilinə malik olmasalar da, lazımi peşə ustalığına və mədəniyyətinə, geniş dünya görüşünə malik kadrlardır. Onlar kitabxanaya müraciət edən hər bir şəxsin informasiya tələbatını yüksək səviyyədə ödəməyə səy göstərirlər və öz işlərinin öhdəsindən ustalıqla gəlirlər.

Parlament Kitabxanası məhdud oxucu dairəsinə xidmət etdiyinə görə bu kitabxananın oxucularını xüsusi oxucu qrupuna aid etmək olar. Son məlumata görə, 2002-ci ildə kitabxana 500 nəfər oxucuya xidmət etmiş və onlara 1500 nüsxədən çox ədəbiyyat verilmişdir. Verilmiş ədəbiyyatın əsas hissəsini isə hüquq, beynəlxalq hüquq və digər qanunvericiliyə dair kitablar və sənədlər təşkil etmişdir.

Bu kitabxananın oxucuları arasında Azərbaycan Respublikası Milli Məclisinin spikeri M.Ələsgərovu, spikerin müavinləri Z.Əsgərovu və A.Rəhimzadəni, Prezident Aparatının xarici əlaqələr şöbəsinin müdiri N.Məmmədovu, millət vəkilləri S.Rüstəmxanlını,



S.Səfərovu, Z.Yaqubovu, C.Əliyevi, S.Mirzəyevi və digərlərini görmək olar. Kitabxana xidmətindən istifadə edən oxucuların çoxu Milli Məclis aparatının və digər yardımçı şöbələrin əməkdaşlarıdır.

Milli Məclis kitabxanasının müasir durumu, onun malik olduğu sənəd informasiya ehtiyatları ölkə parlament üzvlərinin və qanunvericilik işində iştirak edən idarə və şöbələrin informasiya tələbatını ödəmək qabiliyyətinə malikdir.

Kitabxana yaradılmasından keçən 7-8 ildə xeyli işlər görsə də, görüləsi işlər də çoxdur. Bunlardan kitabxana-informasiya xidməti sisteminin daha da təkmilləşdirilməsini, oxu zalında kompüterlərin sayının artırılmasını, kitabxananın geniş oxucu qruplarının üzünə açıq olmasını təmin etmək və s. qarşıda duran əsas məsələlərdəndir.

***Бахшалиев З.***

***Султанова А.***

**Парламентская библиотека Азербайджана: история создании и современное состояние**

*Резюме*

В статье рассматриваются предпосылки создания, современное состояние и перспективы развития парламентской библиотеки Азербайджана. Как известно, парламент Азербайджана был создан и проявлял свою деятельность в 1918-20 годах, но далее в результате вмешательства советских большевиков его деятельность была приостановлена вплоть до конца 20 века, когда Азербайджана вновь приобрел независимость.

В последние 10 лет свой деятельности азербайджанский парламент принил до 1400 законов, нормативных актов документов. Безусловно, принейшим такого количества юридических документов депутаты и работники парламентского аппарата нуждались в богатых источниках информации. Поэтому в 1995 году парламент принел решение о создании библиотеки и по определенным причиной с некоторым опозданием в 1997 году с поддержки руководства парламента Турции библиотека была создана. В настоящей время в библиотеки парламента действует система обслуживания, отвечающая информационному спросу членов парламента и других читателей.

Əli RÜSTƏMOV
*Pedaqoji elmlər namizədi, dosent*

# «İNFORMATİKA»NIN SAHƏVİ STRUKTURU VƏ KİTABXANAŞÜNASLIQ ELMLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİ

*(4-cü məqalə)*

İndi əvvəlki məqalədə deyilən üçüncü metodun tətbiqindən alınan nəticələri qısaca təhlil edək.

Hər şeydən əvvəl qeyd edək ki, biblioqrafik isnad metodunun tətbiqi əsasında dünyada ilk məntiqi biblioqrafik axtarış sistemi olan və hazırda elektron formada dünyanın 97 ölkəsinə müntəzəm olaraq satılan məşhur «Elmi isnad göstəricisi» / "Science Citation Index" (SCA)" yaradılmışdır. Bu sistemin sovet variantı ilk dəfə Azərbaycan informatikləri tərəfindən hələ 70-ci illərdə işlənib hazırlanmış və sonralar inteqral avtomatlaşdırılmış kitabxana-informasiya sisteminin bir funksional altsistemb kimi formalaşmışdır (1). 60-cı illərdən hazırkı dövrə qədər biblioqrafik isnad metodunun müxtəlif elm və texnika sahələrində informasiya təhlili və axtarışında tətbiqinə dair onlarca namizədlik və doktorluq dissertasiyaları (2), yüzlərlə adda məqalə və kitab yazılmışdır. Məqalə və əsərlərdə biblioqrafik isnad metodu əsasında aşağıdakı istiqamətlərdə qlobal tədqiqat işləri və texnoloji işləmələr aparılmışdır:

-elmin və texnikanın tarixi inkişafının araşdırılması (3);

-elmin və texnikanın inteqrasiya proseslərinin məzmun və istiqamətlərinin aşkarlanması və yeni elm sahələrinin formalaşmasının əvvəlcədən (təşkilati forma almamışdan xeyli qabaq) müəyyənləşdirilməsi (4);

-informasiyanın köhnəlməsi, «görünməz elmi məktəblərin» formalaşması, elmə real töhaənin müəyyən edilməsi, kitabxana fondlarının müəyyən sahələr üzrə özəyinin təyini və s.



-sahəvi, dar sahəvi və onlarla məzmun və funksional cəhətdən bağlı olan sahələrarası informasiya axtarışına imkan verən məntiqi (zəncirvari) biblioqrafik aparatın yaradılması (5).

Deyilənlərdən başqa, biblioqrafik isnad metodu tədqiqatçılıq etikasının, psixologiyasının öyrənilməsində, ayrı-ayrı ölkələrin informasiya potensialının qiymətləndirilməsində və onlarca digər istiqamətlərdə istifadə olunur.

Hələ 80-ci illərin əvvəllərində (1983) «informatika» sahəsində dünyada məşhur mütəxəssis F.Maxlup özünün fundamental tədqiqat əsərində (İnformatika: elmlərarası əlaqələr. – Nyu York, 1983. – 263 s. – ingilis dilində) «informatika»nın tədqiqat predmeti olan «informasiya» anlayışını ideal (mənəvi) və materiya (maddi) adlı ikili təbiətə malik olan kateqoriya hesab etmişdir. O, informasiyanı öyrənən 40 elm müəyyənləşdirmiş, o cümlədən «kitabxanaşünaslıq» və «biblioqrafiyaşünaslığ»ı da buraya daxil etmiş, «informatika»nın 85 elm və texnika sahəsi ilə qarşılıqlı əlaqəsini? xüsusilə riyazi və təbiət elmləri ilə inteqrasiyasının daha güclü olduğunu göstərmişdir. Görünür, bu fikrə əsaslanaraq o dövrdə akademik A.P.Yerşov (6) və akademik V.M.Qluşkov (7) «informatika»nı həm də təbiətşünaslıq elmləri sisteminə aid etmişlər. 90-cı illərdə «informatika»nın elmlər sistemində tutduğu yeri və onun predmeti haqqında fikirlər daha da genişləndirilmişdir ki, bu barədə qismən yuxarıda danışıldı. Lakin bu problem hələlik qəti həll edilməmişdir. Belə ki, yuxarıda verilmiş əlaqədar dərsliklərə və tarixən aparılmış elmi tədqiqatlara əsaslanaraq «informatika»nın sahəvi quruluşu, predmet və metodları izah edilirdi. 80-ci illərdə bu istiqamətdə əks fikirlər də olmuşdur. Məsələn, Amerika informatiki H.Smol (8) və rus alimi İ.V.Marşakova (9) isnad metodunun tətbiqi əsasında müəyyən etmişlər ki, «informatika» (informasiya elmi) sosiologiya elmi ilə yaradıcılıq fəaliyyətinin psixologiyası arasında yerləşən elmdir.

İsnad metodunun tətbiqi nəticəsində 80-90-cı illərin tədqiqatçıları belə bir qəti nəticəyə gəlirlər ki, «informatika» müstəqil elmdir, təbiətşünaslıq, texnika, ictimai və humanitar elmlərin əlaqədar elmi arsenalının onun əsas obyektinə (informasiya) tətbiqinin sintezindən yaranmışdır, daxili sahəvi (differensiasiya) strkutura malikdir: tarixən o, kitabxana işinin, bir qədər sonra kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın elmi və təcrübi arsenalından yaranmışdır.

Lakin isnad metodunun əsas potensial imkanları «informatika»nın digər elmlərlə, xüsusilə «kitabxanaşünaslıq» və «biblioqrafi-

yaşünaslıq»la qarşılıqlı əlaqəsinin (inteqrasiyası) araşdırılması baxımından az istifadə edilmişdir. Əlbəttə, bu baxımdan problem şaxəlidir, mürəkkəbdir və dinamik xüsusiyyətə malikdir. Belə ki, düz və əks, bilavasitə və dolayı inteqrativ informasiya proseslərini, onların intensivliyini, məzmununu və digər xarakteristikasını açmaq, istiqamətlərini müəyyənləşdirmək, hadisələri proqnozlaşdırmaq və s. tələb olunur. Bir məqalə çərçivəsində bütün bunları açmaq çətindir. Burada isnad metodunun tətbiqi yuxarıda deyilən digər iki metodun tətbiq məqsədilə eynidir. Lakin həmin iki metodla «informatika»nın «kitabxanaşünaslıq» və «biblioqrafiyaşünaslıq»la əlaqəsini ümumi halda aşkarlamaq mümkündür. Biblioqrafik isnad metodu isə inteqrasiya proseslərinin daha dəqiq, konkret sahələr baxımından aşkarlanmasına imkan verir. Əlbəttə, bu məqsədlə təhlilə daha çox informasiya kütləsi daxil etmək və ya tarixən və hazırda dünyada ən güclü tədqiqat vasitəsi olan məşhur «Science Citation Index» göstəricisindən istifadə etmək olardı. Lakin məlum səbəblərə görə bunları etmək mümkün deyil. Buna görə də iki adda sırf ixtisas jurnalında verilən məqalələr və onların biblioqrafik isnadlarının sahəvi bölgüsü statistik təhlil üçün əsas götürülmüşdür*:

1. Советское библиотековедение. - 1980. - № 1-6 /illik komplekt/ Бибилиотековедение. – 1993. - № 1-6.

2. Научно-техническая информация. – 1981 – ser. I. № 1-6; 1993. № 1-6**.

Jurnalların həmin nəşr illərinin eksperimental təhlil üçün götürülməsi onunla bağlıdır ki, inteqrasiya prosesinin intensivliyi baxımından 80-ci illərə qədərki dövr informatikanın kitabxanaşünaslıqla qarşılıqlı əlaqəsinin ilkin formalaşması mərhələsi (inqubasiya)

---

* *Təhlil üçün «Nauçnıe i mexniçeskie bibliomeki», «American Documentation» (ABŞ) jurnallarını da götürmək mümkün idi. Lakin bu jurnallara baxan hər bir mütəxəssis görə bilər ki, onlarda əsasən riyazi, texniki və iqtisadi informatikaya, qismən «kitabxanaçılıq informatikası»nın sırf texnoloji istiqamətlərinə dair məsələlər dərc edilir. Buna görə də «informatika» ilə kitabxanaşünaslığın bir elm kimi qarşılıqlı əlaqələrinin nisbətən dəqiq mənzərəsini almaq üçün yuxarıda deyilən sırf ixtisas jurnalları götürülmüşdür.*

** *Bu jurnalın ikinci seriyası da əsasən riyazi və texniki informatika məsələlərinə və qismən bioinformatikaya və geoinformatikaya dair məqalələri dərc edir. «Kitabxanaçılıq» və digər sosial «informatika» sahələrinə dair məqalələr əsasən jurnalın birinci seriyasında verilir.*



adlanır (10). 90-cı illər isə deyilən elmlərin inteqrativ elementlərinin daha da genişlənməsi, çoxalması, açıq və sabit xarakter alması və «informatika» nın differensiasiyası dövrü hesab edilir (11).

«Библиотековедение» jurnalında 1981-ci ildə dərc edilən məqalələrin sahəvi bölgüsü və onlarda verilən biblioqrafik isnadların informatika və digər elm sahələri üzrə paylanması 5-ci cədvəldə verilmişdir. Buradan görünür ki, «Бибилиотековедение» jurnalında 1981-ci ilə nisbətən 1991-ci ildə daha çox məqalə (74 adda) dərc edilmişdir. Dərc edilən məqalələrin miqdarına görə birinci yeri kitabxanaşünaslıq nəzəriyyəsi tutur. Bu fakt ehtimal ki, «Библиотековедение» jurnalının əsas profili, bəlkə də son illərdə kitabxanaşünaslığın nəzəri məsələlərinə diqqətin daha da artmasını göstərir. Sonuncu deyilən ehtimal 5-ci cədvəlin əlaqədar məlumatları ilə əsaslandırıla bilər. Buradan görünür ki, 1981-ci ildə bu sahədə 13 adda məqalə dərc edilməsinə baxmayaraq 172 isnad vardır. Onların xeyli hissəsi kitabxanaşünaslığın digər sahələrindən kitabxanaşünaslıq nəzəriyyəsinə dair isnad sisteminə cəlb olunmuşdur. Sahədaxili (kitabxanaşünaslıq fənləri) inteqrasiyada kitabxanaşünaslıq nəzəriyyəsinin aparıcı yer tutması ehtimal ki, nəzəri problemlərin tədqiqinin 80-ci illərdə və bəlkə də ondan əvvəlki illərdə daha da intensivliyini göstərir. 90-cı illərin başlanğıcında bir qədər əks proses müşahidə olunur. Belə ki, kitabxanaşünaslıq nəzəriyyəsinə dair məqalələrdə sahədaxili isnadların miqdarı iki dəfədən çox azdır (75), baxmayaraq ki, jurnalda bu sahədə dərc edilən məqalələrin miqdarı 1981-ci ilə nisbətən təqribən üç dəfəyə qədər artır. Bunun əksinə olaraq informatika sahələri, xüsusilə riyazi və kitabxanaçılıq informatikası ilə əlaqədar güclənir. Biblioqrafik isnadların təhlili göstərir ki, kitabxanaşünaslıq nəzəriyyəsinə dair məqalələrdə ictimai və humanitar elmlərdən fəlsəfə və sosial psixologiyaya daha artıq maraq müşahidə edilir.

Sahədaxili informasiya əlaqələri baxımından oxucularla iş, kitabxana tarixi və kitabxana fondları fənləri daha müsbət informasiya balansına malikdir, yəni digər kitabxanaşünaslıq sahələrindən daha çox informasiyalar özünə cəlb edir. Kitabxana təsnifatı və kitabxana kataloqları fənni isə informatika sahələri, xüsusilə kitabxanaçılıq informatikası ilə daha sıx və fəal inteqrasiya olunur. İsnad edilən əsərlərin məzmun təhlili göstərir ki, hər iki deyilən sahənin qarşılıqlı informasiya əlaqələri axtarış dillərinin, axtarış

## Библиотековедение /1981, № 1-6; 1991, № 1-6/

Cədvəl 5.

| Kitabxanaşün. və biblioqr. sahələri 1981/1991 | İsnad edən məqalənin ümumı miqdarı | Bibilioqr isnadların ümumi miqdarı | Öz sah.və kitabx.şün digər sahə-dən olan əsər. | Biblioqr.ş ün. olan əsərlər (isnadlar) | Nəzəri informatikaya aid əsərlər | Riyazi informatikaya aid əsərlər | Texniki informatikaya aid əsərlər | Kitabxan açıhq informatikasına aid əsərlər |
|---|---|---|---|---|---|---|---|---|
| Kitabxanaşünaslıq nəzəriyyəsi | 13/31 | 235/155 | 172/75 | 3/4 | 0/3 | 2/12 | 0/3 | 10/11 |
| Kitabxana fondları | 6/7 | 68/64 | 60/37 | 1/1 | 0/3 | 0/5 | 0/2 | 3/14 |
| Təsnifat və kitabana kataloqları | 5/5 | 37/77 | 16/20 | 0/2 | 0/1 | 1/3 | 1/4 | 13/36 |
| Kitabxana işinin təşk. və id.ed-si | 8/4 | 78/63 | 54/20 | - | 1/7 | 0/1 | 2/3 | 4/8 |
| Oxucularla iş | 15/15 | 207/77 | 161/55 | 5/1 | 0/4 | 0/1 | 0/3 | 2/9 |
| Kitabxana tarixi | 4/3 | 73/103 | 58/70 | - | 0/5 | 0/1 | - | 1/6 |
| Kitabxana iqtisadiyyatı | 0/6 | 11/52 | 11/26 | 0/1 | 0/4 | 0/1 | 0/1 | 0/6 |



| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Kitabxana işinin texniki vasitələri | 1/2 | 10/22 | 2/4 | - | - | - | 5/8 | 3/6 |
| Biblioqrafiyaşünaslıq elmləri | 4/4 | 45/70 | 11/kit./ / 16/kit./ | 18/10 | 1/3 | - | - | 8/20 |
| Kitabxanaşünaslıq elmləri | 0/1 | 20/16 | 1/k.x.s./ / 4/k.x./ | 3/6 | - | - | - | 1/2 |
| ***Cəmi:*** | 56/74 | 782/712 | 546/327 | 30/35 | 2/30 | 3/24 | 8/24 | 45/124 |

*Cədvəl 5 (davamı)*

| İqtisadi informatikaya aid əsərlər | Geoinformatikaya aid əsərlər | Bioinformatikaya aid əsərlər | hüquq informatikasına aid əsərlər | Dilçiliyin informatika məsələləri | Riyaziyyat və təbiət elmləri | İctimai və humanitar elmlər | Texniki elmlər |
|---|---|---|---|---|---|---|---|
| 0/3 | - | - | 0/2 | - | 3/2 | 40/36 | - |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| - | - | - | - | - | - | 4/2 | |
| - | - | - | - | 1/3 | 0/2 | 5/6 | - |
| 0/3 | - | - | 0/1 | - | - | 17/21 | - |
| - | - | - | - | 0/1 | - | 39/9 | - |
| - | - | - | - | - | - | 13/21 | - |
| 0/4 | - | - | - | - | - | 0/9 | - |
| - | - | - | - | - | - | 0/4 | - |
| 0/1 | - | - | - | 1/3 | - | 6/7 | - |
| - | - | - | - | - | - | 5/4 | - |
| 0/11 | - | - | 0/3 | 2/7 | 3/4 | 129/119 | - |



sistemlərinin, xüsusilə elektron kataloqların işlənməsinin nəzəri və təcrübi problemləri istiqamətində daha intensiv xarakter daşıyır.

«Kitabxana tarixi» fənninin sahədaxili informasiya əlaqələrinin daha fəal olduğu, ictimai və humanitar elmlərlə daha üstün inteqrasiyasını və informatika sahələri ilə zəif informasiya əlaqələrinin olması 5-ci cədvəldən aydın görünür. «Kitabxana işinin təşkili və idarə edilməsi» fənni də bu baxımdan demək olar ki, eyni xarakterik xüsusiyyətə malikdir.

Beləliklə, «informatika» elmləri ilə informasiya əlaqələrinin statistik həddinə görə «kitabxanaşünaslıq» fənləri aşağıdakı dərəcələrə malikdir (cədvəl 6).

*Cədvəl 6.*

| Fənnin adı | İnformatikaya dair isnadların miqdarı | |
|---|---|---|
| | 1981 | 1991 |
| Kitabxanaşünaslıq nəzəriyyəsi | 17 | 38 |
| Kitabxana təsnifatları və kataloqları | 16 | 47 |
| Kitabxana fondları | 3 | 24 |
| Kitabxana işinin təşkili və idarə edilməsi | 3 | 22 |
| Oxucularla iş | 2 | 18 |
| Kitabxana işinin texniki vasitələri | 8 | 14 |
| Kitabxana tarixi | 1 | 12 |
| Kitabxana iqtisadiyyatı | - | 16 |
| Biblioqrafiyaşünaslıq elmləri | 10 | 27 |
| Kitabxanaşünaslıq elmləri | 1 | 2 |
| ***Cəmi:*** | ***61*** | ***220*** |

Bütünlükdə biblioqrafik isnadların miqdarı 1981-ci ildə 782, 1991-ci ildə isə 712 adda olmuşdur (cədvəl 5). 1981-ci ildə «informatika» sahəsindən «kitabxanaşünaslıq», «biblioqrafiyaşünaslığ»a və kitabxanaşünaslığa isnad formasında keçən əsərlərin miqdarı 8,4%, 1991-ci ildə isə 31% təşkil edir. Bu isnadların 1981-ci ildə 6,2%-ni, 1991-ci ildə isə 17,4%-ni kitabxanaçılıq informatikası sahəsindəki əsərlər təşkil edir (cədvəl 5). Bu fakta əsaslanaraq «kitabxanaçılıq informatikası»nın «informatika»nın nisbi-müstəqil elm sahəsi kimi formalaşdığını demək mümkündür. Lakin 5-ci və 6-cı cədvəldən aydın görünür ki, bu sahənin nəzəri və təcrübi arsenalının xeyli hissəsini «kitabxanaşünaslıq» və «biblioqrafiyaşünaslıq» fənləri daxilində formalaşır. Bu fakt yuxarıda deyilən iki təhlil me-

tədunun ümumi nəticələri ilə tam üst-üstə düşür. Elə «İnformatika» referativ jurnalının yuxarıda verilmiş bölmələrinin adlarına (cədvəl 2) baxmaq kifayətdir. Kitabxanaşünaslıq fənlərindən kitabxanaşünaslıq nəzəriyyəsi, kitabxana təsnifatları və kataloqları, kitabxana işinin təşkili və idarə edilməsi fənnləri informatika fənləri, xüsusilə «kitabxanaçılıq informatikası» ilə daha intensiv və sıx inteqrasiya olunur (cədvəl 5). «Kitabxana iqtisadiyyatı» fənninin xüsusilə 90-cı illərdən informatika fənləri ilə, o cümlədən iqtisadi informatika ilə inteqrasiyası müşahidə edilir. Bu fakt ehtimal etməyə əsas verir ki, yaxın gələcəkdə kitabxana-informasiya fəaliyyətinin, xüsusilə avtomatlaşdırılmış kitabxana-informasiya texnologiyasının iqtisadi məsələlərini daha dolğun əhatə edən nisbi-müstəqil elm sahəsi yaranacaqdır. Ehtimal ki, bu elm sahəsi, kitabxana iqtisadiyyatı ilə iqtisadi informatikanın aralıq sərhəddində yerləşəcəkdir. Onun necə adlanacağını qabaqcadan demək çətindir. Bəlkə də o, kitabxana iqtisadiyyatının iri bir bölməsi kimi bu fənnin tərkib hissəsinə daxil olacaqdır. Hər halda 5-ci cədvəlin məlumatları göstərir ki, kitabxana iqtisadiyyatının bir tərəfdən təbii ki, kitabxanaşünaslıq fənləri, digər tərəfdən kitabxanaçılıq və iqtisadi informatika, başqa bir tərəfdən ictimai və humanitar elmlərlə (xüsusilə iqtisadi elmlərlə) inteqrasiya elementləri 90-cı illərdən sonra aydın müşahidə edilir.

«Библиотековедение» jurnalında kitabxanaşünaslıq fənləri üzrə dərc edilən məqalələrin biblioqrafik isnad sisteminin bəzi ümumi cəhətlərini də qeyd etmək lazımdır. İsnad edilən əsərlərin tədqiq edilən illər üzrə orta hesabla 1,2%-ni xarici dillərdə olan əsərlər təşkil edir. Keçmiş ittifaq respublikaları içərisində Ukrayna və Latviya mütəxəssislərinin rus dilində yazılmış əsərlərinə nisbətən çox isnad verilmişdir. Deyilən illərdə azərbaycanlı mütəxəssislərin məqalələri həmin jurnalda dərc edilmişdir. Yalnız bir məqalədə (L.M.İnkova və İ.P.Osipova, 1981, № 2, s.9) professor A.A.Xələfovun doktorluq диссертасийасынын /История библиотечного дела в Азербайджане /1933-1958 гг.// avtoreferatına biblioqrafik isnad verilmişdir.

İndi «Научно-техническая информация» (NTİ) jurnalında 1981 və 1993-cü illərdə dərc edilən məqalələrdə biblioqrafik isnadların elm və texnika sahələri üzrə bölgüsünə baxaq (cədvəl 7) və onu yuxarıda verilmiş cədvəllərin əlaqədar məlumatları ilə müqayisə edək.



*NTİ, Ser. I, 1981, № 1-6; 1993, № 1-6*

*Cədvəl 7.*

| İnformatikanın sahələri | İsnad edilən məqalələrin miqd. | Bibl.isnadların miqd | Öz sahəsindən və informatikanın digər sahələrindən | Kitabxanaşünaslıq nəzəriyyəsi | Kitabxana fondları | Təsnifat və kitabx.kataloqları | Oxucularla iş | Kitabxana işinin təşk və id. ed.si | Kitabxana tarixi | kitabxana iqtisadiyyatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nəzəri informatika | 14/17 | 50/110 | 36/69 | 2/4 | - | 1/0 | - | - | 0/2 | - |
| Kitabxanaçılıq informatikası | 12/17 | 84/66 | 19/19 | - | 0/4 | 18/6 | 0/4 | 0/2 | 3/0 | 0/5 |
| Riyazi informatika | 1/6 | 4/7 | 4/6 | - | - | - | - | - | - | - |
| Texniki informatika | 3/5 | 44/29 | 23/11 | 0/1 | 0/1 | 0/1 | - | - | - | - |
| İqtisadi informatika | 5/6 | 45/38 | 36/20 | - | - | 1/3 | 0/1 | - | - | 0/5 |
| Geoinformatika | 1/1 | 1/6 | 1/1 | - | - | - | - | - | - | - |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bioinformatika | 1/3 | 0/12 | 0/11 | - | | - | - | - | - | - |
| Hüquq informatikası | 0/5 | 0/2 | - | - | - | - | - | 0/1 | - | - |
| Dilçiliklə bağlı inform-ka istiq-ri | 2/2 | 59/17 | 16/4 | 1/0 | - | 2/2 | - | - | - | - |
| İnformatikanın fizika və kimya ilə əlaqə istiqamətləri | 1/1 | 1/14 | 1/0 | - | - | 0/6 | - | - | - | - |
| ***Cəmi:*** | 40/63 | 288/301 | 136/141 | 3/5 | 0/5 | 22/19 | 0/5 | 0/3 | 3/2 | 0/10 |

*Cədvəl 7 (davamı).*

| Kitabxana işinin texniki vasitələri | Biblioqrafiya elmləri | Kitabxanaşünaslıq elmləri | Kibernetika, riyaziyyat və təbiətşünaslıq elmləri | İctimai və humanitar elmlər | Texniki elmlər |
|---|---|---|---|---|---|
| - | 1/10 | 2/0 | 2/0 | 6/31 | 0/4 |
| - | 10/18 | 13/2 | 13/2 | 5/2 | 3/2 |



| | | | | | |
|---|---|---|---|---|---|
| - | - | - | - | 0/1 | - |
| - | 1/2 | 5/1 | 5/1 | 7/3 | 3/7 |
| - | - | 1/0 | 1/0 | 5/6 | 1/3 |
| 0/4 | - | - | - | 0/1 | - |
| - | - | - | - | 0/4 | - |
| - | - | - | - | 0/1 | - |
| - | 2/4 | 6/0 | 6/0 | 24/4 | 2/3 |
| - | - | - | - | 0/2 | 0/6 |
| 0/4 | 14/34 | 27/3 | 27/3 | 47/56 | 9/25 |

Cədvəldən görünür ki, informatika sahələrindən üçü (kitabxanaçılıq, nəzəri və texniki informatika) kitabxanaşünaslıq fənnləri ilə daha sıx bağlıdır. Kitabxanaşünaslıq fənlərindən kitabxana təsnifatları və kataloqları fənninin sahəvi informasiya ehtiyatları informatikada daha intensiv istifadə olunur. İnformatikanın ictimai və humanitar elmlərdən aldığı sahəvi informasiyalar da getdikcə çoxalır, kibernetika, riyaziyyat və təbiətşünaslıq elmləri ilə informasiya əlaqələri isə zəifləyir. Bunun səbəbi bizcə iki faktla izah edilə bilər: 1) cədvəldə adları verilən sosial informatika (məsələn, kitabxanaçılıq, hüquq informatikası) sahələri öz obyekti etibarilə ictimai və humanitar elmlərə daha yaxındır; 2) təbiətşünaslıq informatikası sahəsində əksər məqalələr əlaqədar sahəvi jurnallarda dərc edilir və deməli onların isnad sistemini «Научно-техническая» jurnalının I seriyası əsasında tam aşkarlamaq çətindir. Lakin cədvəldən aydın görürük ki, informatika elmlər təsnifatı baxımından həm təbiətşünaslıq, həm də humanitar elmlər sisteminə aid edilə bilər. Hətta texniki informatika sahəsinin də ictimai və humanitar elmlərlə fəal əlaqəsini müşahidə edirik. Təbii ki, informasiya texnikası özlüyündə haradasa, hansı obyektdəsə tətbiq olunmalıdır. Tətbiq üçün isə obyekt olmalıdır. Buna görə də texniki informatika sahəsinin həm sosial, həm təbiətşünaslıq informatikası ilə, həm də texniki elmlərlə əlaqəsini görürük.

Təbitəşünaslıq, riyazi və texniki informatika sahələrində informasiyanın səpələnməsi (sahəvi informasiyaların digər sahələrə axını) (bax: cədvəl 7), sosial informatika sahələrində isə əks proses, yəni informasiyanın konsentrasiyası (digər sahələrdən öz arsenalına cəlb edilməsi) daha güclüdür. Məsələn, «Kitabxanaçılıq informatikası» sahəsində məqalələrdəki isnadların 1981-ci ildə yalnız 22%-i, 1991-ci ildə isə 35%-i informatika sahəsindəndir, 65-70%-i digər elmlərə, xüsusilə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmlərinə aid olan informasiyalardır. Təbiətşünaslıq informatikası sahəsində isə əks prosesi müşahidə edirik. Buradan belə bir nəticə çıxır ki, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq, qismən kitabşünaslıq elmlərinin əlaqədar nəzəri, metodiki və təcrübi əsaslarını, eyni zamanda nəzəri, riyazi, texniki və iqtisadi informatika elmlərinin əlaqədar nəticələrini mənimsəmədən «Kitabxanaçılıq informatikası» sahəsində nə elmi, nə də tədris işini görmək mümkün deyil. Əsasən bu elmlərin əlaqədar nəticələrinin sintezindən həmin sahə yaranır və konkret obyektə tətbiq edilir. Digər tərəfdən, 80-ci illərin əv-



vəllərinə qədərki dövr «Kitabxanaçılıq informatikası»nın ilkin formalaşma dövrü olduğu üçün təbii ki, digər əlaqədar elmlərdən informasiyaları öz elmi arsenalına cəlb etməli və mənimsəməli idi. Buna görə də 90-cı illərdə «Kitabxanaçılıq informatikası»nın artıq yetkinləşməsini, ona daha yaxın olan kitabxanaşünaslıq elmlərinə fəal əks təsirini müşahidə edirik. 8-ci cədvəldə verilmiş informasiya balansının nisbəti bu fikri sübut edir. Lakin informasiya təsiri və əks təsiri prosesini daha geniş tarixi dövr üçün təhlili bu prosesi daha aydın müşahidə edilməsinə imkan verərdi.

Ümumiyyətlə, elmlərin inteqrasiyasının informasiya parametrlərinin intensivliyini müəyyənləşdirərkən müəyyən elmin informasiya fəallığı, yaxud informasiya balansı (12) da əsas götürülür. Müəyyən elmin informasiya fəallığı (balansı) o halda müsbət olur ki, qəbul edilmiş müəyyən statistik həddə ikinci növ informasiya axını zamanı digər elm və texnika sahələrindən alınan informasiyalar onun öz sahəsindəki fəal informasiyalardan miqdarca çox olur. İnformasiya balansı müəyyən tarixi dövrdə müsbət olan hər hansı elm sahəsi həmin dövrdə nəzəri və metodik arsenalı baxımından zəif olsa da, daha perspektiv və intensiv inkişafa malikdir. İctimai, humanitar və bəzi texniki elmlərin informasiya balansı xüsusilə XX əsrin ortalarından həmişə müsbət olmuşdur. Onların inteqrasiya dairəsi riyazi və fundamental təbiət elmlərinin əlaqədar arsenalı hesabına daima zənginləşir, genişlənir və dərinləşir. Bu inteqrasiyadan yaranan yüzlərlə yeni elmlərin adları məlumdur. Kitabxanaşünaslıq elmləri də deyilən elmlərlə və həmçinin «informatika» ilə inteqrasiya baxımından müsbət informasiya balansına malikdir. Bu fikri verilmiş 8-ci cədvəldən asanlıqla görmək olar.

***Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin informatika və digər elmlərlə inteqrasiyasının informasiya balansı (fəallığı) (statistik parametrlər)***

*Cədvəl 8*

| Kitabxanaşünaslıq fənnləri və digər əlaqədar elmlər 1981 / 1991 (1993) | İnformatikaya alınan əsərlər (isnadlar) | | İnformatikadan və digər elmlərdən k/xşün. və bibl.-şün. keçən əsərlər (isnadlar) | | İnformasiya balansı | |
|---|---|---|---|---|---|---|
| | 1981 | 1991/ 1998/ | 1981 | 1991/ 1998/ | 1981 | 1991/ 1998/ |
| Kitabxanaşünaslıq nəzəriyyəsi | 3 | 5 | 12 | 35 | +9 | +30 |
| Kitabxana fondları | - | 5 | 3 | 24 | +3 | +19 |
| Kitabxana təsnifatları və kataloqları | 22 | 13 | 16 | 49 | +6 | +33 |
| Oxucularla iş | - | 5 | 2 | 18 | +2 | +16 |
| Kitabxana işinin təşk.və id.ed-si | - | 3 | 7 | 24 | +3 | +17 |
| Kitabxana tarixi | 3 | 2 | 1 | 12 | -2 | +1 |
| Kitabxana iqtisadiyyatı | - | - | 10 | 16 | - | +6 |
| Biblioqrafiyaşünaslıq elmləri | 14 | 34 | 10 | 27 | -4 | -7 |
| Kitabşünaslıq elmləri | 27 | 3 | 1 | 2 | -26 | -1 |
| Kibernetika, riyaziyyat və təbiətşünaslıq elmlərindən keçən isnadlar (əsərlər | 3/k/xs./ 27/inf./ | - | 4/k/xs./ 4/inf./ | - | - | - |
| İctimai və humanitar elmlərdən keçən isnadlar (əsərlər) | 129/k/xs./ 47/inf./ | - | 0/k/xs./ 25/inf./ | - | - | - |
| Texniki elmlərdən keçən isnadlar (əsərlər) | 0/k/xs./ 9/inf./ | - | 0/k/xs./ 25/inf./ | - | - | - |
| ***Cəmi:*** | ***69*** | ***70*** | ***62*** | ***207*** | | |



Cədvəldən görünür ki, informatika ilə inteqrasiya səviyyəsinə görə kitabxana təsnifatları və kataloqları və kitabxanaşünaslıq nəzəriyyəsi fənnlərinin informasiya balansı daha fəaldır. Əvvəlki cədvəllərdən də görürük ki, həmin fənlərin informatika sahələri ilə qarşılıqlı əlaqələri daha intensivdir. Digər kitabxanaşünaslıq fənləri inteqrasiya intensivliyi baxımından nisbətən zəifdir.

Biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin informatika ilə inteqrasiya baxımından informasiya balansı mənfidir (cədvəl 8), yəni «informatika»ya bu sahələrdən keçən informasiyalar daha çoxdur. Referativ jurnalın təhlilindən də gördük ki, Biblioqrafiyaşünaslıq elmlərinin dəfələrlə sınaqdan keçirilmiş nəzəri, metodoloji və təcrübi arsenalı informatikada daha geniş istifadə edilir. Biblioqrafik təsvir nəzəriyyəsi, metodları və təcrübəsi, biblioqrafik axtarış metodları və vasitələri və s. buna misal ola bilər.

«İnformatika»nın ənənəvi sənədlərlə bağlı olan tarixi problemləri zəif işlədiyinə və ilkin sənəd informasiyalarının istehsal və emalı məsələləri kitabşünaslıqda daha dərindən və hərtərəfli öyrənildiyinə görə «informatika»nın kitabşünaslığın tarixi, nəzəri və təcrübi elmi arsenalına ehtiyacı vardır. Bütün buna görə də «informatika» ilə inteqrasiya baxımından biblioqrafiyaşünaslığın və kitabşünaslığın informasiya balansı təbii ki, mənfi olmalıdır. Referativ jurnalın əlaqədar məlumatları, terminoloji təhlil nəticələri də deyilən fikri təsdiq edir. Lakin elmi metodların miqrasiyası baxımından «informatika» həmin elmlərə daha fəal təsir göstərir.

Beləliklə, gördük ki, informatika ilə kitabxanaşünaslıq fənlərinin tarixən başlanan inteqrasiyası getdikcə intensivləşmiş, genişlənmiş və dərinləşmişdir. Onun onlarla, yüzlərlə ölçü parametrləri vardır. Biz onun bir neçəsini deməyə çalışdıq. Əvvəlki tarixi dövrlərdə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri informatikanın sosial yönümlü nəzəri, metodiki və təcrübi əsaslarını formalaşdırmışdır. Eyni zamanda informatikanın fəlsəfi, texniki, riyazi, bioloji və hüquqi əsasları deyilən əlaqədar elmlər tərəfindən yaradılmışdır. Bu şaxəli tarixi inkişaf prosesi informatikanın onlarca digər elmlərlə inteqrasiyasını getdikcə gücləndirmişdir. Tarixi inteqrasiya prosesi nəticəsində informatikanın elmi və təcrübi arsenalı getdikcə zənginləşmiş, informasiya mərkəzləri isə tətbiqi və texnoloji tədqiqatlarla bu prosesi daha da sürətləndirmişdir. Nəticədə 90-cı illərin ortalarından informatikanın differensasiya prosesi başlanmış-

dır, yeni-yeni informasiya fəaliyyəti qurumları yaradılmışdır. Bizcə, informatikanın ali tədris müəssisələrində differensial tətbiqi də qismən bu yaxın tarixi faktla bağlı olmuşdur.

Yuxarıda deyilən təhlil metodlarının nəticələri göstərir ki, informatika elmləri infrastruktur xarakterli elmlərdir. Onların bir qisminin tədqiqat obyekti təbiətdə baş verən informasiya prosesləri, digər qisminin tədqiqat obyekti sosial-ictimai informasiya hadisələri, başqa bir qisminin tədqiqat obyekti isə intellektual xarakterli texniki sistemlərdir.

Eksperimental təhlil metodlarının nəticələrinin müqayisəsi və ümumiləşdirilməsi göstərir ki, sosial informatika elmləri içərisində «Kitabxanaçılıq informatikası» tarixən xeyli əvvəllər formalaşmış hazırda elmi və təcrübi arsenala malikdir.

Yuxarıda verilmiş eksperimental təhlil metodlarının müqayisəli məzmun aspektlərini ümumiləşdirsək bir elm kimi «Kitabxanaçılıq informatikası»na belə bir tərif vermək olar:

«Kitabxanaçılıq informatikası – kitabxanalarda, elmi və bədii sənəd informasiyaları ilə iş görən digər qurumlarda texnoloji və idarəetmə proseslərinin avtomatlaşdırılmasının nəzəri, metodiki və təcrübi problemlərini öyrənən elmdir».

Bu tərif referativ jurnalın əlaqədar bölmələri çərçivəsində sənəd-informasiya axınının məzmununa, terminoloji təhlil nəticələrinə və biblioqrafik isnad metodunun faktlarına tam uyğun gəlir.

«Kitabxanaçılıq informatikası»nın tədqiqat obyektləri – kitabxanalar, arxivlər, informasiya idarələri və nəşriyyatlar, tədqiqat predmeti isə sənəd/informasiya prosesləridir.

Tətbiq edilən eksperimental təhlil metodlarının nəticələrinin müqayisəli məzmun təhlili göstərir ki, «Kitabxanaçılıq informatikası» tədris aspektində təqribən 22 sahəvi və 6 sahələrarası (digər informatika fənnləri) fənnə bölünə bilər. Bu istiqamətdə tədqiqatlar deyildiyi kimi, İ.Maxlup, R.S.Qilyarevski, A.V.Sokolov və bir sıra digər tədqiqatçılar tərəfindən aparılmışdır. Lakin 90-cı illər baxımından bu tədqiqatların nəticələri bizcə bir qədər təkmilləşdirilmişdir. Bu problem isə ayrıca bir məqalənin mövzusudur.

## ƏDƏBİYYAT


*1. Мехтиев Д.М., Рустамов А.М. Указатель Цитированной литературы по нефтяной науке и технике. В 2-х томах. Т. 1. Указатель сслок. – Б., 1973. – 632 с.; Т. 2. Указатель источников. – Б., 1974. – 325 с.: Рустамов А.М. Указатель Цитированной литературы*





*və интегральной библиотечно-информационной системе // Вопр. информ.теории и практики. Международный научный сборник. – 1983. - № 48. – с. 63-80.*

*2. Məsələn, Коренной А.А. Анализ информационных связей в потоках НТИ. Автореферат дисс. «...» кандидат технических наук. Киев, 1974. – 18 с.; Маршакова И.В. Система цитирования научной литературы как средство слежения за развитием науки. Автореферат дисс. «...» доктора технических наук. – М., 1986. – 27 с.; və с.*

*3. Прайс А.А.Малая наука, большая наука // Наука о науке. Сб. Научн.тр. – М., 1966. – С. 320-386: Прайс Д.Д. Наука со времени Вавилиона. – М., 1968. – 146 с.: Налимов В.В. Количественные методы исследования процесса развития науки // Вопр.философии. – 1966. - № 12. – С. 42-52; və с.*

*4. Məsələn, Прайс Д.Д.Квоты цитирования в точных и не точных науках и не-науке // Вопр.философии. – 1971. - № 3. – С. 149-155; Налимов В.В., Мульченко В.И. Наукометрия. – М., 1981. – 178 с.; Дупленко Ю.К. Метод компьютерного кластер-анализа цитирования как инструмент выявления и исследования структуры межнаучного взаимодействия //НТИ, сер.1. – 1993. - № 4. – С. 20-24.*

*5. Məsələn, Гиляревский Р.С. и др. Опытизучения Scl //Кибернетика и документалистика. Сб.научн.тр. – М., 1969. – С. 32-53; Мехтиев Д.М., Рустамов А.М. Методика составления машинного указателя сслок. – Б., 1972. – 59 с.: Указатель цитированной литературы по нефтяной науке и технике /»УЦЛ-нефть»/. /Научн.и техн.б-ки. ССР. – 1976. – № 2. – С. 13-21.*

*6. Ершов А.П.О предмете информатики // Вестн. АН. ССР. – 1984. - № 2 – С. 113-118.*

*7. Глушков В.М. Основы безбумажной информатики. –М., 1982. –362 с.*

*8. Small H/ The relationship of information science to the social Sciences a Co-citation analysis // Inform/ proc/ and manag., 1981/ - V. 17. – p. 39-50.*

*9. Маршакова И.В.Система цитирования научной литературы как средство слежения за развитием науки. – М.: Наука, 1988. – С. 132-134.*

*10. Гиляревский Р.С. Что такое информатика? //НТИ, сер. I. – 1989. - №11. – С. 18-19.; Шрейдер Ю.А. Двойной облик информатики // Природа. – 1988. - № 9. – С. 64-71.*

*11. Муравинский Т.В. Информатика – новая научная дисциплина // НТИ. сер. I. – 1993. - № 6. – С. 9-14.*

*12. Теплов Д.Ю., Горохова Т.А. Некоторые результаты изучения информационных потоков // НТИ. – Сер I. – 1979. - № 2. – С. 3-10.*

*Mayıl HƏSƏNOV,*
*Tarix elmləri namizədi, dosent*

# HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNİN KİTABXANALARDA KOMPLEKTLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Dövrün ən aktual və ən vacib problemlərindən biri kitabxana fondlarının formalaşması və kataloq-kartoteka sistemində əks etdirilməsi həmişə nəzər-diqqəti cəlb etmişdir. Belə ki, fondun formalaşması və kataloq-kartotekalarda əks etdirilməsi insanların bütün sahələrdə (təsərrüfat, iqtisadiyyat, mədəniyyət və s.) mövcud tələbatından, onun mütaliə prinsiplərindən, mahiyyətindən irəli gəlir. Kitabxanaçılar fondun formalaşmasına böyük əhəmiyyət vermiş, onun cəmiyyətdəki rolunu və yerini, mühüm vəzifələrini müəyyənləşdirmiş və inkişafına müntəzəm diqqət yetirmişdir.

Məhz bu baxımdan respublikamızda XX əsrdə kitabxana fondlarının inkişafı xüsusilə diqqəti cəlb edir. Əgər 1914-cü ilə qədər respublikada 18 min nüsxə kitab fonduna malik olan 25 kitabxana mövcud idisə (1), 1980-ci illərdə fəaliyyət göstərən 10 minə qədər kitabxana fondlarında 80 milyon nüsxə (2) ədəbiyyat toplanmışdır.

Göründüyü kimi, respublikamızın kitabxana fondları müntəzəm olaraq həm keyfiyyət, həm həcm, həm də verilişi etibarilə təkmilləşmiş, minlərlə oxucuların mütaliə mərkəzinə çevrilmişdir. Bunu ayrı-ayrı kitabxanaların timsalında daha konkret müşahidə etmək olar. Hazırda M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında 5 milyon (3) nüsxəyə yaxın, Azərbaycan Respublikası MEA-nın Mərkəzi Elmi Kitabxanasında 3,5 milyon (4) nüsxədən artıq, Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında 2,5 milyon (5) nüsxədən artıq, Azərbaycan Respublikası Elmi-Texniki Kitabxanasında 20 milyon (6) nüsxəyə yaxın ədəbiyyat fondu toplanmışdır və s. respublikamızın kitabxanalarında oxucuların sorğusunu geniş nəzərə alaraq bütün bilik sahələri üzrə ədəbiyyatın komplektləşdirilməsinə



mühüm diqqət yetirilmişdir. Burada dövrümüzün ən görkəmli şəxsiyyəti, respublikamızın prezidenti Heydər Əliyevin əsərlərinin kitabxana fondlarında tutduğu yeri xüsusilə qeyd etmək lazımdır. Bu əsərlər sənayenin, istehsalatın, texnikanın, iqtisadiyyatın, maarifin, mədəniyyətin ən mühüm məsələlərini oxuculara çatdırır və onlarda zəngin biliklər xəzinəsini mənimsəmək, dərk etmək imkanı yaradır, dünyagörüşünü genişləndirir, elmi-texniki səviyyəsini daha da yüksəldir, dünyada baş verən mühüm yeniliklərin təhlil edilməsinə yaxından köməklik göstərir və bu da istehsalatda, sənayedə, kənd təsərrüfatında, dünya hadisələrində fəal iştirak etmələrinə geniş şərait yaradır. Məhz bu baxımdan hörmətli prezidentimizin əsərlərinin kitabxanalarda komplektləşdirilməsinə mühüm əhəmiyyət verilir. Belə ki, bu əsərlərə minlərlə oxucu tərəfindən mütaliə edilməsinə böyük maraq yaranmışdır.

1970-ci illərdən başlayaraq son illərə qədər elm, maarif, mədəniyyət sahəsində baş verən irəliləyişlər bilavasitə H.Əliyevin müntəzəm rəhbərliyi, qayğısı nəticəsində mümkün olmuşdur. H.Əliyev mədəniyyətin mühüm sahələrindən biri kimi kitabxana fondlarının xalqın mənəvi sərvəti olmaqla zəngin bilik, təhsil, tərbiyə mənbəyi hesab etmiş və yüksək qiymətləndirmişdir. O, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, xüsusən respublikamızın əldə etdiyi müstəqillik illərində müntəzəm olaraq kitabxanalarda olmuş, onların inkişafına diqqət yetirmiş, göstərişlər vermiş, mütaliə mənbəyi kimi kitabxana fondlarını yüksək qiymətləndirmişdir. Xüsusən H.Əliyev M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında 4 dəfə olmuşdur. O, 1995-ci ildə «Vətənə, dövlətə, xalqa sədaqət» (7) adlı miniatür kitabının təqdimatında, 1996-cı ildə İsraildə çapdan çıxmış «H.Əliyev: siyasi partiya cizgiləri» (8) adlı əsərin təqdimatında, 1997-ci ildə Azərbaycan qaçqınlarının foto-albomunun təqdimat mərasimində» (9), Amerikada nəşr edilən «İnternational» (10) jurnalının təqdimatında iştirak etmiş və sanballı çıxışları ilə dəyərli fikirlər irəli sürmüşdür. Çıxışlarında kitabxana fondlarının təkmilləşdirilməsi və inkişafı haqqında bir sıra mühüm elmi fikirlər, tövsiyələr irəli sürmüşdür. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında 1995-ci ilin mart ayının 4-də söylədiyi çıxışında deyilir: «Kitabxana xalq, millət, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir» (11).

Kitabxana fondu mühüm mədəniyyət sərvəti olduğuna görə onu mədəniyyətdən ayrı düşünmək olmaz. Məhz buna görə də

H.Əliyevin mədəniyyət haqqında söylədiyi fikirləri kitabxana fondlarına da tam aid etmək olar. Onun 1997-ci ildə nəşr olunan «Aforizmlər: müdrik kəlamlar» kitabında mədəniyyətin klassik tərifi verilmişdir. Kitabda oxuyuruq: «Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir», «Azərbaycan mədəniyyəti öz milliliyini saxlayacaq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatacaq», «Hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatını zənginləşdirir», «Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir» (12). Burada mədəniyyət sərvəti kimi kitabxana fondlarının rolunu xüsusilə qeyd etmək lazımdır. Bu fondlar minlərlə oxuculara xidmət göstərir, insanların fəal mövqeyini təkmilləşdirir, mütaliə potensialını yüksəldir. Xüsusən prezident H.Əliyev cənabları bilik, zəka, mədəniyyət mənbəyi saydığı kitabxanalarla vaxtaşırı əlaqə saxlamış, onların sənəd-informasiya təminatı ilə maraqlanmış, zəngin kitabxana fondlarının yaradılmasına ciddi diqqət yetirmişdir. O, 1995-1997-ci illərdə Axundov adına Azərbaycan Dövlət Kitabxanasına gəlmiş, özünə məxsus 400 nüsxə (13) kitabı həmin kitabxanaya hədiyyə olaraq bağışlamış və 5000 dollar (14) maliyyə vəsaiti ayırmışdır. Belə şəxsi hədiyyələr respublikamızda kitabxana fondlarının zənginləşməsinə mühüm təsir göstərir, mütaliə işini səmərəliləşdirir. H.Əliyevin kitabxanalara verdiyi kitab hədiyyələri digər şəxslər üçün də gözəl nümunə olmuşdur. Xüsusən H.Əliyevin müraciətindən sonra Azərbaycan Respublikası MEA Mərkəzi Elmi Kitabxanasına 15 min nüsxəyə (15) qədər kitab hədiyyə vermişdir (burada xalq şairlərindən B.Vahabzadənin, R.Rzanın, X.Rzanın, Anarın, akademik B.Budaqovun, R.Əfəndiyevin və digər görkəmli şəxslərin adlarını da çəkmək olar). Bu əsərlər kitabxana fondlarının zənginləşməsində mühüm rol oynayır, minlərlə oxucu həmin əsərləri mütaliə edir, siyasi, elmi, mədəni səviyyəsini yüksəldir, müasir dövrdə baş verən ən mühüm hadisələri xarakterizə edir, ölkəmizin, xalqımızın gələcək inkişaf yollarını müəyyənləşdirir. Bu baxımdan respublikamızda kitabxana fondlarının formalaşması və onun kataloq-kartoteka sistemində əks etdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Kataloqlarda H.Əliyevin 88 adda kitab və kitabçası əks olunmuşdur (16). Bu əsərlərin bəzilərinin adlarını çəkmək yerinə düşər: «İstehsalatın səmərəliliyini və keyfiyyətini daha da yüksəltməli» (1980), «Təhsil millətin gələcəyidir» (2002), «Müstəqilliyimiz əbədidir» (7 kitab: 1995-1997), «Aforizmlər: müdrik kəlamlar» (1997), «Azərbaycan bütün azərbaycanlıların vətənidir» (2000) və s. (17).



Bununla yanaşı, H.Əliyevin dövrü mətbuat səhifələrində 20 mindən (18) artıq nitqi, çıxışları, müsahibələri, məktubları M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının kartotekalarında əks olunmuşdur.

Bu əsərlərin daha səmərəli istifadə edilməsi məqsədilə kitabxanaların geniş kataloq-kartoteka sistemi yaradılmışdır. Bu da kitabxanalarda hörmətli prezidentimiz H.Əliyevin nəzəri irsinin hərtərəfli öyrənilməsi üçün geniş şərait yaratmışdır. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının kartotekaları əsasında minlərlə oxucular H.Əliyevin əsərləri ilə yaxından tanış olur və onlardan istifadə edir, hazırlıq səviyyəsini yüksəldir. Bu əsərlər əsasında oxucular sənayenin, istehsalatın, texnikanın, iqtisadiyyatın, mədəniyyətin ən mühüm məsələləri ilə tanış olur və zəngin biliklər xəzinəsinə yiyələnir, dünyagörüşünü zənginləşdirir. Bu da onların istehsalatda, sənayedə, kənd təsərrüfatında, dünya hadisələrində fəal iştirak etməsinə geniş şərait yaradır.

## ƏDƏBİYYAT


*1. Xələfov A.Azərbaycanda kitabxana işinin tarixindən. – B., 1986. – s. 14.*

*2. Yenə orada.*

*3. M.F.Axundov adına Azərbaycan Dövlət Elmi Kitabxanasının 2002-ci il hesabatı. – s. 13.*

*4. Azərbaycan Respublikası MEA Mərkəzi Kitabxanasının 2002-ci il hesabatı. – s. 12.*

*5. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının 2002-ci il hesabatı. – s. 15.*

*6. Azərbaycan Respublika Elmi-Texniki Kitabxanasının 2002-ci il hesabatı. – s. 11.*

*7. Əliyev H. Vətənə, dövlətə, xalqa sədaqət// Azərbaycan. – 1995. – 4 mart.*

*8. Əliyev H. İsraildə çapdan çıxmış H.Ə.Əliyevin siyasi partiya cizgiləri //Azərbaycan. – 1996. – 3 iyun.*

*9. Əliyev H. Azərbaycan qaçqınlarının foto-albomunun təqdimat mərasimi // Azərbaycan. – 1997. – 8 noyabr.*

*10. Əliyev H. Amerikada nəşr edilən «International» jurnalının təqdimatı // Azərbaycan. – 1997. – 15 noyabr.*

*11. Əliyev H.M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında çıxışı // Azərbaycan. – 1997. – 20 yanvar.*

12. Əliyev H. Aforizm: müdrik kəlamlar. – B., 1997. – 187 s.
13. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 1995-ci il hesabatı. – s. 11.
14. Yenə orada.
15. Azərbaycan Respublika MEA Mərkəzi Kitabxanasının 2002-ci il hesabatı. – s. 15.
16. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2001-ci il hesabatı. – s. 14.
17. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2002-ci il hesabatı. – s. 13.
18. Yenə orada.

**Гасанов М.**

## Вопросы комплектования произведений Гейдара Алиева в библиотеках

*Резюме*

В статье освещены принципы особенности и характеристики комплектования произведений президента Азербайджанской Республики Гейдара Алиева в некоторых крупных библиотеках республики.

**_Knyaz ASLAN_**
_Baş müəllim_

# ŞƏXSİYYƏTİN FORMALAŞMASI PROBLEMİ

XX əsrin sonu – XXI əsrin əvvəllərində cəmiyyətimizin ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni həyatında baş verən əsaslı hadisələr, köklü dəyişmələr, mühüm yeniləşmələr zamanın fövqündə dayanmağı bacaran, öz işi və əməli ilə xalqımızın ulu adət-ənənələrini yaşada bilən, dünənimizə hörmətlə yanaşıb sabahımızın xoşbəxtliyi naminə qəlbən çalışan hərtərəfli inkişaf etmiş yetkin şəxsiyyətlərin formalaşması zərurətini irəli sürür. Belə ki, uzun dövrdən sonra 1991-ci ildə Azərbaycan Respublikasının tam siyasi və iqtisadi müstəqillik qazanması, dünya dövlətləri sırasında özünəməxsus layiqli yer tutmağa can atması, beynəlxalq münasibətlər yönümündə uğurlu əlaqələr qurmağa başlaması insan amilinin düzgün və uğurlu həlli ilə sıx bağlıdır. Bütün bunlar isə şəxsiyyətin ahəngdar inkişafı və formalaşması istiqamətində geniş imkanlar açır.

Sözsüz ki, indiki dövrün mürəkkəb və qarmaqarışıq hadisələr burulğanında, milli azadlıq ideyalarının çiçəkləndiyi və real həyat həqiqətinə çevrildiyi bir zamanda təcavüzkar Ermənistanın işğalçılıq fəaliyyətinə qarşı qanlı mübarizə aparan, düşmən tapdağında qalmış ərazilərini azad etməyə çalışan Azərbaycan vətəndaşlarının əsl vətənpərvər şəxsiyyət kimi yetkinləşməsi problemi ön plana çıxır. Ona görə də gənc nəsildə müqəddəs Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizəyə sədaqət, doğma torpağa və xalqa məhəbbət, milli adət-ənənələrə hörmət, vətənpərvərlik, qorxmazlıq, cəsarət, hünər, qəhrəmanlıq, düşmənə nifrət hiss və duyğularının aşılanmasında bütün elm, təhsil, tərbiyə, mədəniyyət və informasiya müəssisələrinin üzərinə çox ciddi, məsuliyyətli və şərəfli vəzifələr düşür.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş ilk demokratik Azərbaycan Respublikasının Konstitusiyasında (1) təsbit edilmiş bu təxirəsalınmaz və taleyüklü vəzifələrin məqsədyönlü həyata keçirilməsi üçün ölkəmizdə

fəaliyyət göstərən çoxsaylı kitabxanalar da fəal mövqe tutmalı, oxucuların gündən-günə artan tələbatlarını vaxtında və dəqiq ödəməyə çalışmalı, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin dediyi kimi, "xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi" (2) olduğunu bir daha təsdiqləməlidir. Eyni zamanda kitabxanalarımız "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut" (3, s.3) səviyyəsində mühüm işlər gördüyünü sübuta yetirməli, müstəqil dövlətin sərbəst düşünən vətəndaşının yetişdirilməsinə öz töhfəsini verməlidir. Belə ki, "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir" (3, s.12).

Qeyd edək ki, insanın şəxsiyyət kimi kamilləşməsində, mənəvi-estetik ideallarının formalaşmasında, bədii zövqünün tərbiyə edilməsində tükənməz söz sənətinin – bədii ədəbiyyatın rolu və əhəmiyyəti misilsizdir. Başqa sözlə, cəmiyyətin mənəvi sağlamlığı, adamların yaşadığı mədəni mühit xeyli dərəcədə ədəbiyyat və incəsənətin vəziyyəti ilə müəyyən olunur.

Deməli, ideya tərbiyəsinin və mənəvi-estetik tərbiyənin əsas vəzifəsi insanlara əmək fəallığı, mənəvi zənginlik, əxlaqi yetkinlik, emosional həssaslıq, fiziki kamillik kimi keyfiyyətləri aşılamaqdan ibarət olduğundan minilliklərin ağır sınaqlarından üzüağ çıxmış zəngin Azərbaycan ədəbiyyatı dövrün həyati reallıqlarını əks etdirməklə yanaşı, milli dövlətçilik ənənələrinin təşəkkülündə və inkişafında fəal iştirak edən həqiqi vətənpərvəri də yetişdirmək iqtidarına malikdir. Məhz buna görə də oxucuların gündəlik sorğularını ödəməklə məşğul olan hər bir kitabxanaçı öz fəaliyyətində bədii ədəbiyyatın təbliğinə də xüsusi diqqət yetirməli, yaşından asılı olmayaraq bütün oxucu qruplarının, xüsusilə gənc nəslin təlim-tərbiyəsində bədii ədəbiyyatın mühüm yer tutduğunu, bu əsərlərin onların şüuruna, davranışına, inkişafına, bir sözlə, şəxsiyyət kimi formalaşmasına və yetkinləşməsinə təsirini nəzərdə saxlamalıdır.

Şəxsiyyətin hərtərəfli formalaşması problemi ən qədim dövrlərdən başlayaraq bütün bəşəriyyəti narahat etmiş, insanın çoxcəhətli qabiliyyət və istedadının inkişafı həmişə diqqət mərkəzində dayanmış, cəmiyyətin ən qabaqcıl və xeyirxah adamları daim yetkin şəxsiyyətlərin tərbiyə edilməsini ən vacib məsələ saymışlar. Lakin bütün bunlar uzun əsrlər boyu yalnız cəlbedici arzu olaraq qalmış, cəmiyyətin inkişaf qanunları əsasında hərtərəfli inkişaf etmiş şəxsiyyətin necə olması və onun yetişdirilməsi üçün hansı şəraitin vacibliyi elmi cəhətdən əsaslandırılmadığından və real şəkildə göstərilmədiyindən bu arzu sözün tam mənasında həyata keçirilə bilməmişdir. Əlbəttə, yetkin şəxsiyyətin formalaşdırılması sadə iş deyildir. Bu iş, hər şeydən əvvəl, müvafiq maddi şəraitin yaradılmasını, elmin və texnikanın ən yeni nailiyyətləri əsasında istehsalın durmadan inkişafını, geniş kütlələrin mədəni-texniki səviyyəsinin yüksəldilməsini, çoxcəhətli və fəal tərbiyə işinin aparılmasını tələb edir. Məhz buna görə də şəxsiyyətin formalaşması problemi müxtəlif elmlərin – fəlsəfənin, sosialogiyanın, pedaqogikanın, bədii ədəbiyyatın, kitabxanaşünaslığın və s. ən əsas predmeti kimi tədqiq olunmaqdadır.

Qədim zamanlardan bəri dünyanın ən görkəmli mütəfəkkirləri ilə yanaşı olaraq Azərbaycan ədəbiyyatı klassikləri də şəxsiyyət haqqında qiymətli fikir və mülahizələr söyləmiş, onun yetkinləşməsinə təsir göstərən amillər, o cümlədən kitab, mütaliə və kitabxananın rolu barədə bütün yaradıcılıqları boyu söz açmışlar. Şair və yazıçılarımızdan bir çoxu ayrı-ayrı kitabxanalarda çalışmış, bir çoxu isə öz əsərlərində kitabxanaçı surətlərinə müraciət etmiş, müxtəlif obrazlar qalareyası yaratmışlar.

Azərbaycan Respublikasında şəxsiyyətin hərtərəfli inkişafı problemi ilə müxtəlif dövlət qurumları məşğul olur ki, onların da sırasında kitabxanalar xüsusi yer tutur. Oxuculara bədii ədəbiyyatla xidmət göstərən kütləvi kitabxanaların bu sahədəki fəaliyyəti ayrıca öyrənilməyə və tədqiq olunmağa layiqdir.

Mövzunun aktuallığını daha dərindən dərk etmək üçün bir sıra mühüm anlayışların mənasına varmaq lazım gəlir.

Məlum olduğu kimi, cəmiyyətlə şəxsiyyətin qarşılıqlı münasibəti sosial idrakın mühüm məsələlərindən biridir.

Fəlsəfə, psixologiya, pedaqogika, sosiologiya, estetika, etika, hüquq, tibb, ədəbiyyatşünaslıq, kitabxanaşünaslıq və s. kimi bir sıra elmlərin tədqiqat obyektinə daxil olan "şəxsiyyət" anlayışı mahiyyətcə bir-birinə yaxınlaşan müxtəlif təriflərlə şərh olunur.

Alimlər belə bir müddəanı metodoloji zəmin hesab edirlər ki, "şəxsiyyət" anlayışının məzmununu aşkara çıxarmaq üçün, hər şeydən əvvəl, sosial (ictimai) varlıq olaraq insanın mahiyyətini

müəyyən etmək lazımdır, çünki şəxsiyyətlər yalnız insan cəmiyyətində mövcuddur (4, s.378). Başqa sözlə, şəxsiyyət ictimai (sosial) mahiyyətə malikdir. Bunu belə izah etmək olar ki, cəmiyyətdən və kollektivdən təcrid olunmuş insan şəxsiyyət kimi formalaşa bilməz. O, yalnız bioloji istiqamətdə formalaşar və heyvanlardan çətin fərqlənər. Deməli, insanın sosial keyfiyyətləri (zehni, əxlaqı, dünyagörüşü və s.) yalnız kollektivdə, cəmiyyət daxilində formalaşır və inkişaf edir (5, s.62).

Beləliklə, insan müəyyən dərəcədə biososial varlıqdır; ona görə sosial varlıqdır ki, onun ictimai mahiyyəti vardır; ona görə bioloji varlıqdır ki, bu mahiyyətin daşıyıcısı canlı insan orqanizmidir.

Qeyd etmək lazımdır ki, "insan" anlayışı insan növünə məxsus ümumi əlamətləri ifadə edən növ anlayışıdır. Adətən fərd deyərkən insan aləmində ayrıca bir nəfər nəzərdə tutulur. Onun xarakterində ümumi cəhətləri ilə bərabər fərdi cəhətləri də vardır.

"Şəxsiyyət" və "fərdiyyət" anlayışları bir-biri ilə sıx bağlıdır. Fərdiyyət öz ifadəsini insanın təbii əlamətlərində və psixi xassələrində – hafizə, təxəyyül, temperament, xarakter xüsusiyyətlərində və insan simasının, insanın həyat və fəaliyyətinin bütün rəngarəngliyində tapır. Şüurun bütün məzmunu da – baxışlar, mühakimələr, rəylər – fərdi rəng alır. Bunlar hətta müxtəlif adamlarda ümumi olduqda, həmişə özündə nə isə bir "özünəməxsusluq" daşıyır. Hər bir ayrıca adamın tələbatı və ehtiyacları fərdiləşmişdir və o özünün gördüyü hər bir işdə fərdi izini həkk etdirir. Şəxsiyyət yalnız öz ümumi xassələri və cəhətləri mənasında deyil, həmçinin öz sosial, mənəvi, fiziki keyfiyyətləri cəhətindən nəzərdən keçirilən bir insandır. Bu keyfiyyətlər həm müsbət, həm də mənfi ola bilər, çox zaman isə, müxtəlif nisbətlərdə olsa da, onlarda həm ləyaqət, həm də nöqsanlar birləşmiş olur (4, s.379-380).

Aydındır ki, insan dünyaya fərd kimi gələrək şəxsiyyətə çevrilir və bu proses tarixi xarakter daşıyır. Şəxsiyyətin sosial təcrübəni mənimsəməsi prosesi onun daxili aləmi vasitəsi ilə həyata keçirilir.

Şəxsiyyət insanın ictimai-sosial, konkret-tarixi həyat şəraitində, təlim-tərbiyəsində formalaşır.

Beləliklə, fərdiyyət insan şəxsiyyətinin yalnız bir cəhətidir. Tərbiyə prosesində onun nəzərə alınmasının – adamlara, eləcə də uşaqlara fərdi yanaşmanın böyük təcrübi əhəmiyyəti vardır.

Məhz buna görə də kitabxanaçı üçün mühüm olan bir vəzifəni – oxuculara fərdi yanaşmanın həyata keçirilməsi vəzifəsini ayrıca



qeyd etmək lazım gəlir. Belə ki, bu vəzifə oxucunun fərqli psixoloji xüsusiyyətlərini (yaddaş, diqqət, temperament növü, bu və ya digər qabiliyyətlərinin inkişafı və s.) qeydə almağı, başqa sözlə, bir oxucunun digər yaşıd oxucusundan nə ilə fərqləndiyini və bununla bağlı olaraq ona kitabxana xidmətini necə göstərməyi aydınlaşdırmağı nəzərdə tutur. Bununla yanaşı, başa düşmək lazımdır ki, fərdi yanaşma oxucuya şəxsi yanaşmanın yalnız bir cəhətidir.

Şəxsiyyət necə inkişaf edir? Onun formalaşmasına hansı amillər daha çox təsir göstərir? Bu suallara cavab vermək üçün şəxsiyyət psixologiyası ilə yanaşı pedaqoji psixologiya elminə müraciət etmək lazımdır.

Pedaqoji psixologiyanın üç bölməsindən (təlim psixologiyası, tərbiyə psixologiyası və müəllimin psixologiyası) biri olan tərbiyə psixologiyası pedaqoji prosesin məqsədyönlü təşkili şəraitində insanın şəxsiyyət kimi formalaşmasının psixoloji qanunauyğunluqlarını öyrənir.

Bəs şəxsiyyət necə formalaşır? Onun əsas mexanizmi nədən ibarətdir? Sübut olunmuşdur ki, insan təbiəti dəyişə-dəyişə özü də dəyişir. İnsan xarici aləmə aktiv surətdə təsir göstərir, məqsədyönlü fəaliyyət sahəsində onu və özünü şüurlu surətdə dəyişir. Bu, o deməkdir ki, şəxsiyyətin formalaşmasının əsasını məhz şüurlu aktiv fəaliyyət təşkil edir (6, s.109).

Pedaqoji ədəbiyyatda göstərilir ki, "şəxsiyyət" anlayışı "insan" anlayışından fərqli olaraq, insanın sosial xarakterini ifadə edir, başqa sözlə, insanın keyfiyyətləri onun ünsiyyətinin və başqa adamlarla, bütövlükdə cəmiyyətlə münasibətlərinin qurulmasının təsiri altında formalaşır.

Məlum olduğu kimi tərbiyə və inkişaf problemi pedaqogikanın mühüm metedoloji problemlərindən biridir.

"Tərbiyə" sözü pedaqogikada bir neçə mənada işlənir. Belə ki, əgər tərbiyə haqqında geniş sosial cəhətdən – ictimai hadisə kimi danışılarsa, onda o, cəmiyyətin bütün tərbiyəvi qüvvələrini: ailəni, məktəbəqədər və təlim-tərbiyə müəssisələrini, ictimai təşkilatları (uşaq və gənclər, ictimai, siyasi və peşəyönümü təşkilatları), kitabxanaları, əmək kollektivlərini, kütləvi informasiya yayımı vasitələrini (mətbuat, radio, televiziya, kino və s.) əhatə edir. Müstəqil dövlət quruculuğu şəraitində cəmiyyətin bu tərbiyə vasitələrinin hamısı ümumi məqsəd və vəzifələrə uyğun olan, dövlətin və xalqın maraqlarını əks etdirən eyni bir istiqamətdə fəaliyyət göstərməlidir. "Pedaqogikanın predmeti xüsusi təşkil olunmuş məqsədyönlü tərbiyədir" deyiləndə isə "tərbiyə" sözü geniş pedaqoji mənada işlənir,

həm təlimi, həm də tərbiyəni, yəni bütün təlim-tərbiyə prosesini əhatə edir (7, s.37).

Həm nəzəri ədəbiyyatda, həm də təcrübədə "tərbiyə" sözü konkret sahələri bildirmək üçün işlədilir: əmək tərbiyəsi, mənəvi tərbiyə, fiziki tərbiyə və s.

Bundan başqa, insandan və şəxsiyyətdən danışarkən digər terminlər də işlənir ki, onlardan bəzilərinin tərifi ilə tanış olmaq zərurəti yaranır.

Təlim - müəllimlə şagirdlərin elə qarşılıqlı təsirə malik məqsədyönlü prosesidir ki, onun gedişi zamanı insanın təhsili, tərbiyəsi və inkişafı həyata keçirilir.

Təhsil – təkcə təlimin deyil, həm də özünütəhsilin və kütləvi informasiya yayımı vasitələrinin təsirinin (kino, radio, televiziya və s.) prosesi və nəticəsidir ki, bunun da sayəsində insan elmi biliklər sisteminə yiyələnir, onun idraki qabiliyyəti formalaşır, dünyagörüşü kamilləşir.

İnsanın inkişafı – insan şəxsiyyətinin xarici və daxili, idarəolunan və idarəolunmayan amillərin təsiri altında təşəkkülünün və formalaşmasının daha geniş prosesidir ki, onların da içərisində möqsədyönlü təlim və tərbiyə aparıcı rol oynayır.

Formalaşma – insanın bütün həyat fəaliyyəti prosesində və xüsusi tərbiyə vasitələrinin təsiri ilə onun inkişafının mühüm formasıdır (7, s.18).

Eyni zamanda mövcud ədəbiyyatda "yeniyetmə", "böyüməkdə olan", "yetişən" sözləri ilə yanaşı "nəsil" sözü də işlənir, həmçinin nəsillərin əlaqəsi, təcrübənin yeni nəslə verilməsi və s. haqqında söhbət açılır. "Nəsil" anlayışına təxminən eyni zamanda doğulmuş insanlar aid edilir. Sosioloqlar bu fikirdədirlər ki, nəsil valideynlərin doğum günündən uşaqların doğum vaxtınadək olan zaman kəsiyini əhatə edir ki, bu da statistik olaraq təxminən otuz ilə bərabərdir.

Aydındır ki, tərbiyənin obyekti böyüməkdə və inkişafda olan insandır. Bütün həyatı boyu onda inkişaf prosesi baş verir. İnsan müxtəlif növ fiziki və psixi, kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalır. Fiziki dəyişikliklərə boy artımı, sümük və əzələ sisteminin, daxili orqanların, əsəb sisteminin inkişafı daxildir. Psixi dəyişikliklərə isə hər şeydən əvvəl əqli inkişaf, şəxsiyyətin psixi cəhətlərinin formalaşması və cəmiyyətdə həyat üçün lazım olan sosial keyfiyyətlərin qazanılması aiddir.

İnsanın inkişafı çox mürəkkəb prosesidir. O, bütün canlı və inkişafda olan orqanizm kimi özünəməxsus xarici və daxili



qüvvələrin təsiri altında baş verir. Xarici təsirlərə hər şeydən əvvəl cəmiyyətin maddi həyat şəraiti – insanı əhatə edən təbii və sosial mühit və uşaqda cəmiyyətin həyatında iştirakı üçün lazım olan keyfiyyətlərin formalaşdırılması üzrə pedaqoqların xüsusi məqsədyönlü fəaliyyəti, yəni tərbiyə daxildir.

"Mühit" – çox mürəkkəb anlayışdır, belə ki, mühit özündə uşaq anadan olandan ölənə kimi əhatə edən hər şeyi əhatə edir: buraya ailə də, yaxın ətraf da, sosial mühit də daxildir. Yəni mühit elə bir cəmiyyəti xarakterizə edir ki, burada həmin insan doğulur, onun inkişafı və tərbiyəsi üçün şərait yaranır.

"Şəxsiyyətin formalaşması" anlayışı iki mənada işlənir. Birinci, şəxsiyyətin formalaşması onun inkişafı kimi, onun inkişaf prosesi və nəticəsi kimi. Bu mənada götürəndə şəxsiyyətin formalaşması psixoloji tədqiqatın predmeti olur, onun vəzifəsinə isə məqsədyönlü tərbiyəvi təsirlər şəraitində inkişafda olan şəxsiyyətə "nə təsir edir?" və "nə təsir edə bilər?" suallarının aydınlaşdırılması daxildir. Bu, şəxsiyyətin formalaşmasına xüsusi psixoloji yanaşmadır.

İkincisi, şəxsiyyətin formalaşması onun məqsədyönlü tərbiyəsi kimi. Bu, şəxsiyyətin formalaşmasının vəzifə və üsullarına xüsusi pedaqoji yanaşmadır. Pedaqoji yanaşma şəxsiyyətdə "nəyin?" və "necə?" "formalaşdırılması lazımdır?" suallarının aydınlaşdırılmasını nəzərdə tutur.

Tərbiyəyə ictimai hadisə kimi baxılarkən qeyd edilir ki, tərbiyə həmişə möqsədyönlü prosesdir. İnsanın inkişafına və onun şəxsiyyətinin formalaşmasına təsir göstərən müxtəlif amillərin təhlili təsdiqləyir ki, müasir cəmiyyət quruculuğu şəraitində tərbiyə bu prosesdə aparıcı rol oynayır. Burada belə bir sual mühümdür ki, tərbiyə nəticə etibarilə haraya gətirib çıxarmalıdır, yəni tərbiyənin məqsədi nədən ibarətdir? Onu kim və necə müəyyənləşdirir? Tərbiyəvi fəaliyyətin təsiri tərbiyəçinin öz işinin məqsədini nə dərəcədə dəqiq bilməsindən, bu məqsədin vacibliyini və əhəmiyyətini nə dərəcədə dərindən və tam şəkildə dərk etməsindən, onun məntiqiliyinə, səmərəliliyinə və həqiqiliyinə nə dərəcədə inanmasından, ondan tərbiyə alanların (tərbiyələndirilənlərin) onu nə dərəcədə cəlb etməsindən daha çox asılıdır (7, s.52).

Şəxsiyyətin formalaşmasında aparıcı rol ona məqsədyönlü təsir göstərilməsinə, yəni tərbiyəyə məxsusdur. Tərbiyə cəmiyyətin vəzifələrindən irəli gələn məqsədlərə uyğun olaraq şəxsiyyətin inkişafını istiqamətləndirir və təşkil edir. Bu zaman tərbiyə uşağın yalnız həyat və fəaliyyətini müəyyənləşdirilmiş qaydada təşkil

etmir, nizama salmır, həm də mövcud pedaqoji prinsiplərə uyğun olaraq konkret şəxsiyyətin imkanlarını daha yaxşı şəkildə aşkara çıxaran xüsusi sosial mühit və ya inkişaf şəraiti yaradır, insanı formalaşdırmaqla və istiqamətləndirməklə onun fəallıq göstərməsi üçün imkan yaradır. Burada şəxsiyyətin psixologiyası öz yerini şəxsiyyətin tərbiyəsi pedaqogikasına, düzgün tərbiyə metodikasına verir ki, onun da vəzifələrinə şəxsiyyətin hərtərəfli inkişafı mühitinin və yollarının aşkara çıxarılması, mənəvi idrakın formalaşdırılması, şüurlu intizamın tərbiyə edilməsi, vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin tərbiyəsi daxildir. Bu yüksək vəzifələrin həyata keçirilməsi məhz insan şəxsiyyətinin yaradılmasını təmin edir (8, s. 229).

Müasir dövrdə ictimai inkişaf qanunlarına və cəmiyyətin maddi bazisinin obyektiv inkişaf qanunauyğunluqlarına əsaslanaraq tərbiyənin əsas məqsədi kimi hərtərəfli və ahəngdar inkişaf etmiş şəxsiyyətin tərbiyəsi irəli sürülür.

Bəs şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafı nə deməkdir? Şəxsiyyətin cəmiyyətlə əlaqələrinin xarakteri, yəni konkret fəaliyyəti onun həqiqi mahiyyətini üzə çıxarmağa imkan verir. Ona görə də şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafını mövcud ictimai münasibətlərdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Ahəngdarlıq, bir tərəfdən, insanın formalaşdırılması probleminə kompleks yanaşmağı, digər tərəfdən isə əmək, sosial-siyasi və mənəvi-idraki fəallıq tələb edir. Hərtərəfli, ahəngdar inkişaf sosial həyatın əsas sahələrində qarşılıqlı surətdə bir-biri ilə bağlı olan çoxcəhətli əməli fəaliyyəti nəzərdə tutur.

Dünyanın ən görkəmli alimləri şəxsiyyətin hərtərəfli inkişafını cəmiyyətin əsas məqsədi saymışlar. Onlar "tərbiyə" anlayışına texniki təlimlə və gənclərin təcrübi-əməli fəaliyyətində iştirakla birləşdirilmiş əqli və fiziki tərbiyənin vahidliyini daxil etmişlər. Həmçinin bu zaman insanın mənəvi inkişafında, onun insani varlığının gücü olan hisslərinin formalaşmasında ədəbiyyat və incəsənətin rolunu yüksək qiymətləndirmişlər. Həqiqətən də cəmiyyətimizin inamla irəliyə doğru addımlaması, böyük məqsədlərimizin gerçəkləşməsi üçün hər bir yeni nəsil təhsilin və ümumi mədəniyyətin, peşə ixtisasının və vətəndaş fəallığının daha yüksək səviyyəsinə qalxmalıdır.

Şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafı məqsədinin həyata keçirilməsi əqli, əxlaq, əmək, bədii-estetik və fiziki tərbiyə vəzifələrinin yerinə yetirilməsini tələb edir. "Ahəngdar" sözünün mənası budur ki, ümumi tərbiyənin sadaladığımız tərkib hissələrinin



hamısı məqsədyönlü tərbiyə işində və hər bir insanın ümumi inkişafında öz əksini tapmaqla uyğunlaşdırılmış, uzlaşdırılmış vəhdətdə aparılmalıdır.

Ümumi tərbiyə məqsədinin həyata keçirilməsi – hərtərəfli inkişaf etmiş vətəndaşların, fəal cəmiyyət qurucularının hazırlanması əqli və fiziki inkişafın, yüksək ideyalılığın və əxlaqiliyin ahəngdar şəkildə birləşdirilməsini, mənəvi maraqların və gözəllik tələbatlarının formalaşdırılmasını, Vətənin rifahı naminə çalışmağa hazır olmağı nəzərdə tutur.

İnsan şəxsiyyəti vahiddir. Onu ayrı-ayrı hissələr üzrə formalaşdırmaq olmaz. Məhz buna görə də tərbiyəyə kompleks yanaşma prinsipinin vacibliyi meydana çıxır. Bu zaman özünün kompleks həllini tələb edən başlıca vəzifələr kimi ideya-siyasi, əmək və əxlaq (mənəvi) tərbiyəsi sadalanır ki, müasir dövrdə məhz bu ünsürlər tərbiyə işində mühüm yer tutur və onların qarşılıqlı təsiri zərurəti yaranır.

Tərbiyə işinə kompleks yanaşma prinsipinə həm də dialektik metodun tələblərini əks etdirən metodoloji prinsip kimi baxmaq mümkündür ki, bu zaman hadisələrin bütün əlaqələrinin və başqa hadisələrlə qarşılıqlı asılılığının öyrənilməsi zərurəti göstərilir. Kompleks yanaşma tərbiyənin məqsəd, vəzifə, məzmun, metod və təşkilati formalarının vəhdətinin təmin olunmasına yönəldilir ki, bu da tərbiyə prosesinin ümumi şəkildə planlaşdırılmasında, habelə məktəbin, məktəbdənkənar müəssisələrin, kitabxanaların, ailənin, əmək kollektivlərinin və ictimaiyyətin bütün tərbiyə bölmələrinin gənc nəslin tərbiyəsindəki fəaliyyətlərinin əlaqələndirilməsində əks oluna bilər. Onların gücünün vahid sistemdə birləşdirilməsi, tərbiyəvi təsirlərin vahid cəbhəsi yeni insan şəxsiyyətinin formalaşmasına istiqamətləndirilər.

Şəxsiyyətin formalaşması problemi kompleks xarakter daşıdığından bir çox elmlərin tədqiqat obyektinə çevrilmişdir. Konkret olaraq şəxsiyyətin hərtərəfli inkişafına bədii ədəbiyyatın və incəsənətin təsiri məsələsinin bir sıra mühüm cəhətləri həm xarici ölkələrdə, həm də Azərbaycanda müəyyən qədər işlənilmiş, bununla bağlı pedaqoqların, sosioloqların, psixoloqların, filosofların, mədəniyyətşünasların, ədəbiyyatşünasların orijinal tədqiqat əsərləri meydana gəlmişdir. Problemin ayrı-ayrı sahələrinin kitabxanaşünaslıq elmi baxımından araşdırılması da diqqətdən kənarda qalmamış, bəzi elmi məqalələrdə və dissertasiyalarda həmin mövzuya bu və ya digər dərəcədə toxunulmuşdur.

Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, kitabxana işi tarixinin görkəmli tədqiqatçısı, professor Abuzər Xələfov XX əsrin 60-cı illərindən başlayaraq "Azərbaycan kitabxana işinin tarixindən (Qədim dövrlərdən başlamış XVIII əsrin axırınadək)" adlı monoqrafiyasında, "Azərbaycan kitabxana işinin tarixindən (1870-1920)" mövzusunda namizədlik, "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" mövzusunda doktorluq dissertasiyalarında respublikamızda ilk dəfə olaraq kütləvi, uşaq, məktəb və s. kitabxanalarda bədii ədəbiyyat fordunun formalaşması, bədii əsərlərin təbliğinin oxucuların mənəvi inkişafına təsiri, görkəmli şair və yazıçıların kitab, kitabxana və mütaliə ilə bağlı fikirləri haqqında dəyərli araşdırmalar aparmış, qiymətli elmi mülahizələr irəli sürmüşdür. Alim eyni zamanda mühüm problemin ayrıca tədqiq olunmasının vacibliyini vurğulamışdır.

Biblioqraf-alim Əşrəf Xələfov "V-VIII sinif şagirdlərinin sinifdənxaric mütaliəsinə rəhbərlik" mövzusunda 1966-cı ildə müdafiə etdiyi namizədlik dissertasiyasında Azərbaycan məktəb və uşaq kitabxanalarının materiallarına və iş təcrübəsinə əsaslanaraq uşaq oxucuların mütaliə mədəniyyətinin formalaşması probleminə diqqət yetirmiş, bu prosesdə bədii ədəbiyyat nümunələrinin təbliğinin xüsusi yer tutduğunu qeyd etmişdir. O, həmçinin "Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası" adlı dərs vəsaitində və bir çox elmi məqalələrində bu mövzunu biblioqrafiya və oxucuların mütaliəsinə rəhbərlik nöqteyi-nəzərindən araşdırmışdır.

Daha sonra kitabxanaşünas-alim Rasim Kazımov "Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası" mövzusunda yazdığı namizədlik dissertasiyasında (1972) və başqa əsərlərində problemlə bağlı tədqiqat aparmış, bütövlükdə respublikamızda bu sahədə mövcud olan vəziyyəti araşdırmış və konkret elmi nəticələrə gəlmişdir.

Uşaqların və yeniyetmələrin mütaliə mədəniyyətinin tərbiyəsi məsələsinə dair bir çox elmi-tədqiqat əsərlərinin müəllifi olan kitabxanaşünas-alim Sahib Rzayev "Ömər Faiq Nemanzadənin ədəbi-publisistik fəaliyyəti" mövzusuna həsr etdiyi namizədlik dissertasiyasında (1973) gənc nəslin mütaliəsi probleminə xüsusi yer ayrılmışdır. Onun bir sıra elmi məqalələrində isə uşaqların estetik tərbiyəsində uşaq və məktəb kitabxanalarının vəzifələri tədqiqata cəlb edilmiş, inandırıcı elmi ümumiləşdirmələr aparılmışdır.

Göründüyü kimi, şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu mövzusunun hərtərəfli araşdırılması və kitabxanalarda bədii ədəbiyyatın təbliği məsələsi Azərbaycanda kompleks şəkildə



tədqiqata cəlb edilməmiş, bu sahəyə dair xüsusi namizədlik və ya doktorluq dissertasiyası yazılmamış, yalnız ayrı-ayrı elmi əsərlərdə problemin bir sıra cəhətlərinə toxunulmuşdur.

Sovetlər Birliyində, o cümlədən Rusiyada bədii ədəbiyyatın təbliği sahəsində kitabxanaların fəaliyyəti nisbətən geniş öyrənilmişdir. N.Qlaqoleva və S.Kellermanın "Bədii ədəbiyyatın təbliği" kitabçasında, L.Rumyanovanın, Y.Levinanın, L.Virolaynen və Y.Poqoreleyanın elmi məqalələrində oxucuların bədii-estetik tələbatlarının ödənilməsində kitabxanaların rolu, bədii ədəbiyyatın mütaliəsinə rəhbərliyin əhəmiyyəti və s. kimi məsələlər ön plana çəkilir.

60-90-cı illərdə Rusiyanın kütləvi kitabxanalarında bədii və incəsənət ədəbiyyatının təbliği ilə bağlı aparılan iş keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Geniş sosioloji tədqiqatlar nəticəsində bədii ədəbiyyatın, ədəbi-bədii jurnalların, ədəbiyyatşünaslığa və sənətşünaslığa dair kitabların kütləvi mütaliəsi ilə əlaqədar yeni məlumatlar əldə edilir. Sosiologiya oxucuların daha çox maraq göstərdiyi janrları və mövzuları aydınlaşdırmağa, yaşın, təhsilin və əməyin xarakterinin oxucuya təsirini öyrənməyə kömək göstərir. Bütün bu məlumatlar "Sovet oxucusu", "Kiçik şəhərlərin həyatında kitab və mütaliə", "Sovet kəndinin həyatında kitab və mütaliə" "Məktəblilərin bədii maraqlarının tədqiqi", "Mütaliə sizin həyatınızda" kimi əsərlərdə ümumiləşdirilmişdir. Bundan başqa tanınmış mütəxəssislərdən Y.Zubov, V. Stelmax, M.Samoxina, S.Trubnikov və başqaları mütaliənin psixoloji problemləri, ədəbi-bədii əsərlərin qavrayışı və dərki prosesi, bədii ədəbiyyatın oxucuları və onların tipologiyası və s. məsələlər barədə ciddi elmi-tədqiqatlar aparırlar. Lakin təəssüflə qeyd etməyi lazım bilirik ki, araşdırdığımız problem Rusiya kitabxanaşünaslığında da öz əhatəli həllini tapa bilməmişdir.

Şəxsiyyətin formalaşmasına bədii ədəbiyyatın təsirinin, eləcə də bədii ədəbiyyatın təbliğinin kitabxanalar vasitəsi ilə həyata keçirilməsi probleminin hərtərəfli tədqiqi və təhlili bu sətirlərin müəllifinin "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında)" adlı namizədlik dissertasiyası işində öz əksini tapmışdır. Müəllif uzun illərdən bəri araşdırdığı bu aktual məsələ ilə bağlı bir çox elmi məqalələr yazaraq elmi jurnallarda və məcmuələrdə nəşr etdirmişdir (9-22).

Tədqiqatın məqsədi uşaqların, yeniyetmələrin və gənclərin dünyagörüşünün zənginləşməsinə, bədii qavrayışlarının inkişafına, estetik təhsillərinin formalaşmasına, bədii-estetik zövqlərinin tərbiyəsinə bədii əsərlərin və incəsənət ədəbiyyatının təsiri imkanlarını aşkara çıxarmaqdan, bu istiqamətdə fəaliyyət göstərən kitabxa-

naların rolunu müəyyənləşdirməkdən, Azərbaycanın müstəqilliyi şəraitində milli və bəşəri mədəni sərvətlərin daha səmərəli təbliği və oxuculara daha keyfiyyətli tərbiyəvi təsir göstərilməsi üçün əlverişli üsullar axtarıb tapmaqdan ibarətdir.

Tədqiqatın vəzifələri qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı kimi müəyyənləşdirilmişdir:

-cəmiyyətdə kitabın, kitabxananın və mütaliənin əhəmiyyətinin aşkara çıxarılması;

-görkəmli şəxsiyyətlərin formalaşmasına kitabın və mütaliənən təsirinin araşdırılması;

-insanın mənəvi inkişafına bədii ədəbiyyatın təsir mexanizminin araşdırılması;

-şəxsiyyətin hərtərəfli inkişafında kitabxananın rolunun müəyyənləşdirilməsi;

-kitabxanalarda bədii ədəbiyyatın məqsədyönlü təbliğinin gənc nəslin bədii-estetik tərbiyəsinə səmərəli təsirinin əsaslandırılması;

-uşaq, gənclər və kütləvi kitabxanalarda bədii ədəbiyyatın təbliği zamanı geniş tətbiq edilən forma, metod və üsulların modelinin yaradılması;

-bədii ədəbiyyatın xüsusiyyətlərinin və mahiyyətinin açıqlanması;

-bədii əsərlərin təbliği ilə bağlı kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsi;

-oxucular arasında bədii ədəbiyyatın təbliği üsullarının təkmilləşdirilməsi üçün səmərəli əməli tövsiyələrin işlənib hazırlanması.

Tədqiqatın nəticələri müxtəlif növ kitabxanalarda gənc nəslin şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli rol oynayan bədii ədəbiyyatın təbliğinin təşkili haqqında mövcud nəzəri müddəaları tamamlayır, yeni tətbiqi tədqiqatlar üçün perspektivlər açır.

Dissertasiya işində öz əksini tapmış elmi yeniliklər bunlardan ibarətdir:

-əvvəllər kitabxanaşünas-alimlərin diqqətini o qədər də cəlb etməyən aktual problemin qoyuluşu və həlli ilə yeni kitabxanaşünaslıq tədqiqatı istiqaməti yaradılır;

-"şəxsiyyət - bədii ədəbiyyat - kitabxana" kommunikasiyasının əsas mahiyyətini təşkil edən nəzəri müddəalar elmi dövriyyəyə daxil edilir;

-bədii ədəbiyyatın və incəsənətə dair əsərlərinin təbliği zamanı kitabxanalarda tətbiq olunan forma, metod və üsulların təhlili verilir;



-bədii ədəbiyyatın və incəsənətə dair əsərlərinin kitabxanalarda səmərəli təbliğinin gənc nəslin mənəvi tərbiyəsinə müsbət təsiri göstərilir;

-bədii ədəbiyyatın oxucuları və onların tipologiyası problemi müasir tələblər baxımından araşdırılır;

-şəxsiyyətin formalaşmasına təsir göstərən bədii və incəsənət ədəbiyyatının xüsusiyyətləri aşkara çıxarılır;

-ilk dəfə olaraq bir sıra kitabxanaların bədii-estetik tərbiyə sahəsindəki fəaliyyəti geniş miqyasda tədqiq olunur və ümumiləşdirilir;

-bədii ədəbiyyatın və incəsənətin təbliği istiqamətində kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi imkanları nəzərdən keçirilir və informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq müəyyən təkliflər irəli sürülür, tövsiyələr verilir;

-tədqiqatın nəticələri bu sahədə yeni elmi axtarışlar aparmağa imkan yaradır.

Müəllifin dissertasiya işində gəldiyi əsas müddəalar bunlardan ibarətdir:

-cəmiyyətin informasiyalaşdırılması, müstəqilliyə qovuşmuş Azərbaycan Respublikasında azad və demokratik dünyəvi dövlətin yaradılması, ölkədə ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni proseslərin yeniləşməsi gənc nəslin şəxsiyyət kimi formalaşması probleminə müasir tələblər səviyyəsində yanaşma tərzi tələb edir. Bu taleyüklü prosesdə digər qurumlarla yanaşı olaraq elm, təhsil, tərbiyə, mədəniyyət və informasiya müəssisəsi kimi mühüm yer tutan, cəmiyyətdə sosial institut kimi qəbul edilən kitabxanalar da mühüm rol oynamalı, kitabın və mütaliənin əhəmiyyətini düzgün qiymətləndirməlidir;

-bədii ədəbiyyat və incəsənət şəxsiyyətin bədii-estetik tərbiyəsinin mühüm amilidir. Oxucuların bədii qavrayışının inkişafı, bədii-estetik biliklərinin formalaşması, bədii zövqünün tərbiyəsi kitabxanalarda milli və bəşəri mədəni irsin məqsədyönlü təbliği ilə sıx bağlıdır;

-bədii ədəbiyyatın və incəsənətə dair əsərlərinin təbliği ilə əlaqədar kitabxanalarda istifadə edilən müxtəlif forma və üsulların dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi, yeni kütləvi iş metodlarının yaradılması günümüzün reallığıdır;

-müasir cəmiyyətdə audiovideotexnika, televiziya, radio, kompüter, internet və s. kimi elektron informasiya vasitələrinin gənc nəslin gündəlik həyatında mühüm yer tutduğunu nəzərə almaqla kitabxanaçıların bədii ədəbiyyatın və incəsənət əsərlərinin gücün-

dən səmərəli istifadənin optimal yollarını arayıb tapması kitabxanaşünaslığın ən ümdə problemlərindəndir;

-kitabxanalarda bədii ədəbiyyat fondunun formalaşması xüsusiyyətləri günün tələblərinə cavab vermədiyindən sovet rejimi dövründə nəşr edilmiş kommunist ideyalı bir sıra çap əsərləri, həmçinin son illərdə işıq üzü görən bədii-estetik cəhətdən aşağı səviyyədə olan nəşrlər şəxsiyyətin mənəvi tərbiyəsində mənfi rol oynaya bilər;

-gələcək mütəxəssislərin nəzəri və təcrübi hazırlığını artırmaq məqsədi ilə kitabxanaçılıq fakültəsi tələbələrinə ayrıca "Kitabxanalarda bədii ədəbiyyatın təbliği metodikası" və "Kitabxanalarda incəsənət ədəbiyyatının təbliği xüsusiyyətləri" adlı ixtisas kurslarının keçilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 1999, 60 s.*
2. *"Azərbaycan" qəz., Bakı (Azərbaycan dilində), 1995, 6 iyun.*
3. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. Kitabxanaşünaslıq və biblioqrafiya, 1999, № 1, s. 3-20.*
4. *Fəlsəfənin əsasları, Bakı, Maarif, 1980, 478 s.*
5. *Əhmədov B., Rzayev A. Pedaqogikadan mühazirə konspektləri, Bakı, Maarif, 1983, 352 s.*
6. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, Maarif, 1989, 540 s.*
7. *Ильина Т.А. Педагогика: Курс лекций, Москва, Просвещение, 1984, 496 с.*
8. *Общая психология, Москва, Просвещение, 1986, 464 с.*
9. *Gənc oxucuların bədii zövqünün formalaşmasında Nizami Gəncəvi irsindən istifadə: Azərbaycan kitabxanalarının iş təcrübəsi əsasında. Azərbaycan Respublikası ali məktəbləri gənc tədqiqatçılarının XIV respublika elmi konfransının tezisləri. I hissə, Bakı, 1993, s. 155.*
10. *Böyük Azərbaycan şairi Məhəmməd Füzuli əsərlərinin gənc oxucuların mənəvi tərbiyəsinə təsiri. Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş ümumrespublika elmi konfransının materialları, Humanitar elmlər, Bakı, 1995, s.167-168.*
11. *Füzuli və kitab. Elturan (Milli məsələlər), 1997, № 1-2, s. 30-34.*
12. *Kitabxanalarda bədii ədəbiyyatın təbliği. Kitabxanaşünaslıq və biblioqrafiya, 1998, № 1, s. 81-95.*
13. *Şəxsiyyətin formalaşmasında Nizami Gəncəvi irsinin rolu. Kitabxanaşünaslıq və biblioqrafiya, 1998, № 2, s. 36-44.*
14. *Gənc oxucuların mənəvi tərbiyəsinə Şah İsmayıl Xətai irsinin təsiri. Kitabxanaşünaslıq və biblioqrafiya, 1999, № 1, s. 69-79.*
15. *Azərbaycan ədəbiyyatı klassikləri və şəxsiyyətin formalaşması problemi. Kitabxanaşünaslıq və biblioqrafiya, 1999, № 2, s. 71-81.*
16. *Sözün qədri və insanın şərəfəti: Abbasqulu ağa Bakıxanov şəxsiyyətin mənəvi tərbiyəsi haqqında. Xəzər Xəbər, 2000, № 93, s. 6-7.*





17. *Xalq yazıçısı Süleyman Rəhimovun həyat və yaradıcılığında kitab, kitabxana və mütaliə məsələləri. Kitabxanaşünaslıq və biblioqrafiya, 2000, № 1, s. 45-63.*
18. *Gənc nəslin mənəvi tərbiyəsində "Dədə Qorqud" dastanlarının rolu. Bakı Dövlət Universitetinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları, Bakı, 2000 s. 522.*
19. *Bədii ədəbiyyat və müasir cəmiyyət. - Xəzər Xəbər. - 2001, № 108, s. 34-35.*
20. *Bədii ədəbiyyatın təbliği vəziyyəti. - Xəzər Xəbər. - 2001, № 109, s. 34-35.*
21. *Estetik tərbiyə, kitab və mütaliə. - Xəzər Xəbər. - 2001, № 110, s. 30-31.*
22. *Bədii ədəbiyyatın təbliğində tövsiyə biblioqrafik və metodik vəsaitlərin rolu. Kitabxanaşünaslıq və biblioqrafiya, 2001, № 2, s. 55-65.*


***Князь Аслан***

## *Проблема формирования личности*


*Резюме*

Проеблема воспитания и развития является одной из важнейших задач общества и государства. Объектом воспитания является растующий и развивающийся человек. На протяжении всей жизни происходит процесс его развития.

Понятия «личность» в отличие от понятия «человек» обозначает социальную характеристику человека.

Развитие человека и формирование его личности есть единый, целостный процесс. В этом процессе большая роль отводится собственной активности человека, который может в значительной мере сам способствовать формированию своей личности.

*Tərlan MUXTAROV*
*Magistr*

# KİTABXANA MENECMENTİ: PROBLEMLƏR, PERSPEKTİVLƏR

Müstəqil və suveren Azərbaycan Respublikasının yaranması xalqımızın taleyində böyük tarixi hadisədir. Müstəqillik şəraitində ölkənin sosial-iqtisadi tərəqqisi, xalqın mədəni-mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin hərtərəfli inkişafı üçün böyük şərait yaranmışdır. Artıq ölkədə demokratiyanı genişləndirmək, hüquqi, dünyəvi dövlət yaratmaq üçün böyük tədbirlər həyata keçirilməyə başlanılmışdır. Bu tədbirlər içərisində dövlət quruculuğunda fəal iştirakı vacib sayılan geniş xalq kütləsinin ümummədəni və intellektual səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi, informasiya ilə təmin olunması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bu vəzifələrin yerinə yetirilməsi digər mədəniyyət, təhsil, mətbuat orqanları ilə yanaşı elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi olan kitabxanaların qarşısında da mühüm tələblər qoyur. Müstəqilliyimizin möhkəmləndiyi, sənaye və kənd təsərrüfatı sahəsində islahatların həyata keçirildiyi, bazar iqtisadiyyatına keçidin reallaşdığı bir şəraitdə kitabxanaların işinin yaxşılaşdırılması, kitab fondunun zənginləşdirilməsi, inkişaf etmiş ölkələrin kitabxanaları ilə əlaqələrin qurulması, bazar münasibətləri sistemində kitabxanaların yerinin və rolunun müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq müasir şəraitdə kitabxana işinin yeni tələblərə uyğun təşkili və idarə olunmasına ehtiyac xeyli artmışdır.

Cəmiyyətin sürətlə informasiyalaşdığı müasir şəraitdə insanların kitabxana-informasiya tələbatının ödənilməsi əhaliyə kitabxana xidmətini təşkil edən itabxana sistemləri qarşısında olduqca böyük və mürəkkəb vəzifələr qoymuşdur. Bu vəzifələrin uğurla həyata keçirilməsi kitabxana işinin elmi əsaslarla idarə edilməsini tələb edir. Məhz buna görədir ki, kitabxanaların idarə edilməsi cəmiyyətin idarə edilməsinin tərkib hissəsi kimi idarəetmə elmi ilə sıx əlaqədardır, onun elmi nəticələrindən, qanunlarından, prinsiplərindən, nəzəri müddəalarından bəhrələnir, cəmiyyətin idarə edilməsində tərtib edilən metodlardan və üsullardan istifadə edir. İdarəetmədə ən başlıca məqsəd və vəzifə cəmiyyətin obyektiv imkanlarından istifadə olunmasını təmin etməkdir. İdarəetmə əslində cəmiyyətin potensialından istifadə etməyin mühüm amilidir. O, həm də işçilərin əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır. Bu mənada kitabxana işinin idarə edilməsi – kitabxana işinə rəhbərliyin forması olub, əsas məqsədi kitabxana sərvətlərindən səmərəli istifadəni təşkil etmək və əhaliyə kitabxana xidmətini elmi və planlı əsaslarla həyata keçirməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, son illər "idarəetmə" və ya "idarə olunma" anlayışları elmi ədəbiyyatda "menecment" anlayışı ilə tamamlanır və bir sıra hallarda tamamilə "menecment" termini ilə əvəz edilir. Belə ki, "menecment" sözünün hərfi mənası da "idarəetmə" deməkdir. Lakin idarəetmə özündə əsasən rəhbərlik, inzibati idarəetmə və nəzarət funksiyalarını nəzərdə tutduğu halda, menecment idarəetmədə müasir elmi bilikləri, dünya təcrübəsinin demokratik iş üsullarını, əməyin elmi təşkilini nəzərdə tutan, bu sahədə mütərəqqi ideyaların sintezini təşkil edən konsepsiyadır. Menecment həm də dünya nəzəriyyəsi və təcrübəsində işlənib hazırlanmış prinsip, funksiya və metodların tətbiqi ilə kitabxanaların idarə olunmasının müasir konsepsiyası kimi müəyyən olunur. Kitabxananın konstruktiv idarə olunması konsepsiyası kimi menecment hər şeydən əvvəl idarəetmənin konkret və real, metod və yollarının axtarılmasına şərait yaradan seçim imkanı ilə xarakterizə olunur. Menecmentdə məqsədə effektiv nail olmaq üçün idarəetməyə bir neçə yanaşma qaydaları müəyyən olunmuşdur. Bunlar aşağıdakılardır: sistemli yanaşma, funksional yanaşma, situasiyalı yanaşma, kəmiyyətcə yanaşma və s. Kitabxana menecmentində isə əsasən üç yanaşma qaydasından istifadə olunur. Bunlar məqsədli, sistemli və situasiyalı yanaşma qaydalarıdır.

Məqsədli yanaşma strateji idarəetmənin və planlaşdırmanın əsası hesab olunur və kitabxananın idarə olunmasında konkret, dəqiq məqsədlərin seçilməsi, əsaslandırılması və reallaşdırılmasını nəzərdə tutur. Məqsədli yanaşma idarəetmənin müvəffəqiyyətliyini təmin edir. Belə ki, o, kitabxananın fəaliyyətinin oxucuların tələbatlarına uyğun istiqamətləndirilməsinə, kitabxana kollektivi əməyinin ən va-

cib məsələlərin həllində cəmləşdirilməsinə və işin qiymətləndirilməsinin obyektiv cəhətlərinin müəyyənləşdirilməsinə imkan verir.

Sistemli yanaşma kitabxananın idarə olunmasında bir çox elementlərin o cümlədən məqsəd, vəzifə, struktur, kadrlar və s.-nin mühüm amillərlə yəni büdcə, kitab təchizatı sistemi, əmək resursları, dövlət orqanları ilə qarşılıqlı əlaqələrini nəzərdə tutur.

Situasiyalı yanaşma kitabxananın fəaliyyətinə təsir göstərən əsas daxili və xarici amillərin müəyyənləşdirilməsini nəzərdə tutur. Situasiyalı yanaşmanın mahiyyəti ondan ibarətdir ki, o, hər bir kitabxananın spesifik xüsusiyyətlərini nəzərə alır. Buna görə də müxtəlif idarəetmə metodlarının yararlılığı konkret situasiya (şərait) ilə müəyyən olunur.

Ümumiyyətlə menecment idarəçilik fəaliyyəti sistemidir. Həmin fəaliyyət sistemi özünə idarəetmə prosesini, fəaliyyətin təşkilini, icraçılar arasında funksiyaların və məsuliyyətin bölüşdürülməsini, resursların (material, texnika-texnologiya, kapital, informasiya, əmək resursları) səmərəli seçimi və istifadəsini, çoxvariantlı qərarların qəbul edilməsini və bütün bunlar üçün xüsusi idarəetmə orqanlarının mövcudluğunu nəzərdə tutur.

Kitabxana menecmentində başlıca və vacib rol menecerlərə məxsusdur. Menecer – idarəedici vəzifədə çalışan və müəyyən fəaliyyət sahələri üzrə qərar qəbul etmək səlahiyyətlərinə malik şəxsdir. Sadə dildə desək menecer başqalarının əməyi, intellekti və davranış tərzindən istifadə etməklə qarşıya qoyulan məqsədə nail olmaq bacarığına malik şəxsdir. Meneceri ənənəvi kitabxana rəhbərindən fərqləndirən başlıca xüsusiyyət məhz onun professional və yenilikçi olmasıdır. Ənənəvi kitabxana rəhbəri kitabxana proseslərinin idarə olunmasını nisbətən uğurla həyata keçirən müvafiq səlahiyyətlərə malik kitabxanaçıdır. Müasir dövrdə isə bu xüsusiyyətlər kifayət deyildir. Beləki kitabxananın səmərəli idarə olunması üçün bu sahədə xüsusi biliklərlə yanaşı insanları idarə etmək bacarığı da tələb olunur. İnsanları idarə etmək bacarığı özündə kadr siyasəti, kollektiv üzvləri arasında əməkdaşlığın təmin edilməsi, təhsil, məlumatlandırma və rəhbər işinin digər vacib tərkib hissələrini əhatə edən mürəkkəb fəaliyyət sahəsidir. Hazırda kitabxananın zamanın tələbləri səviyyəsində idarə olunması üçün rəhbər qismində fəaliyyət göstərmək, əməkdaşlıq etmək, məsuliyyət daşımaq və insanları idarə etmək bacarığı kimi geniş keyfiyyət diapazonuna malik yaradıcı şəxsiyyət tələb olunur. Bütün bu xüsusiyyətləri isə məhz kitabxana meneceri özündə birləşdirir. Kitabxana menecerinin bir sıra ümumi vəzifələri, şəxsi keyfiyyətləri və ona qarşı qoyulan tələblər də vardır ki, bunlar da aşağıdakılardan ibarətdir:



Kitabxana menecerinin ümumi vəzifələri:

1. Rəhbərlik etdiyi təşkilatın, müəssisənin məqsəd və vəzifələrinin müəyyən edilməsi, fəaliyyətinin planlaşdırılması;

2. İcraçılar arasında tapşırıqların, funksiyaların bölüşdürülməsi;

3. Tabeçilikdə olan işçi heyətinin işgüzarlıq, davranış və peşəkarlıq səviyyəsinin öyrənilməsi;

4. Sənədlərlə (normativ aktlar, təlimatlar və s.) iş bacarığı;

5. Ayrı-ayrı işçilər, sosial əmək qruplarının fəaliyyətinə nəzarət, həmin fəaliyyətin qiymətləndirilməsi;

6. Ayrı-ayrı müəssisə rəhbərləri, menecerlər və əməkdaşlarla əlaqə yaratma formalarını həyata keçirmək;

7. Özünün funksional fəaliyyəti çərçivəsində əməkdaşların işini koordinasiya və təşkil etmək;

8. Əməkdaşların səmərəli fəaliyyəti üçün şəraitin təmin edilməsi, o cümlədən fəaliyyət üçün səmərəli motivləşmə sisteminin yaradılması;

9. Kitabxana resurslarından səmərəli istifadə etmək.

Kitabxana menecerinin şəxsi keyfiyyətlərinə daxildir: siyasi yetkinlik, intizamlılıq, iş qabiliyyəti, məsuliyyətlilik və vəzifə borcu hissi, təşəbbüskarlıq, inadkarlıq, kollektivlə işləmək qabiliyyəti, düşüncəlilik, mənəvi keyfiyyət (saflıq, həqiqətpərəst, sadəlik, ədalətli, insanpərvər və s.)

Kitabxana menecerinə qarşı qoyulan tələblər:

1.Fəaliyyət göstərdiyi sahə üzrə peşəkar biliyə və təcrübəyə malik olmalıdır;

2.İş fəaliyyəti ilə əlaqədar olaraq müəyyən və qeyri-müəyyən siyuasiyalarda əsaslandırılmış qərarlar qəbul etməyi bacarmalıdır;

3.Bütövlükdə idarəçilik əməyinin xarakteri, prinsipləri və məzmununu bilməlidir;

4.İşçi heyətini, insan resurslarını yüksək səviyyədə idarə etmək bacarığına malik olmalıdır;

5.Öz fəaliyyətinə qiymət verməyi, öz-özünü idarə etməyi bacarmalıdır;

6.Öz fikir və mühakiməsini dəqiqi ifadə etməyi bacarmalıdır.

Beləliklə, kitabxana menecmenti kitabxana işinin idarə olunmasında prinsipcə yeni fikirlərin inkişafı üçün geniş imkanlar açır, kitabxana iqtisadiyyatının yeni elmi əsaslar, iqtisadi qanunlar üzərində qurulmasını təmin edir. Həmçinin idarəetmənin optimal təşkilati quruluşunun yaradılmasına, xarici aləmdə baş verən, dinamik olaraq dəyişən hadisələrin istiqamətləndirilməsinə və perspektiv inkişaf proqramlasrının formalaşmasına yaxından kömək edir.

## ƏDƏBİYYAT


*1. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: III hissə. – B.: BDU, 2003. – 314 s.*

*2. Quliyev T.Ə. Menecmentin (idarəetmənin əsasları): Dərslik. – B.: Nağıl evi, 2001. – 520s.*

*3. İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya. – B.: BDU, 2000. – 416 s.*

*4. Библиотечный менеджмент: Дидиактическое пособие /Под общ. ред.: В.К.Клюева и И.М.Сусловой. – М.: Профиздат, 2001 – 208 с.*

*5. Суслова И.М. Десятилетие менеджмечта и маркетинга в теории и практике библиотек: Полимические размышления //Научные и технические библиотек. – 1996. – № 7. – С.3-13.*


**_Мухтаров Т._**

**_Библиотечный менеджмент: проблемы и перспективы_**


*Резюме*

В данной статье отражена новая концепция управления библиотечным делом. Современное время это концепция называется «библиотечный менеджмент» которая предусматривает новые методы, функции и принципы управленя.

В библиотечном менеджменте ключевой фигурой является менеджер, способный внедрить новые методы управления.

В статье также отражены обязанности, личные качества менеджера и требовании к нему, которые играют не маловажную роль в управлении библиотекой.

**Zöhrab ƏLİYEV**
*Professor*

# AZƏRBAYCANDA BİBLİOQRAFİK FƏALİYYƏTİN BƏZİ TƏŞKİLİ MƏSƏLƏLƏRİ

## *(Tarixi xülasə)*

Azərbaycan respublikasının yenidən öz müstəqilliyini əldə etməsi tariximizdə çox əlamətdar hadisədir. İndi respublikamız dünyanın müstəqil dövlətlərindən biri kimi möhkəmlənməsi, iqtisadi, elmi və mədəni cəhətdən inkişaf etdirilməsi sahəsində mühüm addımlar atılır, uğurlu nəticələr əldə edilir və bütün sahələrdə beynəlxalq əlaqələr genişlənir və daha da möhkəmlənir. İstər siyasi və istərsə də sosial-iqtisadi istiqamətlərdə müstəqilliyimizin və həmçinin dünyəvi tələbatlara cavab verə biləcək nailiyyətlərin əldə olunmasında əsas şərtlərdən biri cəmiyyətin bütövlükdə və onun ayrı-ayrı üzvlərinin hər cəhətli informasiyaya malik olmasıdır. İnformasiyasız heç nəyə nail olmaq mümkün deyil. Müasir cəmiyyətin informasiyalı cəmiyyət adlandırılması bunu sübut edir. İnformasiyalaşma cəmiyyətin həyatında getdikcə daha mühüm əhəmiyyət kəsb edir. İndiki əsr informatika əsri adlanması da təsadüfi deyil.

Bəşəriyyət həmişə müxtəlif informasiyanı toplamaqla, mənalandırmaqla, işləməklə, mühafizə etməklə və yaymaqla məşğul olub. İnsan özü, onun genetik kodu informasiya daşımaqdan və eyni zamanda onu mühafizə etməkdən ibarətdir (1,s.6).

"İnformasiya" anlayışı haqqında müxtəlif mülahizələr var. Bunlardan əsas kimi onu qeyd etmək lazımdır ki, informasiya dedikdə bizi əhatə edən mühit haqqında hər cür məlumat, müşahidə nəticələri nəzərdə tutulur. Buraya şəxslər, müxtəlif əşyalar, faktlar,

hadisələr, proseslər, canlı və cansız təbiət haqqında olan məlumatlar da daxildir. İnformasiyanın tərkibi haqqında bu qısa qeydlər onun cəmiyyət üçün nə qədər vacib və faydalı olduğunu təsdiq edir.

İnformasiyanın formalaşdırılması və ehtiyacı olanlara çatdırılması vasitələri onun təsbit olunduğu mənbələrdir. Deməli informasiya kommunikasiyaları sistemi cəmiyyətin informasiyalaşdırılmasında əsas amildir. Bu sistemin alt sistemlərindən biri isə sənəd kommunikasiyaları sistemidir. Bu sistemin bir tərəfində sənədlər - digər tərəfində isə informasiyalaşmağa çalışan insanlar durur. Onun optimal inkişafı insanın səciyyəvi fəaliyyət sahəsindən olan sosial kommunikasiyalar vasitəsilə təmin olunur. Sosial kommunikasiyalar dedikdə isə birinci növbədə kitabxanalar və biblioqrafik fəaliyyət nəzərdə tutulur. Ona görə də cəmiyyətin informasiyalaşdırılmasının köməkçi vasitəçisi olan kitabxanaların və biblioqrafik fəaliyyətin səciyyəvi xüsusiyyətlərini və inkişafı qanunauyğunluqlarını dərindən bilmək, aydın təsəvvür etmək lazım gəlir (2,s.152-153). Burada əsas etibarilə sosial kommunikasiyanın mühüm tərkib hissəsi kimi qeyd olunan biblioqrafik fəaliyyətdən bəhs olunacaq. Lakin onu da nəzərə alsaq ki, biblioqrafik fəaliyyətin hərəkətverici mərkəzlərindən biri elə sosial kommunikasiyaların başqa mühüm tərkib hissəsi kitabxanalardır, onda kitabxana biblioqrafiyası diqqət mərkəzində olacaqdır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda deyildiyi kimi, "Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssiəsi kimi çap əsərlərinə və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut"dur (3,s.3).

Təbiidir ki, kitabxanaların ictimai istifadəsini təşkil etdiyi informasiya daşıyıcıları silsiləsində biblioqrafik informasiya mənbələrində mühüm yer tutur və biblioqrafik xidmət prosesində həmin materiallar, həmçinin kataloq və kartoteka sistemi böyük əhəmiyyət kəsb edir. Eyni zamanda kitabxanalar biblioqrafik informasiya sənədlərinin işlənməsində və yayılmasında böyük rol oynayan əsas müəssisələrdəndir. Qanunda təsbit edildiyi kimi onlar "Kompleks kitabxana, biblioqrafiya və informasiya xidməti göstərir" (1,s.11).

Sənədlə informasiya istifadəçiləri arasında vasitəçilik funksiyasını yerinə yetirən biblioqrafik fəaliyyətin müxtəlif məzmunlu, məqsəd və oxucu yönümlü və həmçinin çox formalı məhsulu cəmiyyətin informasiyalaşdırılmasında özünün səciyyəvi təsir yolu ilə yaxından iştirak edir. Sual oluna bilər ki, biblioqrafiyanın cəmiyyətin informasiyalaşdırılmasında iştirakı və rolu nə ilə bağlıdır? Bu özünü informasiyalaşdırma prosesinin hansı anında göstərir? Məlumdur ki, insanlar öz fəaliyyətlərinin ayrı-ayrı sahələrində müvafiq məqsədlərlə, ehtiyac duyduğu informasiyanı müxtəlif yollarla və vasitələrlə ala bilərlər. Bunlardan biri sosial informasiyanın qeydə alınmış maddi daşıyıcısı olan çap əsərləri və digər sənəd formalarıdır. Sənədlər insanların informasiya axtarışı fəaliyyətlərinin son anında müraciət etdikləri ən mühüm ilkin informasiya mənbələridir. İnformasiya istifadəçisi maraqlandığı hər hansı informasiyaya dair sənədlərə müraciət etmək məcburiyyətində qalanda başqa bir problemlə qarşılaşır. Hansı ədəbiyyat və digər sənədlər mövcuddur, onları necə müəyyənləşdirmək və harada əldə etmək olar? Bu zaman o, biblioqrafik informasiya mənbələrinə müraciət etmək zərurətilə qarşılaşır. Çünki biblioqrafik informasiyanın ibtidai özəyi olan biblioqrafik yazı, onun əsas tərkib hissəsi hesab edilən biblioqrafik təsvir sənədin eyniləşdirilməsini (standartlaşdırılmasını) təmin edir və onun harada olmasından asılı olmayaraq axtarışını asanlaşdırır. Sənəd kommunikasiyaları sistemində vasitəçilik edən sosial institutlardan yalnız biblioqrafik informasiya belə bir axtarış keyfiyyətinə malikdir (4,s.125-120). Beləliklə, cəmiyyət üzvləri informasiyalaşmaq üçün lazım olan sənədlərin axtarışında uğurlu nəticələrə biblioqrafik informasiya vasitəsilə nail ola bilərlər. Beləliklə, sənəd axınının izlənilməsində, indiyə qədər toplanmış çox zəngin sənəd toplusunda düzgün istiqamətlənməkdə və bununla da öz informasiyalaşmana proseslərini səmərəli həyata keçirməkdə cəmiyyət üzvlərinin əsaslandıqları etibarlı baza biblioqrafik informasiya ehtiyatlarıdır.

Biblioqrafik informasiya vəsaitlərinin yaradılması və tələbatçılara çatdırılmasını həyata keçirən biblioqrafik fəaliyyətin Azərbaycanda inkişafı haqqında xeyli tədqiqatlar aparılıb və onların bəzi mühüm nəticələri dərc olunub ( 3, 6, 7). Burada isə Azərbaycan Respublikasında biblioqrafik fəaliyyətin təşkili ilə əlaqədar bəzi səciyyəvi cəhətlərin müəyyənləşdirilməsi və onların ümumiləşmiş şərhinin verilməsi məqsədi qarşıya qoyulmuşdur.

Azərbaycan milli biblioqrafiyası çox mürəkkəb, müəyyən qədər ziddiyyətli bir inkişaf yolu keçmişdir. Bu inkişafın ayrı-ayrı mərhələlərində biblioqrafik işin ümumi təşkili məsələlərinin özünə-

məxsusluğu var ki, bu da əlaqədar mərhələlərdə meydana gələn biblioqrafik hadisələrdə öz izini buraxmış olur.

Azərbaycanda biblioqrafik işin inkişafı tarixində ilk mərhələ kimi 1920-ci ilə qədər olan dövrü qeyd etmək olar. Bu dövr özü də biri-birindən fərqlənən iki əsas mərhələ ilə səciyyələnir. Birinci mərhələ milli biblioqrafiyamızın tarixi ilə qismən də olsa biblioqrafik xarakterli ümumi, elm, mədəniyyət, ədəbiyyat tariximizin öyrənilməsində əsaslanılan qaynaqlarla daxil olmuşdur. Bu mərhələyə xas olan səciyyəvi xüsusiyyət əsas etibarilə onunla bağlıdır ki, bu dövrə məxsus ilkin biblioqrafik mənbələrin, o cümlədən təzkirələrin yaradılmasına yönəldilən, onların daxili quruluşunun qarşılıqlı əlaqəsini təmin edən, tərtibat qaydasını, təkminləşməsini nizamlayan xüsusi təşkilati bir qurum yox idi. Belə mənbələrin yaradılması heç bir proqramla, planla, həmçinin konkret məqsədlə, oxucu istiqamətilə tənzimlənmirdi. Bir sözlə onlar ayrı-ayrı görkəmli elm və mədəniyyət xadimlərinin şəxsi vətənpərvərlik hisslərinin təsirilə yaranan və son nəticədə indi də vətənimizin tarixi keçmişinin araşdırılmasında müraciət edilən olduqca qiymətli mənbələrdir. Məşhur akademik Ziya Bunyadov və başqaları bu yazı janrlarını ən mühüm biblioqrafik mənbə adlandırmaqda tamamilə haqlıdırlar (2,6,9).

Nəzərdə tutulan birinci dövrün ikinci mərhələsi əvvəlkindən bir qədər fərqlənir. Əsas fərq ondan ibarətdir ki, biblioqrafik informasiya mənbələrinin yaradılmasında tanınmış elm və mədəniyyət xadimlərilə yanaşı sənəd kommunikasiyaları sistemində xüsusi yeri olan kitabxanaların da müəyyən dərəcədə iştirakı və ya heç olmazsa əlaqəsi özünü göstərir. Bu mərhələdə sırf biblioqrafik xarakterli informasiya mən-bələri meydana gəlir və onların bir qismi bilavasitə XIX əsrin II yarısında və XX əsrin əvvəllərində fəaliyyət göstərən müxtəlif yönümlü kitabxanaların fondları ilə əlaqədardır. XX əsrin əvvəllərində Azərbaycan milli biblioqrafiyasında yeni bir istiqamət baş verir ki, bu da nəşriyyat və kitab ticarəti biblioqrafiyasıdır. Bunlar isə sənəd kommunikasiyaları sisteminin kitab nəşri və kitab ticarəti ilə məşğul olan başqa sosial institutların - nəşriyyatların, kitab ticarəti müəssisələrinin adı ilə bağlıdır (10,11,12).

Yuxarıda deyilənləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, ilk dövrün ikinci mərhələsində Azərbaycanda biblioqrafik fəaliyyətin məqsədyönlü istiqamətdə inkişafına təsir göstərən təşkilati-nizamlayıcı idarəetmədə müəyyən irəliləyiş olmuşdur. Lakin bununla belə bir sıra dövrünə görə mühüm biblioqrafik mənbələr yenə



ayrı-ayrı adamların adı ilə bağlıdır, bir növ onların şəxsi təşəbbüslərinin (bəzən məqsədli) nəticəsidir. Bunlardan Rusiyanın mətbuat üzrə Bakı şəhərindəki canişini Q.A.Boqoslovskinin tərtib etdiyi və üç buraxılışda (1907,1908,1909) çap olunmuş "Bakı mətbuatı" ("Бакинская печать"), Rus imperator texniki cəmiyyətinin Bakı şöbəsinin elmi əsərlərinə (1886-1904) (1904) (tərtib edəni Y.M.Pitirski), "Neft işi" ("Нефтяное дело") jurnalına həsr olunmuş və iki buraxılışda (1908,1910) çap olunmuş biblioqrafik göstəriciləri qeyd etmək olar.

Azərbaycan milli biblioqrafiyasının inkişafında ən mühüm mərhələni keçmiş sovet dövrü təşkil edir. Biblioqrafik işin təşkili, idarə olunması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu dövrün fərqli məqamları var və onların Azərbaycanda da biblioqrafik işin idarə olunmasındakı dərin təsiri özünü qabarıq şəkildə göstərmişdir. SSRİ məkanında və o cümlədən Azərbaycanda biblioqrafik işin inkişafında ilkin mərhələ 1920-1945-ci illərə təsadüf edir. Bu zaman ərzində biblioqrafik fəaliyyətdə əvvəllərdən fərqli olaraq xüsusi idarəetmə müəssisələrinin yaradılmasında sistemlilik özünü göstərir. Bu həm bütövlükdə sovet məkanında, həm də bilavasitə Azərbaycanda biblioqrafik fəaliyyətin bir sistem halında qarşılıqlı əlaqədə inkişafına, bəzi biblioqrafik nəşrlərin konkret məqsədə yönəldilməsinə xeyli təsir göstərə bilir. Bunu hər şeydən əvvəl o vaxtlar "uçot-qeyd" biblioqrafiyası adlanan dövlət biblioqrafiyası orqanlarına aid etmək olar. Beləki, 1925-ci ildə Azərbaycanda bilavasitə biblioqrafik (məhdud çərçivədə) mərkəz olan Kitab palatasının əsası qoyulur. Azərbaycan Dövlət Kitab Palatası dövlət biblioqrafiyası sahəsində nəinki Azərbaycanda biblioqrafik informasiya mənbələrinin yaradılmasını, nəşrini və yayılmasını tənzimləyir, mütəşəkkilləşdirir, qismən də olsa metodiki məsələləri işləyir, həm də SSRİ məkanında biblioqrafik fəaliyyətin əsasən bu bölməsində qarşılıqlı əlaqə yaradır, biblioqrafik informasiya mübadiləsi aparılmasında iştirak edir. 1924-cü ildən keçirilən və SSRİ-nin dağılmasına qədər ardıcıl olaraq davam etdirilən kitab palataları direktorlarının müşavirəsi dövlət biblioqrafiyasının inkişafında, onun metodik problemlərinin həllində qarşılıqlı əlaqənin yaradılmasında mühüm vasitə idi.

Bununla belə Azərbaycanda biblioqrafik fəaliyyətin digər sahələrinin təşkilində bu cür təşkilati-idarəetmə sisteminin formalaşdığını demək olmaz. Biblioqrafik fəaliyyətin xüsusi bölümündə, o

cümlədən elmi-köməkçi və tövsiyə biblioqrafiyası sahəsində müəyyən proqram və məqsədə malik sistem yox dərəcəsində idi. Onların təşkilində və inkişafında təsadüfilik, yarımçıqlıq özünü göstərməkdə davam edirdi. Hansısa təşkilat tərəfindən (Məs., AHİŞ mədəniyyət şöbəsi) başlanan biblioqrafik iş (Məs., "Mülahizəli kataloq", 1929) axıra çatdırılmırdı. Kitabxanalar, xüsusən mühüm kitabxanaların biblioqrafik informasiya mənbələrinin yaradılması və onların oxuculara çatdırılması sahəsində səviyyəli fəaliyyət göstərməmələri aydın hiss olunurdu. Doğrudur, XX əsrin 20-30-cu illəri bir sıra əhəmiyyətli, həm də məqsədyönlü biblioqrafik mənbələrin meydana gəlməsilə səciyyəvidir. Lakin bunlar əsasən tanınmış elm adamlarının şəxsi təşəbbüslərilə yaradılmışdır.

Görünür bu adamlar ayrı-ayrı sahələrdə cəmiyyət üzvlərinin informasiyalaşdırılmasında biblioqrafiyanın rolunu yaxından dərk edirdilər. XX əsrin 20-30-cu illərində belə tanınmış şəxslərdən ədəbiyyatşünas və biblioqraf A.Baqrini və Azərbaycanın məşhur tibb alimi və təbibi M.E.Əfəndiyevi xüsusilə qeyd etmək olar. M.E.Əfəndiyev 30-cu illərdə təbabətə dair üç adda biblioqrafik məlumat vəsaiti çap etdirmişdir (1932, 1936, 1940). Bu, bir tibb elmi mütəxəssisinin təbabət işçilərinin öz təcrübələrində dövrün aktual problemləri üzrə biblioqrafik informasiyaya nə qədər böyük ehtiyacı olduğunu yaxından hiss etməsini göstərən nümunəvi faktdır.

XX əsrin 20-30-cu illərində respublikamızda biblioqrafik fəaliyyətin təşkili məsələlərindən bəhs edərkən bir səciyyəvi cəhəti də qeyd etmək vacibdir. O da kitab nəşri və kitab ticarəti biblioqrafiyası ilə əlaqədardır. Belə ki, həmin zaman kəsiyində fəaliyyət göstərən nəşriyyatlar çap etdirdikləri kitabların yayılmasında biblioqrafiyanın da mühüm vasitə olduğunu nəzərə alaraq müxtəlif məqsədli biblioqrafik vəsaitlər (kataloqlar, məlumat bülletenləri) çap etdirməyə başlayırlar. Azərbaycan Dövlət Nəşriyyatının 1924-cü ildən buraxdığı kataloqları, bülletenləri, Azərbaycan Firqə nəşriyyatının 1935-ci ildə çıxmış kitablara dair kataloqunu (1936) və bir çox başqalarını göstərmək olar. Beləliklə, biblioqrafik fəaliyyətlə bilavasitə məşğul olan yeni sosial kommunikasiya mərkəzləri bu sahənin təşkilati qurumunda öz mövqelərini möhkəmləndirirlər. Bunlar sənəd kommunikasiyaları sistemində özünə məxsus vasitəçilik funksiyası olan nəşriyyat müəssisələridir.

Haqqında bəhs olunan dövrdə sovet məkanında, o cümlədən Azərbaycanda biblioqrafik işin təşkilində və inkişafında mühüm



hadisə MK-nin "Ədəbi tənqid və biblioqrafiya haqqında" (1948) qərarı olur. Həmin qərar xüsusilə tövsiyə biblioqrafiyasının ideoloji inkişaf istiqamətini müəyyənləşdirir və bəzi təşkilati məsələləri həll edir. Lakin qərarın əsas müddəalarının həyata keçirilməsi müharibədən sonra mümkün olur. Bü qərarı əldə rəhbər tutan (başqa cürə ola da bilməzdi) ən mühüm kitabxanalar, Azərbaycanda M.F.Axundov adına Respublika Dövlət Kitabxanası biblioqrafik fəaliyyətini genişləndirir və xüsusilə tövsiyə biblioqrafiyasının həm təcrübi, həm də metodik mərkəzinə çevrilir.

Müharibədən sonra Azərbaycanda da biblioqrafik işin təşkilinə və inkişafı istiqamətinin müəyyənləşdirilməsində əhəmiyyətli olan bəzi tədbirlər həyata keçirilir. Respublika kitabxana işçilərinin 1948 və 1953-cü illərdə keçirilən müşavirələrində tövsiyə biblioqrafiyası geniş müzakirə obyekti olmuşdur (3,s.48-49).

Müharibə illərində nəşriyyatçılıq fəaliyyətini dayandırmaq məcburiyyətində qalan Respublika Dövlət Kitab Palatası da 1947-ci ildən nəşrlərini bərpa etməklə Azərbaycanda ümumi biblioqrafiyanın mərkəzi kimi öz funksiyasını mütəşəkkil şəkildə həyata keçirməyə nail olur (3,s.9-12).

XX əsrin 60-cı illərindən Azərbaycanda biblioqrafik fəaliyyətin təşkilində və gedişində istiqamətverici rəsmi sənədlər Sov.İKP MK-nin "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" (1959), "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında"(1974), SSRİ Nazirlər Sovetinin "Elmi-texniki məlumatın ümumdövlət sistemi haqqında" 29 noyabr 1966-cı il tarixlii qərarları və başqaları olmuşdur. Bu qərarlardan irəli gələn vəzifələr həm ittifaq miqyasında, həm də Azərbaycanda biblioqrafik işin təşkilində əsas götürülür.

Qeyd etmək lazımdır ki, Azərbaycanda biblioqrafik işin təşkilində sistemlilik məhz 60-cı illərdən baş verir. Azərbaycan Dövlət Kitab Palatası, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası ilə bərabər Respublikanın başqa mühüm kitabxanaları, o cümlədən Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanası, F.B.Köçərli adına Azərbaycan Respublika Uşaq Kitabxanası, xüsusi elmi-texniki kitabxanalar profillərinə uyğun biblioqrafiyalaşdırma və biblioqrafik xidmət işləri aparmaqla məşğul olurlar. Beləliklə biblioqrafik fəaliyyətin ictimai yönümünə görə fərqlənən sahələri üzrə biblioqrafik fəaliyyət mərkəzləri formalaşır. Məs., ümumi

biblioqrafiyanın ixtisaslaşmış mərkəzi mövqeyi yenə Kitab Palatasına məxsus olaraq qalır və bununla bərabər M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası həmin sahədə müəyyən addımlar atırlar. Xüsusi biblioqrafiyanın mühüm növü olan elmi-köməkçi biblioqrafiyanın mərkəzləri silsiləsində isə xüsusi elmi-texniki kitabxanalar,o cümlədən Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi-Tibbi Kitabxanası, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası, qismən ali məktəb kitabxanaları özlərinə məxsus yer tuturlar.

Keçmiş sovet məkanında nəzərdə tutulan mərhələdə ümumi və xüsusi biblioqrafiyanı idarə edən mühüm təşkilati quruluş meydana gəlir. Bu Dövlət Elmi və Texniki İnformasiya sistemi idi. Bunun başlıca vəzifəsi elmin, texnikanın, istehsalın və idarəetmənin bütün sahələrinin alim və mütəxəssislərinə hərtərəfli informasiya xidməti göstərilməsini təmin etməkdən ibarət idi. Təşkilati baxımdan o dövrdə ölkədə xalq təsərrüfatının idarəetmə sisteminə uyğun gələn DETİS öz mürəkkəbliyi ilə fərqlənirdi (14,s.159).

Dövlət Elmi və Texniki İnformasiya sisteminin (DETİS) biblioqrafik funksiyanın yerinə yetirilməsini təmin edən müəssisələr sisteminin tərkibi də Kitab Palatasından (o cümlədən Azərbaycan Dövlət Kitab Palatasından), universal elmi kitabxanalardan və xüsusi elmi-texniki kitabxanalardan ibarət idi. Bu müəssisələr universallığına, çoxsahəliliyinə və sahəviliyinə görə fərqləndirilirdi. Məs., Azərbaycan Respublika Dövlət Kitab Palatası universal, AMEA-nın Mərkəzi Elmi Kitabxanası çoxsahəli, xüsusi elmi kitabxanalar isə sahəvi müəssisələr hesab edilirdi və onların biblioqrafik nəşrləri profillərinə uyğun gəlirdi. Haqqında bəhs olunan DETİS-nin təsiri sovet quruluşu dağılana qədər Azərbaycanda da güclü olmuşdur.

XX əsrin 80-ci illərində Azərbaycanda biblioqrafik işin təşkilindən və inkişafından bəhs edərkən bilavasitə təşkilati məsələlərin həlli ilə əlaqədar olan bir rəsmi sənədi də yada salmaq lazım gəlir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 13 mart 1984-cü il fərmanı ilə "SSRİ-də kitabxana işi haqqında Əsasnamə" təsdiq olunur. Bu əsasnamədən sonra biblioqrafik işin əsas aspektlərini dövrə müvafiq olaraq müəyyənləşdirən sənədin də hazırlanmasını zəruriləşdirir və konkret addım da atılır. Belə ki, 1987-ci il may ayının 18-də SSRİ Mədəniyyət Nazirliyinin yanında fəaliyyət göstərən Dövlət idarələrarası kitabxana komissiyası tərəfindən



"SSRİ-də kitabxanaların biblioqrafik işi haqqında Əsasnamə" təsdiq edilir(15, s.32-40). Əsas hissədən və dörd əlavədən ibarət olan bu sənəd kitabxanalarda biblioqrafik işin bütün aspektlərini nizamlamaq funksiyasını yerinə yetirirdi.

Bu sənəddə bütün kitabxanalarda - onların böyüklüyündən, kiçikliyindən asılı olmayaraq - biblioqrafiyadan istifadə olunduğu, biblioqrafiyalaşdırma və biblioqrafik xidmət işinin həyata keçirildiyi bir daha qeyd olunur, ümumiyyətlə kitabxananın biblioqrafik sahədə əsas vəzifələri konkretləşdirilir. Sənədin maddələrindən birində (2,3) kitabxana biblioqrafiyasının dörd istiqaməti fərqləndirilirdi: birincisi planlaşdırma ilə əlaqədar idi. Qeyd olunurdu ki, planlaşdırma zamanı müttəfiq və muxtar respublika kitabxanalarının xidmət göstərdiyi yerli şərait nəzərə alınmalıdır. İkinci biblioqrafik işə mərkəzləşmiş qaydada rəhbərlik məsələsi idi. Biblioqrafik işin əlaqələndirilməsi Dövlət İdarələrarası Kitabxana Komissiyasına həvalə olunurdu. Onun işçi orqanı isə Ümumittifaq Kitabxana Şurasının biblioqrafiya işi üzrə bölməsi hesab edilirdi. Analoji idarəetmə təşkilatı Azərbaycanda da mövcud idi və kitabxanalarda biblioqrafik işin müvafiq əsasnaməsinin yaradılmasına da təşəbbüs göstərilmişdir.

Respublika İdarələrarası Kitabxana Komissiyası yanında Kitabxana Şurasının biblioqrafik iş üzrə bölməsi görülən işlər barədə mərkəzə hesabat verməli olurdu. Axırıncı belə hesabat 1980-ci il yanvar ayının 18-də verilmişdir və bu hesabat bilavasitə kitabxanaların biblioqrafik işi ilə əlaqədar olmuşdur. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, 1987 və 1989-cu illərdə keçirilən respublika kitabxana işçilərinin müşavirələrində də kitabxanalarda biblioqrafik iş aktual müzakirə obyekti olmuşdur.

Kitabxanaların biblioqrafik işlərinin təşkilində üçüncü istiqamət (bənd 2.3.3) həmin işin vahid təşkilati və metodiki müddəalarını işləməklə onun əlaqələndirilməsi və kooperasiyası ilə bağlı idi. Bu isə normativ və metodiki sənədlərlə təmin oluna bilərdi. Kitabxanaların biblioqrafik işlərinin idarələrarası əlaqələndirilməsində M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Respublikanın universal və sahəvi elmi-texniki kitabxanaları mühüm rol oynamalı idi. Əlaqələndirmə işində ən mühüm problemlərdən biri biblioqrafik ehtiyatlardan səmərəli istifadə olunmasının optimal yolunun müəyyənləşdirilməsindən ibarət idi.

Dördüncü mühüm istiqamət biblioqrafik informasiya vəsaitlərinin hazırlanması və nəşri ilə bağlı idi. Biblioqrafik vəsaitlərin mövzu seçimində və onların nəşrlərinin planlaşdırılmasında əsas amillərdən biri yerli şəraitin, oxucu tələbatlarının nəzərə alınması idi. Lakin bunların seçimində dövrün bir səciyyəvi təsirindən azad olmaq mümkün deyildi. O da hakimi mütləq olan Kommunist partiyalılığı prinsipi idi. Bunun da bütün sahələrdə, o cümlədən biblioqrafik fəaliyyətdə milli ənənələrimizə nə qədər böyük zərər vurduğu bəllidir.

XX əsrin 70-ci illərinin ortalarından etibarən kitabxanalarda biblioqrafik işin təşkilində nəzərə çarpan fərqli xüsusiyyətlərdən biri mərkəzləşmiş kitabxana sisteminin yaranmasından irəli gəlir. Məlumdur ki, 1975-ci ildən başlayaraq respublikanın rayon kitabxanaları mərkəzləşdirilmişdir (4,s.3-24;5,s.210-218). Bu həmin sistemdə biblioqrafik işin təşkilinə öz təsirini göstərir. Əvvəla, bütün rayon mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS) mərkəzi kitabxanalarında biblioqrafiya və ya metodiki-biblioqrafiya şöbəsi təşkil olunur və onlara azı bir biblioqraf ştatı verilir. Mərkəzləşməyə qədər rayon mərkəzi kitabxanalarında belə şöbə və xüsusi biblioqraf ştatı yox idi. İkincisi, MKS-lərdə biblioqrafik iş, onların soraq-biblioqrafiya aparatı iki pilləli xarakter alır. Birinci pillədə mərkəzi kitabxananın, ikinci pillədə filial kitabxanaların biblioqrafik işi və soraq-biblioqrafiya aparatı durur. Filial kitabxanaların biblioqrafik fəaliyyətinə metodik rəhbərlik bilavasitə mərkəzi kitabxana tərəfindən həyata keçirilir.

Nəzərdə tutulan dövrdə də elmin müxtəlif sahələrinin biblioqrafik işlə məşğul olduqlarının, onların tərəfindən əsaslı biblioqrafik informasiya mənbələrinin yaradılmasının şahidi oluruq. Bunlardan akademik Gülü (Xəzər dənizi haqqında), filologiya elmləri doktoru N.Axundovu (dövri mətbuatımıza dair), H.Babayevi (ədəbi əlaqələrlə bağlı), tarix elmləri namizədi N.M.Quliyevi (Azərbaycan tarixinə dair) və başqalarını göstərmək olar. Deməli, biblioqrafik fəaliyyətdə peşəkarlıq və qeyri-peşəkarlıq davam edir.

SSRİ-nin dağılması və 1991-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının yenidən öz müstəqilliyini əldə etməsi ölkədə kitabxana işinin və biblioqrafik fəaliyyətin təşkilində, inkişafında yeni dövrün baş-lanmasına səbəb olur. İctimai quruluşun dəyişməsi, milli ənənələrimizə qayıdış sənədinformasiya sisteminə də öz təsirini göstərir, sənəd fondunda keyfiyyətli dəyişikliyin aparılma-



sını və fondun yeni, milli və dünya mənəvi dəyərləri obyektiv, real faktlarla işıqlandıran sənədlərlə zənginləşdirilməsini zəruriləşdirir. Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, açıq bazar iqtisadiyyatı yoluna keçməsi cəmiyyət üzvlərinin şüurunda da böyük dəyişikliyə və bununla onların informasiya tələbatlarında yeni istiqamətlərin yaranmasına və formalaşmasına səbəb olur. Təbiidir ki, bütün bunlar biblioqrafik fəaliyyətin də qarşısında yeni,, daha mürəkkəb vəzifələr qoyur. Birinci ümumi vəzifə sənəd informasiyasının təşkilinə və həyata keçirilməsinə tamamilə yeni mövqedən yanaşmaq, xalqımızın beynəlxalq standartlara cavab vermək səviyyədə informasiyalaşdırılmasına təsir göstərə bilən mütərəqqi yolları müəyyənləşdirmək, yeni informasiya texnologiyasından hərtərəfli istifadə etməyə nail olmaq lazım gəlir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra milli biblioqrafiyanın təşkilati mənsubiyyətində və inkişafında bəzi yeni xüsusiyyətlər və istiqamətlər özünü göstərir. Bəzi obyektiv və subyektiv səbəblər üzündən keçid dövrünü hələ də başa vurmayan respublikamızda biblioqrafik fəaliyyətdə milli və bəşəri mənəvi dəyərlərə əsaslanan müəyyən müsbət nəticələrlə yanaşı, çox ciddi çatışmazlıqlar da özünü göstərməkdədi. Bu, başlıca olaraq beynəlxalq biblioqrafik informasiya əlaqələrinin zəifləməsi ilə əlaqədardır. Məs., Keçmiş (ÜETİİ) Ümumittifaq Elmi və Texniki İnformasiya İnstitutunun buraxdığı, 130 ölkənin 66 dildə çıxan elmi ədəbiyyatını əhatə edən (14,s.162) referativ jurnalları ölkəmizin mühüm kitabxanaları və başqa informasiya orqanları tərəfindən alınmaması elmi-tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik informasiya təminatına böyük zərər vurur. Görünür kitab-xanalarımızın yeni informasiya texnologiyası ilə təchizatı və bunun sayəsində onların internetə qoşulmaları bu informasiya məhdudiyyətini aradan qaldıracaq.

Başqa bir narahatedici cəhət ümumi cari biblioqrafiyanın bilavasitə aparıcı mərkəzi olan Respublika Dövlət Kitab Palatasının öz fəaliyyətini davam etdirmək imkanından məhrum olmasıdır. Artıq on ildir ki, müstəqil Azərbaycan dövlətinin ərazisində çıxan çap əsərlərinin biblioqrafik qeydi aparılmır, onların haqqında ardıcıl cari biblioqrafik informasiya verilməsi dayandırılıb. Bu Azərbaycan milli biblioqrafiyasının tarixində ən acınacaqlı bir haldır və onun tezliklə aradan qaldırılması əlaqədar rəhbər orqanların (nazirliyin) qarşısında duran mühüm vəzifədir

Azərbaycanda biblioqrafik işin inkişafına mənfi təsir göstərən ən mühüm amillərdən biri ölkəmizin erməni təcavüzünə məruz qalmasıdır. Torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğal olunması, 1 milyon əhalinin qaçqın vəziyyətində yaşaması həm iqtisadiyyatımıza, həm də mənəviyyatımıza ciddi ziyan vurur.

Beləliklə müstəqilliyimizi yenidən əldə etdiyimiz 10 il ərzində Azərbaycanda biblioqrafik fəaliyyətin qurumlarından kitabxanaların üzərində xüsusilə dayanmaq lazım gəlir. Onlar həm ümumi və həm də xüsusi biblioqrafiyanın həyata keçirildiyi, oxuculara sistem halında biblioqrafik xidmət göstərildiyi əsas mərkəz olaraq qalırlar.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxana sistemi dövlət və qeyri dövlət kitabxanalara görə fərqləndirilir. Dövlət kitabxanalarına Milli Kitabxana, Naxçıvan Muxtar Respublikasının Dövlət Kitabxanası, şəhər, qəsəbə, rayon, uşaq, gənclər kitabxanaları, Mərkəzləşmiş Kitabxana Sistemləri (MKS), respublika səviyyəli elmi-sahəvi kitabxanalar, o cümlədən dövlət, idarə, müəssisə və təşkilatların kitabxanaları daxildir. Qeyri dövlət kitabxanaları dedikdə bələdiyyə kitabxanaları, ictimai birliklərin kitabxanaları, özəl və digər kitabxanalar nəzərdə tutulur. Buraya həmçinin xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar da aid edilir (1, s.6).

Müasir Azərbaycan biblioqrafiyasının kitabxanalara görə təşkilindən bəhs olunarkən həmin qanundan irəli gələn kitabxana sistemi quruluşu nəzərə alınmalıdır. Birinci növbədə ərazi əlaməti əsas götürülərsə onlar arasında ölkə miqyasına, bölgələrə, şəhərlərə, qəsəbələrə və rayonlara görə bölgü aparılmalı və onların biblioqrafik fəaliyyətləri və bu əlamətə görə istiqamətləndirilməlidir. Məs., M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası Respublika miqyaslı, Naxçıvan Muxtar Respublikasının Dövlət Kitabxanası Muxtar Respublika miqyaslı, rayon MKS-ləri öz ərazilərinə görə biblioqrafik iş aparmalı olurlar. Biblioqrafik xidmət sahəsində də ərazi informasiya istifadəçiləri və onların tələbatları nəzərə alınmalı, ona müvafiq olaraq xidmət sistemi formalaşdırılmalıdır. Ərazi əlaməti biblioqrafik informasiya ehtiyatlarının yerləşdirilməsində, mühafizəsində və yayılmasında da mühüm amillərdəndir.

Respublikanın kitabxanalarında aparılan biblioqrafik iş məzmun əlamətinə görə də fərqləndirilməli və bundan irəli gələn



biblioqrafik fəaliyyət sahələrinin hansı kitabxanalara məxsusluğu konkretləşdirilməlidir. Məzmun əlamətinə görə bölgünün əsasında birinci növbədə biblioqrafik informasiyanın ictimai yönümü durur və biblioqrafik fəaliyyət buna görə ümumi, xüsusi biblioqrafiyaya ayrılır və onların həyata keçirilməsində mühüm yer tutan mərkəzlər artıq məlumdur. Məs., ümumi biblioqrafik fəaliyyət əsasən Respublika Dövlət Kitab Palatasında, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında, qismən də olsa MEA-nın Mərkəzi Elmi Kitabxanasında, xüsusi biblioqrafiya isə başlıca olaraq sahəvi elmi və elmi-texniki kitabxanalarda, F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasında, həmçinin yuxarıda adı çəkilən mühüm kitabxanalarda və digər kitabxana və elmi-informasiya müəssisələrində həyata keçirilir.

Başqa bir bölgü əlaməti ayrı-ayrı biblioqrafik fəaliyyət mərkəzlərinin bilavasitə biblioqrafiyalaşdırma obyektinin məzmun və forma münasibətlərilə əlaqədardır. Bu baxımdan biblioqrafik fəaliyyət mərkəzləri həyata keçirdikləri biblioqrafik işin universallığına, çoxsahəliliyinə və sahəviliyinə görə fərqlənirlər. Universal biblioqrafik fəaliyyətin bilavasitə mərkəzi Respublika Dövlət Kitab Palatasıdır. Lakin ölkənin mühüm kitabxanalarından M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, MEA Mərkəzi Elmi Kitabxanası öz fəaliyyətlərində universal xarakterli biblioqrafik informasiya mənbələrinin yaradılmasına və nəşrinə müəyyən yer verirlər. Eyni zamanda bu kitabxanalar və elmi-informasiya müəssisələri ilə yanaşı çox sahəli biblioqrafik fəaliyyət mərkəzi rolunu oynayırlar. Belə ki, həmin kitabxanalar elmin, texnikanın, mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri, mövzuları və problemləri üzrə biblioqrafik vəsaitlər hazırlayır və bib-lioqrafik xidmət həyata keçirirlər.

Biblioqrafik fəaliyyətin üçüncü qrup mərkəzləri sahəvi-xüsusi-elmi və elmi-texniki kitabxanalar və elmi informasiya mərkəzləridir. Belə müəssisələr bilavasitə öz profillərinə uyğun sahədə biblioqrafik iş həyata keçirirlər. Bunlardan Respublika Elmi-Texniki Kitabxanasını, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasını, Respublika Elmi Tibbi Kitabxanasını, Respublika Elmi Pedaqoji Kitabxanasını və başqalarını qeyd etmək olar.

Azərbaycanın biblioqrafik fəaliyyət mərkəzləri sistemində ali məktəb kitabxanaları da müəyyən yer tutur. Onları nisbi çox sahəli və sahəvi biblioqrafik fəaliyyət mərkəzi kimi nəzərə almaq olar.

Müasir dövrdə sosial-iqtisadi sistemdə baş verən dəyişikliklə əlaqədar olaraq yeni kitabxana sistemləri meydana gəlmişdir və onlar da biblioqrafik fəaliyyətin səciyyəvi mərkəzləridir. Qeyri-dövlət kitabxanaları sisteminə daxil olan bu kitabxanalardan bələdiyyə, ictimai birlik, özəl ali məktəb kitabxanalarını, həmçinin xarici hüquqi və fiziki şəxslər tərəfindən açılmış kitabxanaları göstərmək olar. Bu Azərbaycanda biblioqrafik fəaliyyətin təşkilatı qurumunda yeni bir istiqamət kimi qeyd olunmalıdır.

Biblioqrafik fəaliyyəti həyata keçirən kitabxana və başqa müəssisələrin bu sahədə qarşılarında duran mühüm vəzifələri belə ümumiləşdirmək olar:

-Ölkə ictimaiyyətinin informasiya tələbatlarını hərtərəfli öyrənmək, onların kompleks təminatına biblioqrafik təsiri gücləndirmək və onu müstəqilliyimizin tələblərinə uyğun beynəlxalq standartlar səviyyəsinə qaldırmaq yolunu müəyyənləşdirmək;

-Bütün səviyyələrdə (ümumi, xüsusi, universal, sahəvi, ümumi ölkə, məhəlli) səmərəli biblioqrafik informasiya xidmətinin həyata keçirilməsinə nail olunmasında biblioqrafik proseslərin komputerləşdirilməsinin əsas amil olduğunu həmişə diqqət mərkəzində saxlamaq, əlaqədar kitabxanaların və başqa müəssisələrin komputer texnologiyası ilə təchizatını gücləndirmək;

-Biblioqrafik fəaliyyətin ayrı-ayrı istiqamətlərində məqsədyönlülük əsas amil olsun, təsadüfilik tamamilə aradan qaldırılsın. Biblioqrafik fəaliyyətlə məşğul olan müəssisələr informasiya istifadəçilərinin əsil tələbatçılarını öyrənməyə və onlara uyğun istiqamətdə biblioqrafiyalaşdırma və biblioqrafik xidmət işi aparmağa ciddi səy göstərsinlər;

-Biblioqrafik proseslərin avtomatlaşdırılmasında biblioqrafik məlumat bazasının yaradılması ilk addım kimi böyük əhəmiyyət kəsb etdiyi nəzərə alınmaqla bu sahədə konkret tədbirlər görmək və əməli olaraq həyata keçirilməsi proqramına nail olmaq.



# ƏDƏBİYYAT


*1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi, nəzəri və təcrübi jurnal. - 1999. - №1.-S.3-16.*

*2. Bunyadov Z.M. Azərbaycan Atabəylər dövləti. - B., 1986.-*

*3. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərs vəsaiti.- B.,1978.-78s.*

*4. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri //Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: (Elmi əsərlərin tematik məcmuəsi). -B.,1986.-S.3-24.*

*5. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik.Üç hissədə. III hissə.-B., 2003.-383 s.*

*6. Xələfov Ə.T. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının bəzi məsələləri //ADU-nun elmi əsərləri: İctimai elmlər seriyası.-1961.-№3.-S.97-103.*

*7. Kazımov R.Ə. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının vəziyyəti və inkişafı məsələləri: (1946-1964).- B.,1965.-74 s. və s.*

*8. Алешин Л.И. Защита информации и информационная безопасность. -Москва,1999.-97 с.*

*9. Библиография.-1999.-№5.*

*10.Каталог библиотеки высочайшие утверждаемого человеколюбимого общества во имя еван.Григор. -Б.,1896.*

*11.Киклин Н.К. Каталог и указатель библиотеки Бакинского общественного собрания.-Б.,1887.*

*12.Bəradərani Orucov Kitabxanasının əsamül kütubi.-B.,1913-1914.-232 s. və s.*

*13.Коршунов О.П.Библиографоведение.Общий курс:учебник.-- Москва,1991.-232 с.*

*14.Коршунов О.П. Библиография: теория, методология, методика. - Москва: "Книга",1986.-287 с.*

*15.Положение о библиографической работе библиотек//Сов.-библиогр. –1987 - №6. - С. 32-40.*

*Алиев З.*

## *Некоторые организационные вопросы библиографической деятельности в Азербайджане*

*Р е з ю м е*

В статье дается исторический обзор организационных вопросов библиографической деятельности в Азербайджане и раскрываются специфические особенности, связанные с конкретными историческими условиями развития, появления и совершенствования источников библиографической информации. Библиографическая информация играет большую роль в деле информатизации современного общества. В переходный период независимого Азербайджанского государства она приобретает совершенно новый характер и направление, своего развития отвечаюшие требованиеям современности. И это, естественно, оказывает влияние решениям организационных вопросов национальной библиографической деятельности независимого Азербайджана.

**Mehmanəli MƏMMƏDOV**
*Pedaqoji elmlər namizədi, baş müəllim*

## TİBB ƏDƏBİYYATININ CEŞİDLƏRİ

Tibb elmi qədim köklərə malik bir elm sahəsidir. Onun əsas vəzifəsi tibbi diaqnos qoymaq, müaliçə və xəstəliklər haqqında xəbərdarlıq etmək, insanların sağlamlağını möhkəmləndirməkdir. Bu elm sahəsi, həmcinin elmi və təcrübi fəaliyyət sahəsi olub xəstə və sağlam insanların orqanizmində baş verən prosesləri öyrənir. Tibb elmləri öz inkişafına görə biologiya, fizika, kimya və texniki elmlərlə sıx bağlıdır. Zaman kecdikçə tibb elmi inkişaf etmiş və bu da mövçud sahədə müxtəlif səpgili kitabların yaranmasına səbəb olmuşdur.

Tibbi kitablar nəşriyyat və kitab ticarəti müəssisələri üçün tərtib edilmiş vahid təsnifat çədvəlinin 41-çi bölməsində (Səhiyə. Tibb elmləri) qruplaşdırılır.

Tibb kitabı nəzəri və praktiki tibbin nailiyyətlərini özündə əks etdirən nəşrlərə deyilir. Onun əsas predmetini elmi tibbi biliklər və xəstəliyin praktiki sağaldılma təcrübəsi, həmcinin dövlətin və içtimaiyyətin, insanların sağlamlığına və möhkəmliyinə yönəldilmiş tədbirlər təşkil edir. Tibb ədəbiyyatı hər bir tibb işcisinə lazımdır. Həkimlər, tibb bacıları müasir səhiyyənin praktiki nailiyyətlərini bilməli, öz bilik səviyyələrini daim yüksəltməlidirlər. Kitab nəşrində tibb ədəbiyyatı aşağıdakı mövzu komplekslərinə bölünür: A- ümumi məsələlər; B- profilaktik aya aid nəşrlər; S- tibbi bioloji elmlər; D- kliniki fənlər; E- tətbiqi tibb elmlər.

A. Ümumi məsələlər üzrə tibbi ədəbiyyatı tibbi kitabları içərisində elədə önəmli olmamasına baxmayaraq səhiyyənin gələçək inkişafı üçün son dərəçə lazımlıdır. Bu kitablar səhiyyə təşkilatları və tibbi sənaye, təbabətin ümumi məsələlərini əhatə edir. Ümumi məsələlər üzrə nəşrlər monoqrafiyalar, məlumat kitabcaları və lü-

ğətlər şəklində olmaqla tibbi statistika və kibernetikanın, eyni zamanda deontologiya, sosial və eksperimental tibbin, o çümlədən səhiyyə sisteminin bu günkü vəziyyəti və inkişafı ilə bağlı məsələlərini əhatə edir. Səhiyyə təşkilatları haqqında nəşrlər əsasən normativ-tətbiqi xarakter daşıyır. Onlar sosial gigiyenaya həsr olunmaqla tibbi sanitar tədbirləri profilaktik-müaliçə yardımını, sanitar-epidemioloji və əçzacılıq işini, həm də uşaq və onların müdafiyəsi məsələlərini əhatə edir.

Ümumi məsələlərə aşağıdakı nəşrlər daxildir:

1.Tibbin ümumi məsələlərinə dair nəşrlər.

2.Səhiyyənin təşkilinə dair nəşrlər.

3.Tibb sənayesinə dair nəşrlər.

1. Tibbin ümumi məsələlərinə aid nəşrlər. Bu nəşrlərdə sağlamlığın qorunması məsələləri müasir dövrlə əlaqələndirərək işıqlandırırlar. Belə nəşrlər adətən monoqrafiyalar, məlumat kitabları, lüğətlər və ümumi xarakterli ensiklopediyalar şəklində cıxır.

2. Səhiyyənin təşkilinə dair nəşrlər. Bu nəşrlərə sosial gigiyena, tibbi sanitariya təbirləri, müaliçəvi-profilaktik və təçili yardım, aptek işi və s. daxildir. Bu növ ədəbiyyatın nəşri praktiki təlimatlarda əks etdirilir. Bundan başqa hər bir tibbi və gigiyenik biliklərə dair kitablar elmi-kütləvi xarakter daşıyır.

3. Tibb sənayesinə dair nəşrlər. Bu növ ədəbiyyat dərman istehsalını və tibbi texnologiyanı özündə əks etdirir. Bu sahənin də elmi, dərslik və soraq-məlumat nəşrləri mövçuddur.

B. Profilaktikaya dair nəşrlər böyük sosial əhəmiyyət kəsb edir. Belə ki, xəstəliyin profilaktikası səhiyyənin ən əsas sahələrindən biridir. Xəstəliyin vaxtında qarşısının alınması bu ədəbiyyatın aktuallığıdır. Ölkədə profilaktika tədbirləri deyəndə əhalinin sağlamlığının qorunması və fiziki inkişafını təmin etmək üçün xəstəliklərdən vaxtında xəbərdarlıq kimi dövlət və içtimai tədbirlər nəzərdə tutulur. Profilaktik nəşrlərə aşağıdakılar daxildir:

1. Ümumi gigiyenaya dair nəşrlər.
2. Komunal gigiyenaya dair nəşrlər.
3. Qida gigiyenasına dair nəşrlər.
4. Əmək gigiyenasına dair nəşrlər.
5. Şüalanma gigiyenasına dair nəşrlər.
6. Uşaq və yeniyetmələrin gigiyenasına dair nəşrlər.
7. Epidemialogiyaya dair nəşrlər.



Ümumi gigiyena (1) ətraf mühitin insan sağlamlığına təsirini öyrənir. Elmi-kütləvi şəkildə buraxılır. Komunal gigiyenaya (2) dair nəşrlər təbiət və sosial faktorların insana təsirini ümumi məskunlaşma şəraitində öyrənir. Komunal gigiyenaya aid kitablar insan sağlamlığına təsir edən suyun, havanın, torpağın və yaşadığı yerin metodikasını işləyir. Qida gigiyenası (3) düzgün və tam qidalanma problemlərini öyrənir. Əmək gigiyenası (4) istehsalın müxtəlif sahələrinə və peşələrində calışan işçilərin sağlamlığını təmin etmək məqsədi daşıyır. Əmək gigiyenasına dair soraq-məlumat kitabları buraxılır. Şüalanma gigiyenası (5) kitablarda və broşuralarda ionlaşdırılmış şüalanmanın insan sağlamlığına təsiri və ondan qorunma tədbirləri haqqında məlumat verilir. Belə kitablar elmi monoqrafiyalar şəklində olur. Uşaq və yeniyetmələrin gigiyenasına dair ədəbiyyatda uşaqların doğulmasından, orqanizmlərin formalaşmasına qədər olan dövrdə onların sağlamlığının möhkəmləndirilməsinə dair geniş məlumatlar öz əksini tapır. Belə ədəbiyyat pediatorlar, məktəb həkimləri üçün nəzərdə tutulub. Epidemiyaya dair ədəbiyyat isə infeksion xəstəliklərinin yayılmasının səbəblərini və onlara qarşı mübarizə tədbirlərini əks etdirir. Bu sahəyə aid kitabların bəziləri dizinfeksiya, bəziləri dizinseksiya, bəziləri isə derafizasiya praktikasını əks etdirir.

S. Tibbi bioloji elmlərə dair nəşr. Bu ədəbiyyat növü birbaşa biologiya ilə bağlıdır və insan anatomiyası və fiziologiyasını, tibbi biokimya və biofizikanı, ümumi patalogiyanı, tibbi parazitologiyanı və mikrobiologiyanı, eyni zamanda formokologiyanı və taksikologiyanı da əhatə edir. Bura aşağıdakı kitablar daxildir:

1.İnsanın anatomiyası və fiziologiyası, tibbi biokimya və biofizika.

2.Ümumi patologiya.

3.Tibbi mikrobiologiya və parazitologiya.

4.Farmakologiya, formasiya və taksikologiya.

1. İnsan anatomiyası və fiziologiyasına aid bir cox nəşrlər biologiyaya aid olsa da, əslində onların imkanı tamam başqa istiqamətdədir. Belə ki, bioloji elmlər tibb elminin özülünü təşkil edirlər. Ona görə də hissə-hissə tibb institutlarında öyrənilir. Bu da aydındır ki, hər bir tibb işçisi xəstəliyi sağaldıb onu tanımaq üçün hər şeydən əvvəl insan orqanizminin quruluşuna və onun funksiyalarına bələd olmalıdır. Məhz buna görədir ki, tələbdən irəli gələçək coxlu sayda dərslik və dərs vəsaiti cap olunub. Fiziologiya elmi ilə tibbi bio-

fizika və tibbi biokimya sıx bağlıdır. Bu sahədə tibb işçilərinə kömək məqsədi ilə elmi, dərslik və istehsalat ədəbiyyatı hazırlanmışdır.

2. Ümumi patologiyada irsi xəstəliklərin yaranması və onların inkişafı əsas yerlərdən birini tutur. Bu sahənin inkişafı əsasında alimlər bir cox irsi xəstəliklərin müaliçəsini biologiya, fizika, kimyaya əsasən tapıblar. Ümumi araşdırmalar nəticəsində tibdə "tibbi genetika" adlanan yeni elm yaranmışdı. Hansıki, orqanizmdə irsi dəyişiklikləri və xəstəlikləri öyrənir. Müasir dővrdə bu elmin inkişaf etməsi ilə əlaqədar olaraq mağazalarda bu sahəyə dair elmi və istehsalat kitablarına tez-tez rast gəlinir.

3. Tibbi mikrobiologiya və parasitologiya. Bu nəşrlərdə insanlarda infeksion xəstəlikləri yarada bilən, onların tapılması yolları, xəbərdarlıqlar və xüsusi preparatların köməyi ilə belə xəstəliklərin sağaldılması metodları haqqında ətraflı danışılır. Belə ədəbiyyatın əsas hissəsini elmi monoqrafiyalar, tematik külliyatlar təşkil edir.

4. Farmakologiyaya dair kitablar elmi və tətbiqi xarakter daşıyır. Orada dərmanların və preparatların əldə edilməsi, istehsalı, nəzarəti, saxlanması və hazırlanması araşdırılır. Farmakologiyaya dair nəşrlərdə soraq-məlumat kitabları daha cox yayılıb.

5. Toksikologiya kitablarında isə müxtəlif fiziki və kimyəvi elementlərin tərkibi, onların orqanizmdə hərəkətləri və zəhərlənmə ilə mübarizə kimi elementlərə rast gəlmək olar.

D. Kliniki fənlər. Tibbə dair nəşrlərdə bu növ ədəbiyyat aparıçı rol oynayır və ümumi tibb nəşrlərinin 70-80%-ni təşkil edir. Belə ədəbiyyat insanlarda xəstəliyin öyrənilməsinə, onların xəbərdarlığına, müaliçəsinə və qarşısının alınmasına həsr olunur. Bu ədəbiyyatın mövzusu cox rəngarəngdir və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Terapeyaya dair nəşrlər.

2.Cərrahlığa, travmotalogiyayə və ortopediyaya dair nəşrlər.

3.Onkologiyaya dair nəşrlər.

4.İnfeksion xəstəliklərə dair nəşrlər.

5.Venereloji və dermotoloji xəstəliklərə dair nəşrlər.

6.Nevropotologiya, neyroxirurgiya və psixotriyaya dair nəşrlər.

7.Stomatologiyaya dair nəşrlər.

8.Oftalmalogiyaya dair nəşrlər.



9. Otorinololarinqogiyaya dair nəşrlər.

10. Uralogiyaya dair nəşrlər.

11. Gnikologiyaya və mamalığa dair nəşrlər.

12. Pediatriyaya dair nəşrlər.

Bütün bunları yekunlaşdıraraq belə bir nətiçəyə gəlmək olar ki, tibbi ədəbiyyat üzrə ceşidlər, nəzəri və praktiki tibbin nailiyyətlərini, həmcinin aparıçı müəssisələrin müaliçə-profilaktik təçrübələrini özündə əks etdirən nəşriyyatlar tərəfindən cap olunur. Bu nəşrlərin əsas mahiyyətini xəstəliklərin praktiki müaliçəsi, tibbi elmi biliklərlə yanaşı, həm də insanların sağlamlıqlarının qorunmasına və möhkəmləndirilməsinə yönəldilmiş tədbirlər təşkil edir. Belə monoqrafiyalar, məlumat kitabcaları və vəsaitlər həkimlər, orta səhiyyə işçilərinə ünvanlandırılır. Bu səpgili nəşrlərin əksər hissəsi "Orta səhiyyə işcisinin kitabxanası" və "Praktik həkimin kitabxanası" seriyaları kimi hazırlanıb.

Hazırda tibb elmi yüksək səviyyədə inkişaf etmiş və yeni-yeni nailiyyət əldə etmişdir. Bu yenilikləri çəmiyyətə catdırmaq üçün səhiyyə və tibbin ayrı-ayrı sahələrinə dair müxtəlif kitablar yazılmalı və bu da kitab mağazaların ceşidində öz əksini tapmalıdır.

## ƏDƏBİYYAT


*1. Vəliyev İ. Ö. Redaktənin əsasları.- B.: Günəş, 2003.-183 s.*

*2. H. M. Сокоркий. Теория и практика редактирования.- М.: Высшая школа, 1980.-328 с*

*3. Редактирования отделных видов литературы/ Под. Ред. Проф. Н.М. Сикорского.-М.: Книга, 1987.-367 с*

*4. А. С. Мильин. Методика и техника редактирования текста- М.: Книга, 1972.-318 с.*


**_Мамедов М._**


**_Ассортимент медицинской литературы_**

*Резюме*

В статье отражены характеристика всех видов медицинской литературы.

**Səbinə İSAYEVA**
*ADPU-nin filologiya fakültəsinin magistri*

# FOLKLORŞÜNASLIQ ELMİNƏ DAİR QİYMƏTLİ MONOQRAFİYA

Görkəmli folklorşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Azad Nəbiyevin Azərbaycan folklorunun inkişafında əvəzsiz xidmətləri vardır. O, Azərbaycan şifahi xalq ədəbiyyatının toplanmısına, tədqiqinə böyük əmək sərf edən görkəmli yaradıcılardan biridir. Yorulmaq bilmədən bir-birinin ardınca müxtəlif illərdə nəşr etdirdiyi əsərləri, dərs vəsatləri ağır zəhmətin və yuxusuz gecələrin nəticəsidir. Alimin irihəcmli əsərləri, monoqrafiyaları, məqalələri nəinki Azərbaycanda, hətta ölkəmizin hüdudlarından kənarda da nəşr edilib yayılmışdır. Xalqımızın bu zəngin sərvətinə dərindən bağlı olan alim folkların nəzəri problemləri ilə ardıcıl və səmərəli məşğul olur. Böyük alim folk-lorşünaslığımızda arxaik janrların, xalq oyunları və meydan tamaşalarının, milli mərasim və bayramlarımızın ilk araşdırıcılarındandır. Bu sahədə çap olunmuş «Azərbaycan folklorunun janrları», «El nəğmələri», «Xalq oyunları» və başqa monoqrafiyaları artıq geniş oxucu kütləsinin rəğbətini qazanıb. Bundan başqa folklarımızın toplanmasında da mühüm işlər görmüş A. Nəbiyevin «Azərbaycan dastanları», «Nəğmələr, inanclar, alqışlar, «Novruz». «İlaxır çərşənbələr», «Sehrli sünbüllər» və digər topluları onun bu sahədəki gərgin axtarışlarının bəhrəsidir.

Alimin son əsərlərindən biri də iki kitabda hazırladığı «Azərbaycan xalq ədəbiyyatı» (Bakı, 2002) əsəridir. Əsərin birinci hissəsi şifahi xalq ədəbiyyatının öyrənilmə tarixinin müxtəsər xülasəsi ilə başlayıb qədim dövr xalq yaradıcılığını əhatə edir. «Azərbaycan xalq ədəbiyyatı» əsəri müəllifin folklor sahəsində apardığı çoxillik toplama, nəşr və tədqiqat işlərinin ilkin yekunudur.

Kitab iki bölmədən və hər bölməyə müvafiq yarımbölmədən ibarətdir.



Birinci bölmədə folklor nəzəri irsi və zəngin janr sisteminə malik Azərbaycan şifahi xalq ədəbiyyatı məsələləri araşdırılır, xalq ədəbiyyatının dünya folklor nəzəri fikri əsasında öyrənilməsindən bəhs olunur. Burada folklorun başlıca spesifik xüsusiyyətləri, onun digər elm sahələri ilə əlaqəsi, ağız ədəbiyyatının üslub və növ törəmələri məsələləri tədqiq edilir. Eyni zamanda Avropada folklor-şünaslığın meydana gəlməsi, müxtəlif folklor məktəbləri, onların irəli sürdüyü mülahizələrin milli folklora təsiri məsələləri də ön plana çəkilir. Birinci bölmədə, xüsusilə Azərbaycan folklorşünaslıq məktəbi, onun meydana gəlməsi, görkəmli nümayəndələri Ə.Abid, S.Mümtaz, F. Köçərli, H.Araslı, M.H.Təhmasib və başqalarının xidmətləri xatırlanır. Həmçinin Güney Azərbaycanında folklorşünaslıq, mühacirət folklorşünaslığı, folklor və yazılı ədəbiyyat, onların hər ikisinin ortaq cəhətləri, bir-birinə qarşılıqlı təsiri məsələləri araşdırılır. «Azərbaycan folklorunun təsnifi, dövrləşdirilməsi məsələsinə dair» yarımbölməsində müəllif folklorşünaslığın aktual məsələlərindən birinə toxunur və xalq ədəbiyyatını şərti olaraq qədim dövr, orta əsrlər dövrü və yeni dövr şəklində dövrləşdirmək məsələlərini irəli sürür və ağız ədəbiyyatının ayrı-ayrı janrlarının yeni prinsiplərini verir.

Kitabın ikinci ən böyük bölməsi «Qədim dövr xalq dəbiyatı» adlanır. Burada əvvəlcə şifahi yaradıcılığımızın erkən qaynaqları haqqında məlumat verən müəllif daha sonra qədim türk mifologiyası, dünya mif modeli və Azərbaycan mifologiyası, onun struktur tərkibi, ilkin qaynaqları və törəniş modelləri, qədim türk panteonu, Azərbaycan mifologiyasında kultlar və zoomorfik obrazlar, milli mifologiyanın inkişafı və təsnifi, onun zərdüşt və islam mifoloji qaynaqları barədə zəngin və dolğun məlumat verir. Burada eyni zamanda maraqlı mifoloji mətnlər də verilmişdir.

«Ağız ədəbiyyatında ədəbi üsullar və lirik növün erkən şəkilləri» yarımbölməsində müəllif xflqın poetik yaradıcılığının ən erkən şəkilləri-əmək nəğmələri, əkinci, sayaçı sağın, ovçu, balıqçı, ipəkçi, hana nəğmələri, onların başlıca spesifik xüsusiyyətləri, poetik dəyərləri haqqında danışır.

«Mərasim folkloru» yarımbölməsində A. Nəbiyev onu mövsüm mərasimi və məişət mərasimi nəğmələri kimi qruplaşdırmış, xalqımızın mərasim dünyasının gözəlliklərini ön plana çəkmişdir. Mövsüm mərasimi nəğmələri içərisində çillə, ilaxır çərşənbə və bayram məişət nəğmələri barədə geniş danışır. Xüsusilə, qədim və

milli bayramımız Novruz bayramı və Novruzdan sonrakı nəğmələrdən bəhs edir.

Xalqın məişət həyatında mühüm yer tutmuş doğum, adqoyma, toy, yaş nəğmələri isə məişət mərasimi nəğmələri kimi qruplaşdırılmışdır.

«Mərasim folkloru ilə bağlı yaranan kiçik janrlar» yarım bölməsində isə ilk dəfə olaraq ağız ədəbiyyatının erkən kiçik janrları təsnif olunur. Şifahi xalq yaradıcılığının irihəcmli janr yaradıcılığı üçün ilkin zəmin olmuş bu qədim nümunələrin xalq ədəbiyyatındakı yeri və mövqeyi nümunələşdirilir. Atalar sözü və məsəllər, inanclar, andlar, alqış və qarğışlar, əfsunlar, yada nəğmələri, fallar, türkəçarələr, dualar, cadular, tapmacalar, yalvarış və yalvarmalar, söyüşlər, öyüdlər təriflər, şərlər sağlıqlar, başsaqlıqları, təsəllilər və onların poetik xüsusiyyətləri açıqlanır. A.Nəbiyev ilk dəfə olaraq etnopsixoloji düşüncə ilə bağlı olan yuxu, göstərmələr, gözəgörünmələr, eymənmələr, qarabasmalar, ürəyədammalar kimi janrlar haqqında danışır, onların tərkibindəki folklor elementlərindən və digər elm sahələri, xüsusilə etnoqrafiya, psixologiya, parapsixologiya, etnopsixologiya ilə əlaqəsindən məlumat verir.

Əsərdə «Azərbaycan xalq oyunları» başlığı altında Azərbaycan xalqının erkən düşüncəsində özünəməxsus yeri olan oyunlar, onların bir çoxu ilkin nümunələri, yaranma və inkişafı mərhələləri tədqiqata cəlb olunur. Burada Azərbaycan xalqının müxtəlif dövrlərdə yaratdığı həmin oyunlar – rəqsdaxili oyunlar, mərasim, məişət, ictimai məzmunlu uşaq oyunları kimi qruplaşdırılmış, onların hər birinə məxsus xüsusiyyətlər göstərilir.

«Azərbaycan xalq ədəbiyyatında dramatik üslub və onun erkən törəmələri» yarımbölməsində öz kütləviliyi ilə seçilən meydan tamaşaları və onun erkən modelləri olan cıdır, zorxana, əyləncə, kəndirbaz «Sim pəhləvan», qaraçı tamaşaları araşdırmaya cəlb edilir. Burada həmçinin az tətbiq olunmuş fərdi tamaşalar və onun ilkin nümunələri – buğa döyüşdürmə, nər döyüşdürmə, qoç döyüşdürmə, it boğuşdurma, xoruz döyüşdürmə, bildirçinbazlıq, yumurta döyüşdürmə barədə müəllif dürüst məlumat verir.

«Epik üslub və təhkiyəçilik ənənəsinin meydana gəlməsi» yarımbölməsində epik üslub, onun inkişaf xüsusiyyətləri, milli təhkiyənin yaranması, eyni zamanda qədim türk dastançılığının meydana gəlməsi. «Alp-Ər-Tunqa», «Oğuz xaqan», «Şu», «Ərgənəkon», «Köç» dastanları təhlil olunur. Bu bölmədə müəllif eyni zamanda



ozan sənəti, onun mənşəyi, təkamülü və formalaşması üzərində geniş dayanır, əski dastanlarımızdan olan «Qaraoğlu», «Kitabi-Dədə Qorqud», onların quruluşu, mövzusu və məzmunu barədə zəngin məlumat verir.

Kitabda Azərbaycan uşaq folkloru, onun tədqiqi tarixi, janr sistemi də diqqətdən yayınmır. Burada oxşamalar, arzulanmalar, əzizlənmələr, laylalar, sanamalar, düzgülər, acıtmalar, uşaq nəğmələri, yanıltmacalar, uşaq tapmacaları, onların poetik dəyərləri ön plana çəkilir.

«Ağız ədəbiyyatında iqtisadi münasibətlərin bədii ifadəsi» yarımbölməsində xalqımızın müəyyən dövr görüş və baxışlarını əks etdirən natura mübadiləsi, alqı-satqı əlaqələri, ticarət münasibətləri, bazar mədəniyyəti ilə bağlı yaranmış folklor nümunələri, onların mövzu və məzmun xüsusiyyətləri və s. açıqlanır.

Görkəmli professor A.Nəbiyev qədim dövr xalq ədəbiyyatını «Poetik ifadənin yeni qəlibləri və yeddi hecalı şerin yaranması» bölməsi ilə yekunlaşdırır. Yeddi hecalı şerin meydana gəlməsi, bayatı, onun türk xalqlar içərisində yayılmış variantları, bu haqda görkəmli folklorşünasların fikirləri burada öz əksini tapmışdır. Müəllif yeddi hesablı poetik qəlibin yaranması və formalaşması ilə qədim dövr xalq ədəbiyyatının artıq yeni – orta əsrlər dövrü yaradıcılıq mərhələsinə qədəm qoyduğunu göstərir. Orta əsrlər, eləcə də yeni dövr folklor yaradıcılığı haqqında isə alimin ikinci kitabında bəhs olunacaqdır.

Bu əsərlə geniş və zəngin bir dövrün şifahi xalq ədəbiyyatı nümunələri tədqiqata cəlb olunur. Bu, Azərbaycan şifahi xalq yaradıcılığını bütöv şəkildə öyrənmək sahəsində görkəmli tədqiqatçı tərəfindən göstərilmiş ilk və təqdirə layiq təşəbbüsdür. Şübhəsiz ki, bu əsər folklor sevənlər və ümumiyyətlə, xalq ədəbiyyatını yüksək qiymətləndirən geniş oxucu kütləsi tərəfindən böyük məhəbbətlə qarşılanacaqdır.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

*Xəlil İSMAYILOV*

## TƏHSİL VƏ KİTABXANA İŞİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİN ROLU

Azərbaycanın təhsil sistemində son illərdə aparılan əsaslı islahatların mühüm bir istiqamətini bu sistemin əsas sahəsi olan ali təhsil əhatə edir. İstər respublikamızın təhsil proqramında, istərsə də digər qanun və qərarlarda ali təhsilin inkişafı, onun yenidən qurulması və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilmiş, bu istiqamətdə görüləcək işlər təhsilə dair bütün sənədlərdə geniş əks olunmuşdur. Ali təhsilə xüsusi diqqət yetirilməsinin vacibliyi onun daşıdığı funksiyadan xeyli dərəcədə asılıdır. Təhsilin bu pilləsinin əsas məqsədi dövlətin və cəmiyyətin artan tələbatına uyğun yüksək ixtisaslı mütəxəssislər hazırlanmasını təmin etməkdir. Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra müstəqil təhsil sistemimiz artıq formalaşmağa başlamışdır. Təhsil sistemində həyata keçirilən islahatların başlıca məqsədi təhsilin bu pilləsinin ilk növbədə nüfuzunu yüksəltmək, indiyədək əldə olunmuş müsbət dünya təcrübəsindən, respublikamızın ali təhsil sahəsində əldə etdiyi ənənəvi nailiyyətlərdən istifadə etməklə, onun səviyyəsini inkişaf etmiş qabaqcıl ölkələrin səviyyəsinə çatdırmaq, dünya təhsil sisteminə inteqrasiya imkanlarını nəzərdən keçirmək və ona nail olmaqdan ibarətdir.

Respublikamızda müstəqillik illərində təhsil islahatı ilə bağlı bir sıra konkret tədbirlər həyata keçirilmiş, əməli reformalar aparılmış üç pilləli təhsil sisteminə keçilmişdir. Artıq bir neçə ildir ki, bakalavr və magistr pilləsi üzrə məzunlar respublikamızın idarə və müəssisələrində mütəxəssis kimi fəaliyyət göstərirlər. Dünyanın bir çox ölkələrində tətbiq olunan çoxpilləli ali təhsil xalq təsərrüfatının bütün sahələri üçün mütəxəssislər hazırlanması məzunlarımızın diplomlarının dünya ölkələrində tanınması deməkdir. Əlbəttə, bu



sistemə keçilməsini həm də zaman, bugünkü iqtisadi münasibətlər zəruri etmişdir.

Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsində də kadr hazırlığı üç pilləli təhsil formasında həyata keçilir. Fakültədə 2 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.

1. Kitabxanaçı-biblioqraf, 2. Kitabşünas-nəşriyyat işi və redaktə etmə ixtisasları. Bu tədris ilinə olan məlumata əsasən mütəxəssislər bakalavr üzrə 640 nəfər, magistratura üzrə 29 nəfərə diplomlar verilmişdir. Universitetə, təbii ki, kitabxanaçılıq-informasiya fakültəsinə həmçinin qəbul test üsulu ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən aparılır. Təxminən qəbul planı 130 nəfərə yaxındır. Bunlardan 60 nəfər əyani, 45 nəfər qiyabi kitabxanaçı biblioqraf, 25 nəfər isə əyani kitabşünaslıq-nəşriyyat işi və redaktə etmə ixtisaslarına qəbul olunur. Fakültədə 50 nəfərə qədər işçi çalışır, bunlardan 30 nəfəri professor müəllim, qalan 20 nəfər laborant texniki işçilərdir. Fakültədə aspirantura yolu ilə də kadr hazırlığı davam etdirilir. Bütün bunlar təhsilimizin struktur quruluşu və bu günün vəziyyəti haqqında qısa məlumat verməkdən ibarət fikirlərdir. Əsas məqsədimiz isə kitabxanaçılıq-informasiya fakültəsinin indiki beynəlxalq əlaqələri xüsusilə, inkişaf etmiş ölkələrin kitabxana və kitabxanaçılıq təhsilinin mövcud əlaqələri haqqında ətraflı fikir söyləməkdir.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra istər iqtisadi, beynəlxalq siyasi, diplomatik əlaqələrlə yanaşı, təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya edilməsinə, təhsilin dünya standartlarına uyğun yenidən qurulmasına çox böyük əhəmiyyət verilmişdir. Azərbaycan ali məktəblərini bitirən məzunların dünya miqyasında diplomlarının tanınması, xarici ölkələrlə tələbə və müəllimlərin qarşılıqlı mübadiləsi və s. buna sübut ola bilər. Bu əlaqələrin həyata keçirilməsində fakültə kollektivi, onun professor-müəllim heyəti yaxından iştirak edir, sözün əsl mənasında beynəlxalq əlaqələrimiz getdikcə genişlənir. Bu gün fərəh hissi ilə demək olar ki, dünya əhəmiyyətli bir sıra beynəlxalq proqramların işlənib həyata keçirilməsində kollektivimiz yaxından iştirak edir. Xüsusilə inkişaf etmiş ölkələrdən ABŞ, Fransa, Belçika, Türkiyə, İran, o cümlədən MDB məkanında olan müstəqil respublikaların milli kitabxanaları, ali məktəbləri, kitabxana assosiasiyaları və birlikləri ilə müntəzəm əlaqələrimiz genişlənməkdədir.

Beynəlxalq əlaqələrdən danışarkən beynəlxalq TASİS proqramı çərçivəsində Fransanın Nitsa Universiteti ilə həyata keçirilən proqramda fakültəmizin pilot fakültə kimi həmin proqrama qatılmasını çox mühüm hadisə kimi qiymətləndirirəm. Birinci ona görə ki, bütün sahələrdə Fransa dünyanın ən qabaqcıl ölkələrindən biridir. Fransa təhsil sistemi dünya təhsil sistemində özünəməxsus yerlərdən birini tutur və müasir standartlara cavab verir. Doğrudur, Fransa təhsil sisteminin keçmiş Sovet təhsil sistemindən xeyli fərqli cəhətləri vardır. Baxmayaraq ki, Azərbaycanda üç pilləli təhsil sisteminə başlanılmış, avropa və dünya təhsil sisteminə uyğun kadr hazırlığı həyata keçirilir, yenə də Fransa təhsil sistemi ilə müqayisədə əsaslı fərqlər vardır. Bütün bunlara baxmayaraq Fransa təhsil sistemindən götürüləsi və istifadə ediləsi bir çox cəhətlər vardır ki, o Azərbaycan təhsil sisteminin inkişafında mühüm rol oynaya bilər.

Ona görə də Fransa təhsil sistemi haqqında xüsusilə Nitsa Universitetinin timsalında, həmçinin Fransanın Lion şəhərində yerləşən (EHSSİB) (LAİKEM) Lion Ali İnformasiya Kitabxana Elmləri Mərkəzi ilə əlaqə yaratmaq Azərbaycan Ali Təhsilinin, xüsusilə də kitabxanaçılıq-informasiya təhsilinin inkişafına əsaslı təsir göstərəcəkdir.

Birinci onu qeyd etmək istərdim ki, Fransa kitabxanaçılıq-informasiya təhsil sisteminin özünə məxsus cəhətləri vardır. Yeri gəlmişkən göstərməliyik ki, dünyanın inkişaf etmiş ölkələrinin hamısından fərqli olaraq Fransa kitabxanaçılıq informasiya təhsil sistemi bir sıra üstün cəhətlərə malikdir. Belə ki, Fransada kitabxanaçılıq-informasiya təhsilinə çox böyük əhəmiyyət verilir. Bizim təhsil sistemindən fərqli olaraq Fransada xüsusi «Milli kitabxanaçılıq-informasiya ixtisasartırma mərkəzi» fəaliyyət göstərir ki, bu mərkəzə orta təhsilli, kitabxanaçılıq peşəsinə marağı olan bütün vətəndaşlar müraciət edə bilər və xüsusi söhbətdən keçməklə həmin mərkəzə daxil ola bilər. Mərkəzdə 3-6 ay hazırlıq keçdikdən sonra dinləyicilərə «B», «S» qrupu üzrə sertifikatlar verilir və təyinat kimi kitabxanalara işləməyə göndərilir. Bundan başqa Fransanın üç texniki universitetinə kitabxanaçılıq-informasiya ixtisası üzrə kadr hazırlığı üçün status verilmişdir. Bu Universitetlərə müsabiqə yolu ilə, həm də milli mərkəzi bitirən «B», «S» qrupu üzrə diplomları olan məzunlar söhbət yolu ilə qəbul olunurlar. Ümumiyyətlə, kitabxanaçılıq-informasiya təhsili sahəsində «B», «S» diplomları aşağı səviyyədə olan diplomlar kimi tanınır. Bu qrup məzunlar



kitabxanalarda aşağı vəzifələrə təyin olunurlar. Ən yüksək vəzifələrə «A» qrup diplomu olan məzunlar göndərilir və yuxarı vəzifələr «A» qrupu üçün nəzərdə tutulur. Yeri gəlmişkən qeyd etməliyik ki, Fransada çox düzgün olaraq hər bir mütəxəssisin ixtisas hazırlığından asılı olaraq onların statusu, daha doğrusu, təyinatı müəyyənləşdirilir. Yəni hər bir mütəxəsis qabaqcadan öz iş yerlərini bilir. Belə kadr hazırlığı yəni həm universitetlər, həm də xüsusi milli ixtisasartırma mərkəzi kitabxanaçı-informator kadrlarının böyük bir hissəsini təşkil edir. Hər iki tədris mərkəzlərini yəni texniki universitetləri və milli ixtisasartırma mərkəzini bitirən məzunlar Fransada yeganə kitabxanaçılıq-informasiya ali məktəbinə (LAİKEM) (EHSSİB) çox böyük müsabiqə yolu ilə qəbul oluna bilərlər. Bu müsabiqəni dövlət səviyyəsində milli şura üzvləri, dövlət və elm adamları həyata keçirir və ancaq ən qabiliyyətlilər bu ali məktəbə daxil olurlar. Yeri gəlmişkən qeyd etməliyik ki, 2003-cü tədris ilində (EHSSİB) ali kitabxanaçılıq məktəbinə 3000 nəfər sənəd verərək müsabiqədə iştirak etmiş, cəmi 30 nəfər kitabxanaçılıq informasiya ali məktəbinə daxil olmuşdur. Onu da qeyd edək ki, qəbul olunanların əksəriyyəti digər ixtisasların - hüquq, beynəlxalq hüquq, tarix, iqtisadiyyat və s. sahələrin nümayəndələri olmuşdur. Xüsusi bir anı vurğulamaq lazımdır ki, bu qəbul olunanlar ilk gündən hansı müəssisədə və hansı vəzifədə çalışacaqlarını bilirlər. Çünki, (EHSSİB) kitabxanaçılıq ali məktəbi professorlar və digər yüksək ixtisaslı kadrların hazırlığı ilə məşğuldur. Fransa kitabxanaçılıq informasiya təhsilində «A» qrupu üzrə diplom verən həmin ali məktəb bu sahənin zirvəsi hesab olunur və çox güclü kadr hazırlığı ilə məşğuldur. Yeri gəlmişkən qeyd etməliyəm ki, fakültəmizin kollektivi dünyada tanınmış (EHSSİB) bu ali məktəblə elmi tədris əlaqələrini daha da yaxşılaşdırmağı nəzərdə tutur. Bu məqsədlə BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin dekanı dos. X.İ.İsmayılov, biblioqrafiyaşünaslıq kafedrasının müəllimi Əliyusif Məmmədov, magistr Tərlan Muxtarov (EHSSİB) (LAİKEM) Lion Ali İnformasiya kitabxanaçılıq elmi mərkəzində olmuş, Ə. Məmmədov və T.Mu^tarov üç həftəlik xüsusi hazırlıq kursu keçmişlər. Onlar Lion Ali Kitabxanaçılıq İnformasiya Mərkəzinin professor- müəllim heyətinin mühazirələrini dinləmiş, mərkəzin elm və tədris prosesi ilə yaxından tanış olmuş, mərkəzin zəngin elmi kitabxanasının fondu, onun elektron kataloqu və bütövlükdə elektron kitabxanası ilə tanış olmuşlar. Lion Ali Kitabxanaçılıq mərkəzi dünyada analoqu

olmayan çox zəngin bir mərkəzdir, onun işi ilə yaxından tanış olmaq əlbəttə, Azərbaycan nümayəndələri üçün olduqca əhəmiyyətli olmuşdur. Xüsusilə (EHSSİB) mərkəzin hər birinin özünün məktəbi olan, elmi istiqaməti olan professorları din əmək, onların elmi məktəbi haqqında məlumatlar əldə etmək sözsüz ki, Azərbaycan kitabxanaçılıq məktəbinin inkişafına öz təsirini göstərəcəkdir. Artıq yeni proqramların həyata keçirilməsi üçün müəyyən hazırlıq işləri görülür. Lion ali məktəbinin rəhbərliyi ilə fakültə rəhbərliyi arasında yeni proqramların həyata keçirilməsi istiqamətində artıq işgüzar danışıqlar aparılmış və müəyyən razılıq əldə olunmuşdur. Hazırda isə TASİS proqramına uyğun olaraq fakültəmizdə xeyli işlər aparılmışdır ki, bu işlərin tədris prosesinə çox ciddi təsiri olmuşdur. Xüsusilə kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi yeni kitabxana-informasiya proqramlarının öyrənilməsi və tətbiq olunması üzrə Fransanın Nitsa Universitetinin Kitabxanasında elektron kitabxana, elektron kataloq və geniş kompüter xidməti ilə yaxından tanış olmuş və universitetimizin elmi kitabxanasında xeyli iş görmüşlər. Bu işlərin görülməsində fakültəmizin əməkdaşları yüksək ixtisaslı mütəxəssislər kimi yaxından iştirak etmiş, elektron kitabxana və elektron kataloqunun yaradılması ilə bağlı elmi tövsiyələr vermişlər.

Fransa kitabxanaçılıq-informasiya təhsili sistemi olduqca demokratik, hər kəsin həvəsi və marağı çərçivəsində, həm də qabiliyyətə görə aparılır. Burada həm də üstün cəhətlər ondan ibarətdir ki, istənilən ixtisas sahibi magistraturaya qəbul zamanı kitabxanaçılıq-informasiya ixtisası üzrə müsabiqədə iştirak edə bilər. Üstün cəhətlərdən biri də odur ki, bizim təhsil sistemindən fərqli olaraq ali məktəbə qəbul olan hər bir şəxs onu bitirdikdən sonra hansı ali məktəbdə və ya kitabxanada, hansı vəzifədə çalışacağını qabaqcadan bilir. Bu, ali məktəblərə qəbul üçün olduqca yaxşı bir stimuldur. EHSSİB Ali Kitabxanaçılıq Məktəbi qeyd etdiyimiz kimi həm də ölkə üçün ən yüksək ixtisaslı «A» qrupu üzrə kadrlar hazırlayır. Təhsildə ən yüksək göstəricilər əldə etmiş məzunlar, yüksək elmi istiqaməti olan professorlardan zəmanət almaqla mövzuya cəlb olunur və doktoranturada saxlanılırlar. Doktorantura müddətində mütləq doktorluq işi müdafiə etməklə təhsili başa vururlar. Əlbəttə, Azərbaycan Respublkasında da ali təhsilli kadr hazırlığı dünya standartlarına uyğunlaşdırılmış həyata keçirilməsinə başlanılmışdır. Xüsusilə, üç pilləli təhsil sisteminə keçilməsi,



diplomların dünya miqyasında tanınması, beynəlxalq qarşılıqlı tələbə və müəllim mübadiləsi, internet vasitəsilə təhsil problemlərinin öyrənilməsi, qarşılıqlı işgüzar gedişlər, təhsilimizin dünya təhsilinə inteqrasiya olunmasına əyani sübutdur. Lakin bizim fikrimizcə təhsil sistemində bir sıra ciddi problemlər vardır ki, onları sadəcə bir gündə, bir ildə tezliklə aradan qaldırmaq üçün ənənəvi forma və üsullardan imtina etmək çox çətindir. Bunun üçün dövlət səviyyəsində ciddi qərarlar, qanunlar olmaqla, təhsildə xalqımızın milli dəyərləri, ənənəvi təhsil sisteminin qorunub saxlanılması nəzərə alınmaqla islahatlar aparılmalıdır. Təəssüflə qeyd etmək lazımdır ki, uzun illərdir ki, respublikamızın təhsil qanunu müxtəlif səviyyələrdə müzakirə olunmasına baxmayaraq hələ də qəbul olunmamışdır. Əlbəttə, yeni Təhsil Qanununun qəbul olunmaması bir sıra təhsil islahatlarının aparılmasına mənfi təsir göstərir.

Konkret olaraq təhsil problemləri xüsusilə kitabxanaçılıq informasiya təhsilinin bugünkü vəziyyəti BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivindən çox asılıdır.

Məlumat üçün bildirmək istərdim ki, fakültəmiz 1947-1948-ci tədris ilində şöbə kimi, 1962-ci ildən isə müstəqil fakültə kimi fəaliyyətə başlamış, bu günədək 5000 nəfərdən çox yüksək ixtisaslı kitabxanaçı-biblioqraf kadrları hazırlamışdır. Fakültəmiz indiki MDB respublikaları içərisində ən güclü elmi potensiala malik həm də yeganə Universitet təhsili verən təhsil müəssisəsidir. Hazırda ixtisas fənlərindən dərs deyən 30 nəfər ştatda olan professor və müəllim çalışır. 4 ixtisas kafedrası, 3 tədris laboratoriyası fəaliyyət göstərir. Bu gün fakültə kollektivinin qarşısında duran ən mühüm vəzifələrdən biri və ən vacibi ixtisaslı kadrların yeni kitabxana və informasiya standartlarına, ona verilən müasir tələblərə və texnologiyalara uyğun kadr hazırlığının yaxşılaşdırılması qarşıda durur. Fakültəmizin qarşısında duran ən ciddi problem ondan ibarətdir ki, professor müəllim heyətinin özünün yeni texnika və texnologiyalara uyğun olaraq ixtisaslarının artırılması, yeni kitabxana informasiya texnologiyalarının mənimsənilməsi, təhsildə və kitabxana təcrübəsində olan yenilikləri tədris prosesində tətbiq etmək. Açığını deyək ki, baxmayaraq ki, fakültənin elmi potensialı müqayisə etibarilə yüksəkdir, lakin tədrisin təşkilində yeni kitabxana standartlarının və dünya kitabxana təcrübəsinin izah olunmasında müəyyən çatışmamazlıq və gerilik özünü biruzə verir. Elə bilirəm ki, bu gün qurulan beynəlxalq əlaqələrimiz əlbəttə, yaxından yardımçı olacaqdır. Həm-

çinin yeri gəlmişkən qeyd etmək lazımdır ki, baxmayaraq ki, BDU-da o cümlədən kitabxanaçılıq-informasiya fakültəsində yeni və müasır avadanlıqlar əldə edilmişdir. Lakin, bütün bunlar dünya təcrübəsi və praktikası ilə müqayisədə hələ də lazımi qədər deyildir. Xüsusilə elmi təcrübi ixtisas materiallarının lazımi səviyyədə olmaması və mövcud materiallardan kompleks şəkildə istifadə edilməsində də müəyyən çətinliklər vardır. Bu gün nəinki təhsil sisteminin kitabxanaları, həmçinin respublikamızın bütün kitabxana şəbəkələri və sistemlərində olan kitabxana ehtiyatları (kitablar və digər sənədlər) haqqında internet səhifələrində bitkin məlumat olmalı və istənilən vaxt, istənilən yerdə bütün informasiyalardan istifadə üçün şərait yaradılmalıdır. Əlbəttə, bunun üçün yeni və mütərəqqi kitabxana proqramları hazırlanmalı və tətbiq olunmalıdır. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında Respublika Dövlət Kitabxanasında və bir sıra iri respublika səviyyəli kitabxanalarda bu istiqamətdə müəyyən işlər aparılsa da inkişaf etmiş ölkələrin kitabxana təcrübəsi ilə müqayisədə hələ çox işlər görülməli, yeni texnologiyaların tətbiqinə çox vacib bir məsələ, dövlət əhəmiyyətli məsələ kimi yenidən baxılmalıdır. Kitabxanalarımızda yeni proqramların tətbiq edilməsi vaxtı çoxdan çatmışdır. Bu gün iri beynəlxalq əməkdaşlıq proqramı çərçivəsində işlədiyimiz Fransanın Nitsa Universitetinin əsaslı kitabxanasında tətbiq olunan «Paris», «Neptun» «Ariel» proqramları, Rusiya kitabxanalarında tətbiq olunan və dövlət mükafatına laiq görülən «Neptun» proqramlarının tətbiq olunması olduqca vacibdir. Təəssüf hissi ilə bildirmək istərdim ki, hələ respublikamızda dövlət səviyyəsində kitabxanaların inkişaf proqramı müəyyənləşdirilməmiş, hətta, dünyada tətbiq olunan maşın təsnifatlarından hansının seçilməsi, ona üstünlük verilərək tətbiq olunması belə müəyyənləşdirilməmişdir.

BDU-nun Elmi Kitabxanası beynəlxalq proqramda iştirak edən müəssisə kimi belə proqramların tətbiqinə başlamalıdır. Xüsusilə Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının köməyilə, Amerika Kitabxanaçılar Assosiasiyası maliyyə dəstəyi ilə əldə olunmuş kompüter skayner və printer dəsti məhz «Ariel» proqramının tətbiqi üçün nəzərdə tutulmuşdur. Təəssüf ki, bu proqramın da hələlik tətbiq olunmur. Halbuki dünya kitabxana informasiya müəssisələri ilə əməkdaşlıq lazımi materialların və informasiyaların əldə edilməsi və ötürülməsi üçün bu proqram olduqca mütərəqqi bir proqramdır. Bizə belə gəlir ki, istər təhsil,



istərsə də kitabxana proqramlarının tətbiqi olduqca vacibdir və bu Azərbaycanın müstəqilliyi şəraitində həm də keçid dövründə verilən çox böyük bir şansdır. Təhsil, kitabxana ictimaiyyəti və bütün ziyalılarımız bu şansı əldən verməməli, ondan səmərəli istifadə etməlidirlər. Bunu, zamanın tələbi və hökmü kimi qəbul edib ona əməl etmək hər birimizin borcudur.

**_Исмаилов Х._**

***Роль международных связей в образовании и библиотечной работе***

*Резюме*

В статье анализируется важность международных связей республики Азербайджан в сфере библиотечной деятельности и образовании. Автор заостряет внимание на состояние этих связей для высшего образования, которое призвано служить стимулом развития для всех отраслей деятельности. В качестве примера автор рассматривает существующие связи Библиотечно-информационного факультета БГУ с французской Высшей национальной школой информационно-библиотечных наук функционирующей в городе Лион.

***Əliyusif MƏMMƏDOV***
*Müəllim,*
*Azərbaysan Kitabxana İşinin İnkişafı Assosiasiyasının üzvü*

# FRANSA VƏ AZƏRBAYSAN: KİTABXANA MÜTƏXƏSSİSLƏRİ ARASINDA PROFESSİONAL ƏLAQƏLƏR

Dünya dövlətləri birliyinin tamhüquqlu üzvü olmuş Azərbaycan Respublikası bir çox digər sahələrdə oldugu kimi, təhsil, elm və mədəniyyət və digər sahələrdə də beynəlxalq əlaqələrini inkişaf etdirir, müxtəlif beynəlxalq proqramlarda get-gedə daha yaxından iştirak edir ki, bu da ölkəmizin həmin sahələrdə tərəqqisinə əhəmiyyətli təsir göstərir. Respublikamız üzrə belə proqramlarda nazirlik, idarə və təşkilatlarla yanaşı, təhsil müəssisələri də yaxından iştirak edirlər. Təhsillə əlaqədar beynəlxalq proqramlarda ən ilkin və intensiv iştirak edən təhsil müəssisələrindən biri olkəmizin ilk ali təhsil ocagı olan Bakı Dövlət Universitetidir. Ən muxtəlif sahələrdə beynəlxalq əlaqələrin coğrafi əhatəsinə nəzər saldıqda isə belə əlaqələrin ilk növbədə Avropa ölkəlri ilə qurulduğunu müşahidə etmək mumkundur. Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa edilməsinin ilk aylarından etibarən Avropa ölkələri ilə ən əvvəl diplomatik, daha sonra isə iqtisadi, siyasi, hərbi, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq yaradılması yolunda ardıcıl fəaliyyət göstərir. Respublikamızın Avropa ölkələri ilə əməkdaşlıgı son illər keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Əgər əvvəllər Azərbaycanın Avropa ilə əməkdaşlıqı əsasən ikitərəfli əlaqələr ilə səciyyələnirdisə, indi artıq respublikamız Avropanın qitə miqyaslı təşkilat və qurumları ilə əlaqələr yaradır. Bunlara misal olaraq Respublikamızın Avropa Şurasının bir sıra nüfuzlu qurumlarında yaxından iştirakını göstərmək mümkündür.

Respublikamızın Avropa ölkələri ilə əməkdaşlığında Avropa Şurasının yaratdığı TACİS / TEMPUS proqramın böyük rolu vardır. Bir çox beynəlxalq proqramlar məhz bu proqramın çərçivəsində



həyata keçirilir. Məlum olduğu kimi, bu proqram çərçivəsində Avropa Şurası tərəfindən keçmiş Sovet respublikalarında və bir sıra başqa keçmiş sosialist ölkələrində həmin ölkələrin sosial strukturunun, iqtisadiyyat, elm, təhsil və bir sıra digər sahələrinin inkişafına yönəlmiş bir sıra layihələr həyata keçirilir. Azərbaysanın da qatıldığı bu layihələrdən bir qismi keçmiş sosialist bloku ölkələrində ali məktəblərdə təlimin səviyyəsinin yüksəldilməsinə, ali məktəblərin fəaliyyətinin müxtəlif sahələrində və struktur bölmələrində yeni metod və texnologiyaların tətbiqinə yönəldilmişdir.

Artıq bir neçə ildir ki, Azərbaycan ali təhsil sisteminin flaqmanı olan Bakı Dövlət Universiteti də həmin proqramın iştirakçısıdır. Bu proqram çərçivəsində Bakı Dövlət Universitetində idarəetmənin müxtəlif istiqamətlərinin inkişaf etdirilməsi və onun Avropa təcrübəsi səviyyəsində yenidən qurulması, yeni tədris kurslarının yaradılması və təhsil prosesinə tətbiqi və digər sahələrdə bir çox işlər görülmüşdür.

Məlümdür ki, dünyanın qabaqcıl ölkələrində təhsil sisteminin, xüsusən də ali təhsilin kitabxana, sənəd-informasiya təminatı vasitələrinin inkişafına müstəsna əhəmiyyət verilir. Hər bir təhsil müəssisəsində zəngin kitab, elektron və mikrosənədlər fonduna malik, ən yeni avadanlıq və texniki vasitələrlə, o cümlədən kompüterlərlə təchiz edilmiş, onlayn kataloqlara və sənəd informasiya resurslarına çıxışı olan kitabxanaların yaradılması ən zəruri iş hesab edilir. Belə kitabxanalar həm də yüksək ixtisas səviyyəsinə malik, öz sahələrində yaranan yenilikləri tezliklə mənimsəyib tətbiq etməyə qadir olan mütəxəssislərlə komplektləşdirilir. Bu səbəbdən də, TACİS / TEMPUS proqramı çərçivəsində yardım alan ali məktəblərdə mövcud olan elmi kitabxanaların işinin təkmilləşdirilməsinə, onlarda yeni texnika və texnologiyaların tətbiqinə, burada çalışan mütəxəssislərin peşə səviyyəsinin yüksəldilməsinə diqqət yetirilir və bu məqsədlə də həmin proqramın daxilində «Kitabxananın modernləşməsi» adlanan xüsüsi ixtisasartırma və təkmilləşdirmə kursları fəaliyyət göstərir. Məhz həmin səbəbə görə də Bakı Dövlət Ünivərsiteti üzrə TACİS / TEMPUS proqramı ilə aparılan işlərin siyahısına BDU-nun Elmi Kitabxanasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər kompleksi daxildir. Bu komplekse ilk növbədə Elmi Kitabxananın işinin kompleks avtomatlaşdırılması üçün ilkin zəminin hazırlanması, elementar səviyyədə olsa da, kitabxananın kompüter şəbəkəsinin (Intranet) yaradılması, elektron

kataloqun yaradılması üzrə işlərin başlanması. Elmi kitabxananın movcud kompüter şəbəkəsinin yaradilmasi, elektron kataloqun yaradılması və bunlar ilə BDU-nun lokal şəbəkəsi arasında əlaqə (link) yaradılması kimi digər zəruri vəzifələr daxildir.

BDU-da kitabxana fəaliyyətinin günün tələblərinə müvafiq olaraq yenidən qurulması üzrə proqram həm də kitabxanaçı kadların peşə səviyyəsinin yüksəldilməsi, onların kitabxana işinin yeni metod və texnologiyaları ilə tanış edilməsi və eyni zamanda BDU-da kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında islahatlar aparılmasına hazırlıq görülməsi kimi ümdə vəzifələrin həllinə yönəlmişdir. Məhz bu vəzifələrin həllinə yardım göstərmək məqsədi ilə, BDU-nun Elmi Kitabxanasının 2 nəfər işçisi, Kitabxanaçılıq-informasiya fakültəsinin 1 nəfər magistrantı və bu sətirlərin müəllifinin daxil olduğü mütəxəssislər qrupu 2002-ci ilin noyabr ayının 9-dan 29-a qədər TACİS/TEMPUS proqramı çərçivəsində «Kitabxananın modernləşməsi» adlanan kurslarda iştirak etmək üçün Fransanın Lion şəhərində ezamiyyətdə olmuşdur.

Lion fransız kitabxanaçıları və informasiya mütəxəssisləri arasında onunla məşhurlur ki, ölkədə kitabxanaçılıq və informasiya elmləri üzrə ən yüksək ixtisas təhsili verən(A kateqoriyalı), eyni zamanda bu sahədə ən böyük ixtisasartırma və ölkədə bu elmlər üzrə ən iri elmi-tədqiqat mərkəzlərindən biri olan Milli Ali İnformasiya-Kitabxana Elmləri Məktəbi (MAİKEM) burada, daha dəqiq desək, son illər ərazicə Lionla qaynayib-qarışmiş Villeurban şəhərində yerləşir.

MAİKEM-in əsası 1963-sü ildə Parisdə qoyulmuşdur. O zaman həmin təhsil müəssisəsi Milli Ali Kitabxanaçılar Məktəbi adlanırdı. 1974-cü ildə məktəb Lion yaxınlığındakı Villeurban şəhərinə köçürülür. Sonra Villeurban Lion şəhərinin inzibati ərazisinə daxil olur. 1992-ci ildə məktəbdə modernləşmə keçirilir, orada tədrisin informasiya texnologiyaları üzrə səmtləşdirilməsi aparılır, onun statusu yüksəldilir və adı dəyişdirilərək indiki formasını alır. Hazırda MAİKEM Fransada kitabxana-informasiya fəaliyyəti sahəsində ən ali peşə ixtisası (A kateqoriyası) verən və milli miqyasda yüksək nüfuza malik təhsil ocağidir. Bir sıra Avropa ölkələrində olduğu kimi, Fransada da hələ monastır kitabxanaları dövründən kitabxana müdirinə «mühafiz» (fransızsa- «konservatör») deyilir ki, bu da peşə-ixtisas səviyyəsinə görə ən yüksək məqam olan A kateqoriyasına müvafiqdir. Bu məktəbdə həm də Fransada



kitabxanaçılıq və informasiya elmləri üzrə yeganə doktorantura və kitabxana işçilərinin peşə hazırlığı səviyyəsini yüksəltmək üçün daimi fəaliyyət göstərən kurslar da mövguddur.

MAİKEM Fransada kitabxana-informasiya elmləri üzrə ən nüfuzlu dövri nəşr olan «Bulletin des bibliothiques de Franse» («Fransa kitabxanaları bülleteni») adlı jurnal nəşr edir. MAİKEM-in 19 min nüsxə kitaba və digər sənədlərə malik kitabxanası, milli və beynəlxalq sənəd-informasiya resurslarına qoşulmuş özəl kompüter şəbəkəsi vardır. Məktəb ən yeni avadanlıq və texniki vasitələrlə təchiz edilmişdir. MAİKEM belə yüksək elmi-tədris və texniki potensialını lazımi səviyyədə saxlamaq üçün kifayət qədər maliyyə imkanlarına malikdir. Belə ki, 2001-ci ildə məktəbin büdcəsi təqribən 24 milyon frank və ya 3,6 milyon avro olmuşdur.

MAİKEM haqlı olaraq həm milli, həm də beynəlxalq səviyyədə yüksək nüfuza malikdir. Məhz buna görə də bura bir sıra xarici ölkələrdən oxumağa tələbələr gəlir, kitabxana-informasiya mütəxəssisləri isə müxtəlif ixtisasartırma və stajorluq proqramlarında iştirak edirlər.

MAİKEM bir sıra proqramları UNESCO və TACİS/TEMPUS ilə əməkdaşlıq çərçivəsində həyata keçirir. MAİKEM-in məhz yüksək tədris və elmi potensiala malik olduğu üçün, TACİS/TEMPUS proqramı tərəfindən o, bir baza müəssisəsi kimi seçilmişdir və beynəlxalq proqramlar üzrə Avropa ölkələrinə stajartırmaya göndərilən bir çox kitabxanaçılar və informasiya mütəxəssisləri məhz buraya gəlirlər. Hazırda MAİKEM Avropanın, Afrikanın və Asiyanın bir sıra ölkələrinin - o cümlədən MDB ölkələrinin bir sıra ali məktəbləri, kitabxanaları ilə əlaqə saxlayır. Belə ölkələrə misal olaraq Qırğızıstanı, Ukraynanı, Rusiya Federasiyasını, Şimali Afrika olkələrini göstərmək mümkündür.

Səfər ərəfəsində mən bu məktəbdə olacağımı bildikdən sonra, burada özümün BDU-dakı fəaliyyətimlə əlaqəli hansı məsələləri və problemləri öyrənməyi planlaşdırmağım barədə xüsusi əsaslandırma yazdım və təqdim etdim. Bundan başqa, mən MAİKEM-də keçiriləsək ixtisasartırma kursunun məzmunu ilə tanış olmaq istəyərkən TEMPUS proqramı ilə məşğul olan koordinator vasitəsi ilə MAİKEM-ə dəfələrlə mürasiət etsəm də təəssüf ki, belə məlumatı ala bilmədim.

Mən və mənim həmkarlarım Lion şəhərinə 2002-ci il noyabrın 9-da çatdıq. Ölkədə bu zaman istirahət və bayram günləri

olduğu üçün bizim iştirak edəcəyimiz kurslar noyabrın 12-də başladı. Onu da qeyd etmək lazımdir ki, bizimlə bir zamanda həmin kurslarda istirak etmək üçün Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərindən Bişkek Politexnik İnstitutunun Elmi Kitabxanasının bir qrup əməkdaşi da gəlmişdi və bizim bütün məşğələlərimiz qırğız həmkarlarımiz ilə birlikdə keçirdi. Məşğələlərdə fransız dilindən rus dilinə tərcumə qırğız kitabxanaları ilə birgə gəlmiş Bişkekdəki Fransa Səfirliyinin Mədəniyyət Mərkəzinin əməkdaşi tərəfindən aparılirdi. Lakin o, bu səfərdə iştirak edəcəyini əvvəlcədən bildiyinə baxmayaraq, heç bir hazırlıq işi aparmamışdı və buna görə də kitabxana-biblioqrafiya terminlərini və proseslərini bilmədiyindən tərsüməni çox aşağı səviyyədə aparırdı. Bu səbəbdən də mən və digər iştirakçilar mühazirəni aparan mütəxəssislərə və tərsüməçiyə müraciət edərək bu və ya digər məsələyə aydınlıq gətirməsini xahiş etməli olurduq. Belə bir vəziyyət bu məşğələlərin səviyyəsinə çox mənfi təsir edirdi.

MAİKEM-də olduğumuz ilk gün ali məktəblə ümumi tanışlığa həsr edildi və biz ilk növbədə onun kitabxanası ilə tanış olduq. Kitabxananın bir struktur vahidi kimi daxil olduğu Kitabxana Resursları Mərkəzinin əməkdaşı, A kateqoriyalı kitabxanaçı («konservatör») Daniella Nikke bizə kitabxananın quruluşu və yerinə yetirdiyi vəzifələr barədə ümumi məlumat verdi. Noyabrın 13-dən etibarən bizə Parisdə yerləşən Madiadiks şirkətinin mütəxəssisi, Paris-10 Universitetinin əməkdaşı İv Derişar «Sənədlərə müəssərlik» mövzusunda məşğələlərə başladı.

Məşqələnin ilk iki günündə o müasir kataloqlaşdırmanın əsas problemlərindən - predmetləşdirmədən, təsnifləşdirmədən, müxtəlif dillərdə kataloqun tərtibi xüsusiyyətlərindən bəhs etdi. Bunlardan əlavə, İv Derişar kataloqların informatizasiya probleminə xüsüsi diqqət yetirdi. O müasir kitabxana-biblioqrafik praktikasında xüsüsi əhəmiyyət kəsb edən digər problemə də toxundu. Bu da son zamanlar kitabxanaların fonduna daxil olan sənəd axını içərisində oxunması, istifadəsi üçün xüsusi qurğular tələb edən sənədlərin xüsusi kütləsinin artmasıdır. Son dövrlərdə miqdarı xüsusilə artan belə sənədlərdən müxtəlif standartlarda yazılmış, özündə mətn, çertyoj, təsvır və hətta musiqini əhatə edən lazer disklərini (CD, DVD və s.) misal ğətirmək olar. Qeyd etmək lazımdır ki, Fransada yeni tipli belə sənədlərə xüsüsi diqqət yetirilir. Heç də təsadüfi deyildir ki, fondu əsasən bu tipli sənədlərlə komplektləşdirilən



müəssisələr- mediatekalar məhz Fransada meydana çıxmış və bu məfhum beynəlxalq leksikona məhz fransız dilindən keçmişdir. Son bir-iki ildə isə biblioqrafiyalaşdırma prosesi üçün prinsipcə yeni obyektlər olan qeyri-maddi və ya virtual sənədlərin təsviri və axtarış sistemlərində əks olunması aktual məsələlərdən birinə çevrilmişdir. İv Derişar söylədi ki, fransız və dünya sənəd-kommunikasiya sistemlərində qeyri-maddi sənəd və ya virtual sənəd deyərkən, kompüter avadanlığında rəqəm texnoloğiyaları əsasında yaradılan və heç bir maddi daşıyıcıda (kağızda, maqnit diskində, lazer diskində və s.) çap, nəşr və ya qeyd edilməyən və istifadəyə kompüter informasiya şəbəkələri vasitəsi ilə çatdırılan sənədlər nəzərdə tutulur. Belə sənədlərə misal olaraq o, onlayn jurnalları, qəzetlərin İnternet versiyalarını, iri İnternet səhifələrini ğöstərdi.

Sonrakı ğünlərdə İv Derişar Fransada Milli miqyasda uçot-qeyd biblioqrafiyasından və ölkə miqyasında biblioqrafik informasiya massivinin yaradılmasından bəhs etdi. O qeyd etdi ki, Fransa Milli biblioqrafiya yaradılması sahəsində zəngin ənənələrə malikdir və Fransa Milli Kitabxanasının başçılığı ilə bu iş ardıcıl olaraq davam etdirilir. Bu ölkə həm də ənənəvi formada olan biblioqrafik mənbələrin rəqəm formasına konversiya edilməsi sahəsində qabaqcıl mövqelərə malikdir. Hazırda Fransa Milli Biblioqrafiyası 7,7 milyon biblioqrafik təsviri əhatə edir və bu rəqəm daim artmaqda davam edir. Həmin biblioqrafik informasiya massivi həm kartoçka, həm də elektron formada (MARC standartında) və onlayn mövcuddur. O, ayrıca məşğələlərdə MARC və İSBD standartları əsasında təsvirlərin tərtibini əyani nümunələrlə izah etdi. O, xüsusən də çoxdilli məkanda (məsələn, MDB ölkələrində) biblioqrafik təsvir üçün böyük əhəmiyyət daşıyan transliterasiya probleminin ayrı-ayrı aspektlərini şərh etdi. Bu zaman o MARC formatında (MARC formatının Fransada istifadə edilən İNTERMARC versiyasında) və İSBD əsasında sənədlərin biblioqrafik təsvirini müqayisəli şəkildə apararaq onların xüsusiyyətlərini izah etdi.

İv Derişar Fransada kataloqlaşdırma və konversiya sahəsində bu ölkənin təcrübəsi barəsində də bir cox maraqlı faktları şərh etdi. O, Fransa universitet kitabxanalarının kollektiv olaraq yaratdığı SUDOC onlayn kataloqundan və eləcə də OCLC kataloqundan ətraflı bəhs etdi. O dünya miqyasında qəbul edilmiş biblioqrafik təsvir standartlarına nümunə olaraq İSBD standartından və onun tətbiqi məsələlərindən, təsvir üzrə Fransa Milli standartı olan NF

224-50 standartından, ABŞ-ın AACR-2000 standartından ətraflı bəhs etdi. İv Derişar MARC formatında biblioqrafik təsvirlərin tərtibinin xüsusi ilə vacib məsələlərinin izahına ayrıca məşğələ həsr etdi. O qeyd etdi ki, bir çox hallarda sənədin sərlövhəsi onun məzmunu haqda məlumat əldə etməyə imkan vermir. Bu çətinliyi aradan qaldırmaq üçün predmetləşdirmə prosesindən və bu prosesin əsasında duran predmet rubrikalarından (fransızca-vedett) istifadə edilir. O qeyd etdi ki, dünya miqyasında məşhur olan ABŞ Konqress Kitabxanasının Əlifba-predmet göstəricisi (LCSH) dünyanın ən mükəmməl göstəricilərindən biridir. Bu sahədə Kanadada çox iş görülmüşdür və həmin göstəricinin fransız dilində analoqu Kanadanın Laval Universitetinin mütəxəssisləri tərəfindən tərcümə edilərək uyğunlaşdırılmışdır. Fransa Milli kitabxanası isə həmin tərcümə variantı əsasında RAMEAU adlı Əlifba-predmet göstəricisi versiyası yaratmışdır.

MARC formatında yaradılmış elektron kataloqda sənədin predmet rubrikasının düzgün müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. MARC formatında avtoritet qeydlərin tətbiqi məsələlərindən bəhs edən mütəxəssis izah etdiyi məsələlər barədə bir sıra əyani misallar gətirdi. Kataloqlaşdırma sahəsində Fransa təcrübəsindən ətraflı bəhs edən İv Derişar qeyd etdi ki, bu ölkənin əksər kitabxanalarında mövcud sənəd fondunün məzmununu əks etdirən xüsusi tezauruslar yaradılmışdır. Onlar həm biblioqrafiyalaşdırmada, həm də biblioqrafik axtarışda geniş istifadə edilir.

İv Derişar Fransada kataloqların konversiyası sahəsində maraqlı bir təcribəni də qeyd etdi. O göstərdi ki, Fransada retrokonversiya XX əsrin 70-ci illərindən etibarən başlamışdır. Bu işin daha sürətlə görülməsi üçün Fransa Milli biblioqrafiyasının kartoçkaları Hind-çin regionu ölkələrində fəaliyyət göstərən şirkətlərə göndərilirdi. Həmin ölkələrdə işçi qüvvəsi ucuz olduğundan orada kartoçkaların rəqəm-elektron formatına keçirilməsi tez və ucuz başa gəlirdi.

Noyabrın 18-dən etibarən məşqələləri MAİKEM-in müəllimi Tyeri Lafuj aparmağa başladı. Onun məşğələləri sənədlərə, onların kodlaşdırılmasına, informatikanın ümumi məsələlərinə və informasiyanın təşkilinə həsr olunmuşdu. Məşğələlər zamanı o, informatikanın bir elm kimi yaranıb inkişaf etməsindən, informasiya texnologiyalarının kitabxanalarda tətbiqinin inkişafından bəhs etdi.



Sonrakı dərslərində o, verilənlər bazalarından və onları idarə etməyə imkan verən idarəetmə sistemlərindən bəhs etdi.

Lafujun apardığı məşğələlər də maraqlı idi və o öz predmetini yaxşı bilir və onu dinləyicilərə yaxşı çatdırmağı bacarırdı. Lakin onun dediyi bir sıra məlumatlar auditoriyanın böyük bir qisminə məlum idi. Digər məsələlərdən bir qismi isə İv Derişar tərəfindən izah edilmişdi.

Noyabrın 21-də MAİKEM-in əməkdaşları Elizabet Noel və Sabrina Quadaqna İNTERNET-lə bağlı seminar və praktiki məşğələlər apardılar. Madam Noel Telnet protokolundan, İNTERNET-də domen məsələsindən, İNTERNET şəbəkəsinin yerləşdirilməsi və qiymətləndirilməsindən bəhs etdi. Quadaqna isə saytların müxtəlif kateqoriyalar üzrə təsnifləşdirilməsindən danışdı. Əgər birinci müəllimə bəhs etdiyi məsələləri aydın şəkildə çatdıra bilirdisə, ikincisi ondan fərqli olaraq öz işini böyük çətinliklə yerinə yetirirdi.

Noyabrın 22-də məşğələni MAİKEM-in müəllimi Omar Larok apardı. O, öz məşğələlərini İNTERNET portallarının yaradılmasına və kitabxanalarda avtomatlaşdırma üzrə layihələrin tərtibinə həsr etmişdir. Müəllim tədris etdiyi məsələləri gözəl bilir və onu böyük pedaqoji ustalıqla dinləyicilərə çatdıra bilirdi.

Yenə həmin gün Tyeri Lafujun kataloqların yaradılması və İNTERNET-də yerləşdirilməsi mövzusunda məşğələ aparması nəzərdə tutulurdu. Lakin o, gələ bilmədiyindən məşğələni MAİKEM-in kitabxanasının işçisi Tyer Kalav apardı. O bizə məktəbin kitabxanasında tətbiq edilən kataloqlar, xüsusən də OPAC və SUDOC haqqında ümumi məlumat verdi. O bildirdi ki, OPAC kataloqunun MAİKEM ilə əlaqəsini o özü təşkil edir və koordinasiya aparır. Bizim üçün maraqlı faktlardan biri də o oldu ki, MAİKEM-in kitabxanasının 5 işçisindən hər biri müəyyən elm və fəaliyyət sahələri üzrə həm ədəbiyyatın komplektləşdirilməsi, həm də həmin ədəbiyyatın biblioqrafik yazılarının tərtib edilməsi və ya alınması, elektron kataloqa daxil edilməsi üzrə məsuldur. Hal-hazırda bu kitabxananın kataloqunda 38 minə yaxın biblioqrafik yazı vardır.

MAİKEM-də olduğumuz müddətdə son məşğələ Parisdə elektron nəşrlərin yaradılması ilə məşğul olan mütəxəssis Olivye Pujol tərəfindən noyabrın 27-də aparıldı. O öz mühazirələrində rəqəm sənədlərinin hazırlanması və kitabxanalarda istifadə məsələlərini əhatə etdi. O qeyd etdi ki, bir çox nəşriyyatların məhsulu içərisində rəqəm sənədlər (elektron nəşrlər) kağızda nəşr

olunan kitablarla müqayisədə daha çox nəşr edilməyə başlamışdır. Rəqəm sənədlərinin çoxaldılması kitablara nisbətən dəfələrlə az maddi resurslar tələb edir. Nəticədə rəqəm sənədlərinin maya dəyəri xeyli az olur ki, bu da qiymətin aşağı olmasına gətirib çıxarır. Məhz buna görə də, dünyanın bir çox ölkələrində, o cümlədən Fransada kitabxanalar öz fondlarını komplektləşdirmək üçün rəqəm sənədəlrindən daha çox istifadə etməyə başlamışlar. Rəqəm sənədələrinin digər bir əhəmiyyətli üstünlüyü bu sənədlərin kitablara nisbətən xeyli az yer tutması və eyni zamanda bir neçə məqsəd üçün istifadə edilə bilmə imkanıdır.

Lionda olduğumuz müddət ərzində bir sıra digər tədbirlərdə də iştirak etdik. Məsələn, Fransanın toxuculuq sənayesi və tarixi sahəsində ən böyük ixtisaslaşmış kitabxanası və sənəd-informasiya mərkəzinin yerləşdiyi Lion Toxuculuq muzeyinə ekskursiya çox maraqlı oldu. Buradakı kitabxananın fondunda dlünyanın bir çox ölkələrində nəşr edilmiş kitablarla yanaşı toxuculuqla bağlı xeyli izoqrafik nəşrlər, elektron sənədlər toplanmışdır. Buradakı İnformasiya Mərkəzi isə bu sənaye sahəsi üzrə elmi-texniki informasiyanı toplayır, emal edir və tələbatçılara çatdırır. Burada ən yeni informasiya texnologiyaların tətbiqinə böyük əhəmiyyət verilir. Xüsusən də müxtəlif toxuculuq məmulatlarının bədii tərtibatı ilə əlaqədar təsvirlər (imiclər) bankı xüsusi maraq doğurdu.

MAİKİM-də keçirilən digər maraqlı tədbir Fransanın Nansi Universitetinin və İngiltərənin Bredford Kitabxana Kollecinin nümayəndələrinin işitirakı ilə Bişkek Texniki Universitetinin Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sisteminin yaradılması layihəsinin müzakirəsini oldu. Mənim üçün BTU-nun avtomatlaşdırılmış sisteminin yaradılması ilə əlaqədar məsələlərlə tanışlıq böyük maraq doğurdu.

Bizim iştirak etdiyimiz digər maraqlı tədbir noyabr ayının 28-29-da Lionda yerləşən Ali Səviyyəli Dövlət İdarəetmə Kadrları Məktəbində keçirilən DocForum adlı tədbir oldu. Bu sanballı elmi məclisdə həm Fransadan, həm də xaricdən gəlmiş bu forumda sənəd-kommunikasiya sisteminin müxtəlif vəsilələrində və eləcə də digər səviyyələrdə baş verən informasiya prosesləri müzakirə edildi. Bu tədbirdə kitabxana, informasiya, kompüter texnologiyaları mütəxəssisləri, ənənəvi və elektron nəşriyyatların, kommunikasiya şirkətlərinin nümayəndələri bu sahələrin aktual problemlərini müzakirə edirdilər.



Lakin təəssüf ki, noyabrın 25-dən etibarən Bişkekdən gəlmiş tərcüməçi öz funksiyalarını yerinə yetirməyi demək olar ki, dayandırmışdı. Etdiyi tərcümələr isə çox aşağı səviyyədə idi və söhbətin nədən getdiyini belə müəyyən etməyə imkan vermirdi. Lakin biz tərcümənin faktiki olaraq olmamasını kompensasiya etməyə çalışdıq. Belə ki, mən DocForumun fasilələrində onun iştirakçıları ilə tanış olaraq bizim üçün maraq kəsb edən ayrı-ayrı məsələləri müzakirə etdim, bu tədbiri keçirən qurumun rəhbərliyi ilə görüşməyə çalışdım. DocForumun direktorunu görə bilməsəm də, onun köməkçisi ilə görüşüb gələcək əməkdaşlıq imkanlarını və qarşılıqlı əlaqələri müzakirə etdim, bu sahədə razılıq əldə etdim.

MAİKEM-də olmağımızın son günündə stajartırma kurslarının yekun müzakirəsi, qiymətləndirilməsi və iştirakçılara şəhadətnamələrin təqdim edilməsi mərasimi oldu. Tədbiri MAİKEM üzrə bu proqramın əlaqələndiricisi xanım Fransua Leruj aparırdı. BDU-dan gəlmiş digər həmkarlarım kimi, mən də öz təşəkkürümü ifadə etdim, keçirilən tədbirin müsbət və mənfi cəhətlərinə toxundum. Mən xüsusi olaraq belə bir tədbirin keçirilməsinə şərait yaradıliası üçün MAİKEM-in rəhbərliyinə təşəkkürümü bildirdim. Lakin onu da vurğuladım ki, MAİKEM-də bu tədbirin keçirilməsinə lazımi qədər yaxşı hazırlıq işi aparılmaması üzündən və seminarın gedişində təşkilati işilərin zəif aparlması səbəbindən bu tədbirin potensial imkanlarının ancaq kiçik bir qismindən istifadə etmək mümkün olmuşdu və mən buna görə öz təəssüfümü bildirdim. Eyni zamanda, mən ona da ümid etdiyimi bildirdim ki, MAİKEM-də gələcəkdə belə tədbirlərin təşkilati hazırlığına daha böyük diqqət yetiriləcəkdir.

Ümumilikdə götürdükdə isə, mən iştiraksçısı olduğum tədbirin aşağıdakı müsbət cəhətlərini qeyd etmək istəyirəm:

- Mən haqqında geniş təsəvvürə və ya müəyyən məlumata malik oldu-ğum bir sıra məsələlər barədə bir qədər fərqlənən səpgidə və ya yeni aspektdə məlumatlar əldə etdim. Bunlara misal olaraq müasir dövrdə Fransada milli (dövlət) biblioqrafiyasının təşkilati aspektləri, Fransada həm milli, həm də müəyyən təsisatlar səviyyəsində (universitetlər, minisipalitetlər) kitabxanalar çərçivəsində yaradılmış onlayn biblioqrafik məlumat-axtarış sistemləri, MAİKEM-də kitabxana-biblioqrafik fəaliyyətin təşkili və burada yeni texnika və texnologiyaların tətbiqi, kitabxanaların onlayn elektron resurslarının yaradılmasının planlaşdırılması və həyata

keçirilməsi xüsusiyyətləri, nadir sənəd fondlarının, xüsusən də qədim kitabların rəqəmləşdirilərək mühafizəsi metodları, elektron sənədlər və o cümlədən elektron kitablar yaradılması sahəsində yeni yanaşma tərzi və texniki-təşkilati həllər, belə sənədlərin kitabxanalarda tətbiqi imkanları, kitabxana-biblioqrafik xidmətin təşkilində soraq-biblioqrafik aparatının Azərbaycandakından fərqli metodlarla təşkilinin xüsusiyyətləri, metaverilənlər (metadata) və onun kitabxana-biblioqrafik fəaliyyətin gələcək inkişafı üçün əhəmiyyətli məsələləri, rəqəm sənədlərindən istifadənin tənzimlənməsi sahəsində yeni tendensiyalar, informasiyalaşdırma zamanı zehni mülkiyyətdən istifadənin reqlamentləşdirilməsi aspektləri və s. barədə ətraflı və xeyli qiymətli məlumatlar əldə etdim.

Onu da qeyd etmək istərdim ki, mən özüm üçün yeni və maraqlı olan məlumatların böyük bir qismini məşğələ aparan müəllimlərlə və görüşdüyüm mütəxəsislərlə dialoqa girmək və suallar vermək yolu ilə əldə etdim.

İştirakçısı olduğum tədbirin mənfi və çatışmayan cəhətlərinə isə aşağıdakıları aid edə bilərəm:

- hələ tədbirdən bir ay əvvəl Bakıdan bu seminarın cədvəli və dərslərin tematik planlarının alınması üçün Liona, MAİKEM-ə dəfələrlə müraciət edilməsinə baxmayaraq, bu sorğuların cavabsız qalması və bizim tərəfimizdən lazımi hazırlıq işlərinin aparılmasının mümkün olmaması;

- MAİKEM tərəfindən Azərbaycan tərəfi üçün maraq kəsb edən məsələlərin əvvəlcədən müəyyənləşdirilməsi və aparılan məşğələlərin bu maraq və tələbə müvafiq olmaması;

- seminarın vahid konsepsiyası və metodikasının, keçilən kurs və onların ayrı-ayrı məşğələlərin arasında məntiqi əlaqə və ardıcıllığın olmaması və nəticədə seminarın effektinin azalması, ayrı-ayrı kurslarda mövzuların üst-üstə düşməsi;

- bir sıra müəllimlərin tədris etdiyi məsələni dərindən bilməməsi və ya yaxşı hazırlaşmaması, yaxud pedaqoji qabiliyyətinin olmaması;

- bir sıra məşğələlərdə hamıya məlum olan məsələlərdən bəhs edilməsi;

- məşğələlər üçün materialların əvvəlcədən xeyli hazırlıq vaxtı olmasına baxmayaraq, tərtib və tərcümə (heç olmasa rus dilinə) edilməməsi, paylaşdırılan mövzu planlarının və digər yardımçı mətnələrin olmaması;



- praktiki məşğələ nümunələrində Azərbaycanla bağlı nümunələrin seçilməməsi;

- tərcüməçinin öz vəzifəsini yerinə yetirməyə hazırlaşmaması üzündən tərcümənin keyfiyyətinin aşağı olması və noyabrın 25-dən etibarən öz funksiyasını xeyli pis yerinə yetirməsi;

- təşkilati səhlənkarlıq üzündən bir sıra dərslərin boş keçməsi;

- Lionda olduğumuz müddətdə Toxuculuq muzeyinin xırdaca kitabxanası istisna olmaqla, heç bir başqa kitabxanaya və hətta bizim üçün vacib olan universitet kitabxanasına gedişin təşkil edilməməsi (Qeyd: Bu boşluğu doldurmaq üçün mən qısa da olsa vaxt taparaq Deni Didro adına Universitetlərarası Kitabxanaya gedərək onun işi ilə tanış oldum);

- kitabxana fəaliyyətinin təşkilində kadr amilinin əhəmiyyətini nəzərə alaraq və fakültə təmsilçisi kimi dəfələrlə müraciətlərimə rəğmən MAİKEM-də tədris fəaliyyəti və kadr hazırlığı (o cümlədən onların ixtisasartırma kursları) barədə hər hansı məlumatın alınmasının mümkün olmaması;

- seminar iştirakçıları üçün toxuculuq muzeyinə gediş istisna olmaqla, heç bir mədəni proqramın təşkil edilməməsi;

- beynəlxalq səviyyəli 3 həftəlik stajartırma kursunun nəticəsi olaraq təqdim edilən sertifikatın bu hər iki (BDU və MAİKEM) tədris müəsisəsinin prestijinə müvafiq olmayan aşağı texniki icra (ən nazik printer kağızında və ağ-qara çaplı) səviyyəsi və s.

Qeyd etmək istəyirəm ki, MAİKEM öz elmi səviyyəsi, texniki və digər potensial imkanları baxımından kifayət qədər yüksək səviyyəli təhsil və tədqiqat müəsisədir və belə kursların lazımi dərəcədə keçirilməsi üçün kifayət qədər imkanlara malikdir. Lakin təəssüf ki, bu imkanlardan lazımi dərəcədə səmərəli istifadə edilmədi.

Mən belə hesab edirəm ki, BDU və MAİKEM arasında qarşılıqlı əməkdaşlığın böyük potensial imkanları vardır. Bunu mənimlə görüşdə bu məktəbin direktoru professor Düpiğone Değussi də təsdiq etdi. Lakin həmin potensial imkanlardan mümkün qədər səmərəli istifadə edilməlidir. Professor Düpiğone Değussi BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsi ilə qarşılıqlı əməkdaşlığın inkişafı üçün əlindən gələn hər şeyi etməyə hazır olduğunu bildirdi. Məsələn, o bildirdi ki, MAİKEM-in ən yaxşı mütəxəssisləri ixtisasartırma kursları və yeni təcrübənin çatdırıl-

ması üçün fakültəmizə ezam edilə, fakültəmizdən bilikli, bacarıqlı və ən başlıcası fransız dilində lazımi səviyyəyə malik tələbələr MAİKEM-ə oxumağa göndərilə bilər.

Son olaraq qeyd etmək istərdim ki, iştirakçısı olduğum ixtisasartırma kurslarını fakültəmizin tarixində MDB məkanından kənarda iştirak etdiyimiz bu tipli ilk tədbir olaraq, bir sıra nöqsanlara baxmayaraq, ümumən uğurlu hesab edirəm. Mən orada bir çox yeni məsələlərlə tanış oldum, bir çox yeni fakt və biliklər əldə etdim. Ən başlıcası, Azərbaycan xalqına rəğbət göstərən, mənimlə və təmsil etdiyim kollektivlə əməkdaşlığa hazır olan bacarıqlı mütəxəsislərlə əlaqələr yaradıldı və həmin əlaqələrə əsaslanaraq gələcəkdə bir sıra birgə tədbir və layihələrin hazırlanıb həyata keçirilməisi üçün ilk addımlar atıldı.

***Мамедов А.***

***Установления профессиональных связей между библиотечными специалистами Франции и Азербайджана***

*Резьюме*

В статье рассматривается прохождение курсов повышения квалификации для библиотечных специалистов под называнием «Модернизация библиотек» организованные в рамках программы Совета Европы TACIS/TEMPUS. Эты курсы проходили с 6-е по 29-е ноября в Национальной высшей школе информационных и библиотечных наук (НВШИБН) расположенной в французском городе Виллеурбан (недалеко от города Лион), где принимали участие автор статьи и другие специалисты из БГУ.

Отмечается положительные стороны, новизна и значимость представленных знаний и недостатки этих курсов, а также необходимость расширения связей Библиотечно-информационного факультета БГУ с коллегами из Франции.

# TƏBRİK EDİRİK!

## MŰQƏDDƏS İNSANIN MƏNALI ŐMŰR YOLU



**Bakı Dővlət Universiteti**

**Biblioqrafiya**

**kafedrasının műdiri,**

**tanınmış biblioqraf-alim,**

**professor**

**Zőhrab Əliyevin**

**70 yaşı**

**tamam olur**

*Bu műqəddəs insan uzun illərdən bəri tanıdığım və əziz műəllim, «aydan arı, sudan duru», őzű də, sőzű də gőzəl, qəlbi təmiz, olduqca xeyirxah, təmənnasız dost, hamımızın doğması Zőhrab Əliyevdir.*

*Zőhrab műəllimi 1967-ci ildən Bakı Dővlət Universitetinə daxil olduğum gűndən həmişə űrəyimdə xűsusi yeri olan əziz műəllim kimi qiymətləndirmişəm. İstər orta məktəbdə, istərsə də ali məktəbdə mənim çoxlu műəllimlərim olub. Bunlardan ən çox rəğbət gőstərdiyim, dərin hőrmət bəslədiyim, sőzűn əsl mənasında*

*ziyalılığına, şəxsiyyətinə və insanlığına qibtə etdiyim Zöhrab Əliyevdir.*

*Zöhrab müəllimin bu gözəl insani keyfiyyətlərini nəzərə alaraq 70 illik yubileyi ərəfəsində onun haqqında öz düşüncələrimi qələmə almağı özümə borc bilirəm.*

*Zöhrab müəllimin bütün mənalı ömrü Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi ilə bağlıdır. O, 1957-ci ildə BDU-nun Kitabxanaçılıq fakültəsinin «Kitabxanaşünaslıq və biblioqrafiya» ixtisası üzrə ilk aspirantı olmuş, «Azərbaycanda biblioqrafiya işinin tarixi» mövzusunda dissertasiya işini 1963-cü ildə müvəffəqiyyətlə müdafiə etmiş, pedaqoji elmlər namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Zöhrab müəllimin bu əsərində ilk dəfə olaraq Azərbaycanda biblioqrafiyaşünaslıq fikri, onun tarixi nəzəriyyəsi və inkişafı tədqiqata cəlb olunmuşdur. Beləliklə, Zöhrab müəllim özünün sanballı dissertasiya işi və digər elmi tədqiqat əsərləri ilə Azərbaycan biblioqrafiyaşünaslıq elminin bünövrəsini qoyanlardan biri kimi tarixə düşmüşdür.*

*Zöhrab müəllim tamamilə problemsiz bir insandır. O, bütün həyatı boyu heç kəs üçün problem yaratmayıb, həmişə çalışıb ki, öz problemini özü həll etsin. Zöhrab müəllim öz işini başqalarına tapşırmağı xoşlamır, özündən kiçikləri və tabeçiliyində olanları şəxsi işinə buyurmağı, onları əlavə olaraq yükləməyi xoşlamır. Yəni öz səlahiyyətlərindən sui-istifadə etmir. Zöhrab müəllim başqaları kimi heç vaxt «mənim fakültəm», «mənim kafedram», «mənim aspirantım», «mənim laborantım» sözlərini işlətmir. O, həmişə «bizim fakültə», «bizim kafedra» və s. hətta özünün rəhbərlik etdiyi aspirantına belə «bizim aspirant» kəlməsini işlədir. Əlbəttə, bunların hamısı çoxları üçün örnək, alicənablıq, ucalıq və böyük mədəniyyətdir.*

*Yəqin ki, yubiley buraxılışı üçün hazırlanan yazılarda birmənalı olaraq hamı Zöhrab müəllimin tələbələrin sevimlisi olduğunu yazacaqdır. Uzun illərin müşahidələrini nəzərə alaraq deyə bilərəm ki, bütün tələbələrimiz, məzunlarımız Zöhrab müəllimə «Dədə Zöhrab» deməklə onu özlərinə mənəvi ata, əziz müəllim kimi, qəbul edirlər. Həmişə onun hörmətini uca tutur, adını çox böyük hörmətlə çəkirlər. Uzun illər universitetdə işlədiyi dövrdə, on ilə yaxın fakültə dekanı vəzifəsində çalışdığı dövrdə hələ bir dəfə də olsun belə Zöhrab müəllimlə tələbələri və ya işçiləri arasında heç vaxt söz-söhbətə rast gəlməmişəm. Hətta dəcəl və intizamsız tələbələri belə Zöhrab müəllim özünün sakitliyi, mötəbərliyi,*



*qayğısı və nəhayət ata–bala məhəbbəti ilə həmişə onların qəlbinə yol tapır, onları düz yola qaytarır.*

*Zöhrab müəllim çox pak və təmiz bir adamdır. Bu baxımdan tələbələri, dostları və tabeçiliyində olan insanlar arasında onun alnı açıq, üzü ağdır.*

*Zöhrab müəllim dostluğa çox möhkəm və etibarlı bir insandır. O, dostluqda dəyişkən deyil. Onun dostluğu həmişəlik və əbədidir. Odur ki, yaxşı dost kimi professor İsmət Nəcəfov, professor B.Mirzəyev, professor İfrat xanım Əliyeva və başqaları uzun illərin dostu, yaxını kimi Zöhrab müəllimi həmişə uca tuturlar. Bu münasibət bizim kollektivə də keçib və Zöhrab müəllimin dostları bizim dostlarımıza çevrilmişlər.*

*Zöhrab müəllim mənim də müəllimim olub. Biz tələbə yoldaşlarımızla görüşəndə həmişə Zöhrab müəllimin adı birinci çəkilir. Tələbə dostlarım onu gözəl insan, əziz müəllim kimi yad edirlər. Mənim üçün də Zöhrab müəllim çox əziz və hörmətli insanlardın biridir. 1994-cü ildə mən Kitabxanaçılıq fakültəsinə dekan seçildiyim zaman Zöhrab müəllimin səhhəti onu bir az narahat edirdi. Bir gün Zöhrab müəllim mənim yanıma ərizə ilə gəldi və səhhətinə görə kafedra müdirliyindən çıxmaq istədiyini bildirdi. Əlbəttə, mən özüm də hiss etdim ki, bu, Zöhrab müəllimin xəstəliyindən çox onun məsuliyyət hissinin güclü olmasından irəli gəlirdi. Zöhrab müəllim həmişə işinə məsuliyyətlə yanaşan, ciddi-nizam intizama tabe olan, vaxtında işə gəlib-gedən bir insan olduğundan yəqin ki, o, belə fikirləşirdi ki, cavan və yeni seçilmiş dekanla işləmək bəlkə də çətin olar. Lakın mən onunla razılaşmadım və ondan xahiş etdim ki, o, qalıb bizimlə çiyin-çiyinə işləməlidir, onun ağsaqqalına, rəhbərliyinə, böyüklüyünə hamımızın ehtiyacı vardır. Minnətdarlıqla xatırlayıram ki, o vaxt bu nəcib insan mənim sözümü yerə salmadı və doğrudan da böyüklük göstərdi. Buna görə bu gün də sevimli müəllimim Zöhrab müəllimə «sağ ol» deyirəm və təşəkkürümü bildirirəm. O, tələbəsini meydanda tək qoymadı, mənim aləmimdə mənə böyük hörmət göstərdi. Zöhrab müəllim keçən dövr ərzində, yəni 1994-cü ildən bu yana iki dəfə ağır cərrahiyyə əməliyyatı keçirib. Şükürlər olsun ki, yaxşılara, pak insanlara Allah özü də yaxındır və ulu Tanrının köməyilə Zöhrab müəllim indi sağlam və gümrahdır. İntizamlı və məsuliyyətli işçi kimi həmişə öz iş yerində, sevimli kollektivində, tələbələrinin və dostlarının arasındadır. Yenə də o məsum gülüşü,*

*xırda zarafatları, ağıllı məsləhətləri ilə hamımıza örnək olmaqla bizimlədir.*

*Zöhrab müəllim tələbələrinin inkişafına ürəkdən sevinən bir insandır, o, heç vaxt təmənnalı iş görmür. Zöhrab müəllimin şəxsən özümə qarşı olan bir qayğısını xüsusilə vurğulamaq istəyirəm. 1984-cü ildə namizədlik dissertasiyasını müdafiə ərəfəsində idim. SSRİ Ali Attestasiya komissiyası lazımi sayda ixtisaslaşdırılmış şura üzvlərinin olmadığına görə Azərbaycanda müdafiəmin keçirilməsinə imkan vermədi. Bu səbəbdən dissertasiyamı Moskva Mədəniyyət İnstitutunun ixtisaslaşdırılmış şurasında müdafiə etməli oldum. Zöhrab müəllim mənim rəsmi opponentim təyin olundu. Əslində mən opponentimə bilet almalı, onu Moskvaya yola salmalı, orada qarşılamalı idim. Axı, hamı belə edir. Lakin əksinə oldu, belə ki, Zöhrab müəllim məni yola salanlardan biri idi. O, yaxşı bir sovqat - məşhur Göyçay narı, içki dolu bir bağlama düzəltmişdi ki, lazımın olar. Zöhrab müəllim Moskvaya və oradan geriyə - Bakıya özü bilet almışdı. Mən onu qarşılaya və Bakıya yola sala da bilmədim. Zöhrab müəllim təcili Bakıya qayıtmalı idi. O, müdafiədən sonra dostlarımızın məşhur «National» mehmanxanasın-da təşkil etdikləri ziyafətdə də iştirak edə bilmədi. Yəni rəsmi desək, opponentimə heç bir qağyı göstərə bilmədim. Bunlara baxmayaraq Zöhrab müəllim nə o günlər, nə bu gün bu minnəti heç vaxt hiss etdirməyib. Buna və digər münasibətlərə görə Zöhrab müəllimə özümü həmişəlik borclu hesab edirəm.*

*Zöhrab müəllim müdafiə zamanı rus dilində əsər haqqında özünə layiq bir tərzdə sözün əsl mənasında opponentlik etdi.*

*Bu gün bir həqiqəti demək olar ki, Zöhrab Əliyev Kitabxanaçılıq-informasiya fakültəsinin ağır yükünü çiynində aparan sütunlardan biridir. O, elmi, biliyi, zəkası və təcrübəsi ilə bu kollektivin inkişafında böyük xidmətləri olan başı uca alimlərdən biridir.*

*Alim demək olar ki, bütün yaradıcılığını Azərbaycan biblioqrafiyaşünaslığının inkişafına həsr etmişdir. 10 il fakültə dekanı, 1984-cü ildən kafedra müdiri kimi bu sahənin ən aparıcı mütəxəssislərindən biri kimi yetişmiş və formalaşmışdır.*

*Zöhrab Əliyevin yetkinliyini, əsərlərinin sayını nəzərə alaraq 1989-cu ildən ona professor elmi rütbəsi verilmişdir.*

*Zöhrab müəllimin 60-a qədər kitabı və elmi məqalələri vardır. Onun biblioqrafiyaşünaslığın müxtəlif sahələrinə həsr olunmuş 9 adda sanballı tədqiqatları, dərslik, dərs vəsaiti və monoqrafik*



*əsərləri vardır. Onlardan - 1.Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişaf tarixindən (1945-1956); «Azərbaycan mətbuat salnaməsi və çap kartoçkalarından istifadə olunması», «Tövsiyə biblioqrafik vəsaitlərin tərtibi metodikası: dərs vəsaiti», «Biblioqrafiyanın nəzəriyyəsi və metodikası: dərs vəsaiti», «Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970): dərs vəsaiti:», «Ümumi biblioqrafiyaşünaslıq» fənninin öyrənilməsinə dair metodik göstəriş», «Ümumi biblioqrafiyaşünaslıq: dərs vəsaiti» və s. əsərləri müstəqil respublikamızda milli dildə yazılan sanballı əsərlərdəndir və tələbələrimiz və tədqiqatçılarımız üçün olduqca lazımlı və vacibdir.*

*Zöhrab Əliyevi bütün Universitet kollektivi yaxşı tanıyır, hörmət edir, rəğbət bəsləyir. Uzun illər dekan, kafedra müdiri kimi Universitet rəhbərliyi onun fəaliyyətinə, məsuliyyətinə və işgüzarlığına qiymət qoymuş ona dərin hörmətlə yanaşılmışdır. Universitetin ictimai həyatında Zöhrab müəllim həmişə fəallıq göstərmiş öz müəllimlik adını uca tutmuşdur. Məhz buna görədir ki, Bakı Dövlət Universitetinin çoxsaylı kollektivi Zöhrab Əliyevi əsl Azərbaycan ziyalısı kimi dəyərləndirir və onun hörmətini saxlayır. Professor Zöhrab Əliyev bu gün ömrünün kamillik və müdriklik zirvəsinə qədəm qoyur. Qəti əminəm ki, həyatını şam kimi xalq yolunda damla-damla əridən bu nurani insan bundan sonra da hamının iftixarına çevriləcək, qazandığı şan-şöhrətin sanbalını daha da zənginləşdirəcək, gənc nəslin adını uca tutduğu müdrik və müqəddəs insan olaraq həmişə seviləcəkdir.*

*Əziz Zöhrab müəllimə həyatın ən şirin neməti olan can sağlığı və işlərində uğurlar arzulayıram.*

***Xəlil İSMAYILOV,***
*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq – informasiya*
*fakültəsinin dekanı, pedaqoji*
*elmlər namizədi, dosent*

***

***«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiya heyəti və Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi də bu təbriklərə qoşularaq, dəyərli alim və səmimi insan kimi hörmət qazanan ağsaqqal həmkarımız, professor Zöhrab Əliyevi anadan olmasının 70 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayırlar!***

## BİZİM MÜƏLLİFLƏR

***Xəlil İsmayıl oğlu İsmayılov,*** *Bakı Dövlət Universiteti Kitabxanaçılıq-İnformasiya fakültəsinin dekanı, pedaqoji elmlər namizədi, dosent, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti*

***Zöhrab İsa oğlu Baxşəliyev*** *– BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi*

***Zöhrab Hüseyn oğlu Əliyev*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqoji elmlər namizədi, professor*

***Əli Musa oğlu Rüstəmov*** *– BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Mayıl Mikayıl oğlu Həsənov*** *- BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının dosenti, tarix elmləri namizədi*

***Knyaz İlyas oğlu Aslan*** *– BDU-nun Kitabxanaşünaslıq kafedrasının baş müəllimi*

***Mehmanəli Əkbər oğlu Məmmədov*** *– BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının baş müəllim, pedaqoji elmlər namizədi*

***Əliyusif Məhəmməd oğlu Məmmədov*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının üzvü*

***Aynurə Sultanova*** *- BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin məzunu*

***Tərlan Mürşüd oğlu Muxtarov*** *- BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin magistri*

***Səbinə İsayeva*** *– Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin magistri*

KBT 78
K 73

***Təsisçi və***
***Baş redaktor:***
***dosent***
***Xəlil İSMAYILOV***

***Məsul redaktor:***
***Baş müəllim***
***Knyaz ASLAN***

**REDAKSİYA HEYƏTİ:**

Professor Abuzər XƏLƏFOV
Professor Zöhrab ƏLİYEV
Professor Bayram ALLAHVERDİYEV
Dosent Tacəddin QULİYEV
Dosent Əşrəf XƏLƏFOV
Dosent Rasim KAZIMOV
Desent Nadir İSMAYILOV

*K 73 Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2003. - №1. – 116 s.*

*Redaksiyanın ünvanı: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23, 2 №-li tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi, "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası. Telefonlar: 39-05-47; 39-03-66.*

**© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2003**

*Nəşriyyatın direktoru:* *Balakişi AĞAYEV*
*Mətbəənin müdiri:* *Ələs QASIMOV*
*Bədii redaktor:* *Mahir SÜLEYMANOV*
*Bilgisayar tərtibçisi:* *Dürdanə ABİYEVA*
*Bilgisayar yığıcısı:* *Maisə RƏHİMOVA*
*Korrektoru:* *Solmaz SADIQOVA*

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

Yığılmağa verilmişdir. 20. 02. 2003.
Çapa imzalanmışdır: 25. 03. 2003.
Kağız formatı: 60x84 1/16.
Fiziki ç.v.8.
Sayı 200.
Qiyməti müqavilə ilə.

*Ünvan: 370148 Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*